AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ
SOSİAL ELMLƏR VƏ PSİXOLOGİYA FAKÜLTƏSİ

Ümummilli lider Heydər Əliyevin anadan
olmasının 93-cü ildönümünə həsr edilmişdir

# ELM VƏ TƏHSİLİN İNKİŞAF STRATEGİYASI

## Gənc tədqiqatçıların respublika elmi-praktik konfransının materialları
## (27 aprel 2016-cı il)

Bakı-2016

## TƏŞKİLAT KOMİTƏSİ

| | |
|---|---|
| akad. A.M.Məhərrəmov - rektor | - sədr |
| prof. A.H.Kazımzadə | - elm və innovasiyalar |
| üzrə prorektor, | - sədr müavini |
| prof. H.Ə.Əlizadə | -dekan, sədr müavini |
| AMEA-nın müxbir üzvü, | |
| prof. B.H.Əliyev | - kafedra müdiri, üzv |
| prof. K.R.Əliyeva | - kafedra müdiri, üzv |
| prof. R.N.Aslanova | - kafedra müdiri, üzv |
| prof. İ.Ə.Rüstəmov | - kafedra müdiri, üzv |
| prof. R.F.İbrahimbəyova | - kafedra müdiri, üzv |
| dos. H.Q.Məmmədov | - kafedra müdiri, üzv |
| prof. L.H.Qasımova | -kafedra müdiri, fakültə elmi-metodik şürasının sədri, üzv |
| prof. Q.Y.Abbasova | - dekan müavini, məsul katib |

## PSİXOLOGİYA BÖLMƏSİ

*Bölmə rəhbəri – dos.M.Vəliyev*

# ŞƏXSİYYƏTİN SİYASİ İDENTİKLİYİ PROBLEMİNƏ ƏSAS YANAŞMALAR

***Dos. A.F.Səməndərova, psixologiya kafedrasının dosenti, BDU***

Siyasi identiklik sosial identikliyin bir növü olub, müəyyən bir siyasi mövqeyin qəbul edilməsində, bəzi hallarda isə əksinə onun inkar edilməsində təzahür edir. Siyasi identiklik insanın siyasi proseslərə qoşulması üçün vacibdir. Insanın bu və ya digər siyasi mövqelə indentikliyi sosial mövqe, cəmiyyətdə bütövlükdə siyasi vəziyyətin qiymətləndirilməsi, təşəkkül tapmış siyasi simpatiya və antipatiya və s. kimi amillərdən asılıdır.

Funksionalist yanaşma siyasi identikliyi siyasi mədəniyyət çərçivəsində öyrənir ki, burada siyasi identiklik fərdin özünü "ümumi digərlərilə" eyniləşdirməsi kimi dərk edilir. Burada mərkəzi rol xüsusi motivasiya sistemi kimi çıxış edən sərvət meyllərinə verilir. Sərvət meylləri insana həm öz identikliyini, həm də digər baxışlar sisteminin nümayəndələrindən fərqini dərk etmək imkanı verir. Fərd öz siyasi reallığını "özümünkülər-nədə isə mənə yaxın olanlar-yadlar-ədavətli insanlar" sxemi üzrə qurur [1].

Poststrukturalizm çərçivəsində siyasi identiklik insanın özünü oxşar qabitus və həyati traektoriyaları olan fərdlərlə eyniləşməsi vaasitəsilə müəyyən olunur ki, bu əsasda da siniflərin qurulması baş verir. Siyasi identiklik sosial identikliyin bir növü kimi öz təbiətinə görə rasional və refleksivdir. Bu xarakteristika siyasət sahəsinin bir agentləri ilə birləşmə, digərlərindən uzaqlaşmanın simvolik vasitəsi,

siyasi fəaliyyət üçün insanların əsas birləşmə vasitəsidir. "əhəmiyyətli digərlərinin" interiorizasiya olunmuş (daxilə köçürülmüş) obrazları siyasi sahə agentlərinin şəxsləşdirilmiş siyasi mövqeyi kimi çıxış edir. Beləliklə, fərd öz siyasi mövqeyini öz təcrübəsi, eləcə də siyasi şəraiti müəyyən edilmiş xətt üzrə qavranılması və qiymətləndirilməsi yolu ilə müəyyən edir.

Mahiyyətcə rasional və refleksiv xarakter daşıyan siyasi identiklik sturkluralizm çərçivəsində situasion və transversanal kimi nəzərdən keçirilir.

Situasyon siyasi identikliyi öyrənən strukturalistlər göstərir ki, siyasi identiklik siyasi təcrübə ilə bağlıdır və onun dəyişməsi üçün xaricdən, kənardan bizə qəbul etdirilən situasiyanın və siyasi qərarın analizi sxemi kifayətdir. Situasyon siyasi identiklik insanın siyasi identikliyinin qurulması üçün əsas kimi çıxış edir. Onun üçün də, insan tərəfindən mənalandırılmalı, qəbul edilməli və bütün oxşar situasiyalara şamil edilməlidir. Situasyon siyasi identiklik bu və ya digər situasiya ilə şərtllənir və nisbətən asanlıqla dəyişə bilir.

Transverasl siyasi identiklik isə bütün siyasi təcrübəni və fərd üçün siyasi münasibətlərin əhəmiyyətini əks etdirir. O daha sabit və uzunmüddətlidir.

Göründüyü kimi, bu problemə həsr edilmiş müasir elmi ədəbiyyatda siaysi identiklik anlayışı ətrafında vahid bir mövqe mövcud deyil. Lakin bir şey aydındır ki, siyasi identiklik şəxsiyyətin, qrupun, siniflərin və hakim elitanın süur və davranışının vacib tənzimləyicisidir.

Bir tərəfdən, siyasi identiklik insanların şüurunda dövlərin geosiyasi və xarici siyasi orientirlərinin sabit obraz kimi çıxış edir. Digər tərəfdən, siyasi identiklik – insanın özünü digər siyasi münasibətlərin subyektləri tərəfindən tanınan siyasi mövqelə eyniləşdirməsidir. Başqa sözlə, siyasi identiklik-qrupa mənsubluğun bir növüdür. Bunun hesabına özünün qrupa

mənsubluğunu dərk edir, və öz siyasi davranışında da bunu rəhbər tutur [2].

Siyasi identiklik əksər hallarda partiya identikliyi kimi nəzərdən keçirilir. Siyasi identikliyin öyrənilməsi əgər seçkilərdən söhbət gedirsə, nəinki siyasi partiyanın və ya siyasi liderin şanslarının qiymətləndirmək, eləcə də ümumilikdə cəmiyyətin və dövlətin sabitlik dərəcəsini də qiymətləndirmək imkanı verir.

Beləliklə də, deyə bilərik ki, siyasi identiklik insanın fəaliyyətinin tənzimləyicisi, sistem yaradan element kimi çıxış edərək, müəyyən siyasi davranışı diktə edir. İnsanda identikliyin hansı səviyyədə olmasından asılı olaraq, onun davranışı, qəbul edib və ya inkar etdiyi dəyərlər, normalar, maraqlar, prinsiplər, stereotip və ustanovkalar (yönəlişlər) haqqında fikir yürütmək olur.

## ƏDƏBİYYAT

1. Астапова Е.В. Политико-правовая идентичность России в контексте тенденций глобализации: автореф. Дис..канд. юрид. Наук. Ростов-на Дону, 2002

2. Фарукшин М.Х., Зазнаев О.И. Политическая идентичность в контексте политической культуры. Казань, 2009

# GƏNCLƏRİN AQRESSİV DAVRANIŞININ CİNAYƏTƏ YOL AÇMASI

***Şahmuradova Aynur***
***BDU-nun II kurs magistrantı***
***ashahmuradova90@gmail.com***

Tarix boyu bəşəriyyət zorakılıq, qəddarlıq, qəsdlər, dağıntılarla özünü göstərən və insanlara fiziki və mənəvi əziyyət verən hallarla qarşılaşmışdır. Demək olar ki, hər gün,

hər saat kütləvi informasiya vasitələrindən insanların aqressiv davranışının təcəssümü olan cinayətlər, müharibələr, terrorlar barədə məlumatlar eşidirik. Bəzi hallarda aqressiv davranış emosional sferanın məhsulu kimi nəzərdən keçirilir. Başqa sözlə, öndə nifrət və qəzəb kimi emosional hallar durur.

Müəyyən edilmişdir ki, himayəyə götürülmüş uşaqlarda bioloji valideynlərinin xüsusiyyətləri vardır. Belə ki, himayəyə götürülmüş uşaqlar arasında valideynləri məhkum olunmuşların kriminal davranış riski daha çoxdur. Eyni zamanda ögey valideynlərin də davranışının himayəyə götürülmüş uşaqlarda aqressiv davranışın formalaşmasına səbəb olması məlumdur.

E. From aqressiv davranışın xoşxassəli və bədxassəli növlərini ayırmışdır. O, xoşxassəli aqressiv davranışa idman oyunlarında rast gəlinən oyun aqressiyasını aid etmişdir. Burada məqsəd hər hansı bir cinayət (rəqibi öldürmək, yaralamaq) törətmək deyil, çəldlik və məharəti nümayiş etdirməkdir. Xoşxassəli aqressiv davranışa həm də hər hansı bir məqsədə nail olmaq üçün yönəlmiş özünütəsdiq meylidir. Bu, şəxsin özünütəsdiq etməsi üçün vacibdir. Bədxassəli aqressiv davranışa paxıllıq və qısqanclıq aiddir. Bu zaman cinayətkar təkcə istədiyinə malik olmadığı üçün yox, həm də başqasının buna malik olmasına görə cinayət törədir. Bədxassəli aqressiv davranışa həm də intiqam məqsədilə həyata keçirilən davranış aiddir. Fromma görə bədxassəli aqressiv davranışın mənbələri aşağıdakılardır:

Nekrofiliya – bütün cansız şeylərə meyl, həyata qarşı biganəlik, sadələşdirmək, bəsitləşdirmək cəhdi.

Narsissizm – öz şəxsiyyətinə pərəstiş, özünə vurğunluq, hamını və hər şeyi şəxsi arzulara tabe etdirmək.

İnsestual simbioz – azadlıqdan qorxma, başqalarından asılılıq, qüvvəni şəxsləşdirmək.

Kriminal davranış zamanı cinayətkarlar bəzən fərəh və qənaətlənmə, bəzən peşmançılıq və başqasının halına acıma

kimi hisslər keçirir. Aqressiv insanlarda isə peşmançılığın görülməsi nadir haldır. Insan şüurlu şəkildə aqressiyanı bir halda biruzə verib, digər halda cilovlamaq xüsusiyyətinə malikdir. Aqressiv davranış və özünənəzarət arasındakı qarşılıqlı əlaqələri öyrənən Meqharcinin tədqiqatları nəticəsində mühüm məlumatlar əldə olunmuşdur. Zorakılığın ifrat formalarını müşahidə edən tədqiqatçı belə bir heyrətamiz nəticəyə gəlmişdir ki, ən dəhşətli cinayətləri həmişə qeyri-fəal, səbirli və təmkinli görünən şəxslər törədir. Onlar özlərinə müəyyən müddət nəzarət etməyi bacarırlar. Bu cür şəxslər son ana kimi baş verənlərə sakit reaksiya verməyə çalışır. Onlar bu vəziyyətdə sanki güc toplayırlar. Kriminal keçmişə malik çoxsaylı cinayətlər törətmiş şəxslərdən fərqli olaraq, beləlləri daha qatı cinayətlər törədirlər.

ƏDƏBİYYAT


1. N. V. İsmayılov, F. N. İsmayılov, Tibbi psixologiya və psixoterapiya, Bakı-2008.
2. Ениколопов С. А., Некоторые результаты исследование агрессии. Личност преступника как обьект психологического исследования, М. 1979.
3. Балабанова Л. М., Судебная патопсихология, 1998.


## YENİYETMƏ MİQRANTLARIN PSİXOLOJİ ADAPTASİYASININ YAŞ VƏ FƏRDİ XÜSUSİYYƏTLƏRİ


*Yıldız Mustafa, BDU-nun Sosial və pedaqoji psixologiya kafedrasının magistrantı*
*E-mail. bakustar46@hotmail.com*


Müasir dövrdə baş verən dinamik dəyişikliklər, yeni sosial-iqtisadi münasibətlərin ortaya çıxması, şəxsiyyətlərarası

münasibətlərdə əvvəlkilərdən fərqli çalarların formalaşması gənclərdən mühitə bu və ya digər şəkildə dinamik adaptasiyası olunmasını tələb edir ki, bunsuz hər hansı uğurlu fəaliyyətdən danışmaq çətindir. Bununla yanaşı qlobal inteqrasiya proseslərinin sürətlənməsi və yeniyetmələrin bu prosesə adaptasiyası yeni mənəvi-əxlaqi dəyərlərin ortaya çıxmasına zəmin yaradır. Bu dəyişilmələr göstərir ki, ümumiyyətlə, adaptasiya prosesinin miqrant yeniyetmələrin fəaliyyətinə müsbət və mənfi təsirini diqqətdən kənarda saxlamaq olmaz. Ona görə ki, müasir yeniyetmələr üçün zəruri olan dəyərlər modeli hələ tam şəkildə yaranmamış, köhnələri isə tamam ilə dağılmamışdır. Bununla belə yeninin yaranması bir sıra çətinliklər və manelərlə müşahidə olunur. Belə vəziyyət miqrant yeniyetmələrin yeni şəraitə adaptasiyasında problemlər yaradır

daptasiya prosesi ilə bağlı bir mühüm cəhət də qeyd olunmalıdır ki, orta nəslin malik olduğu dəyərlər müasir yeniyetmələr tərəfindən az qəbul edildiyindən həmin adət-ənənələr, dəyərlər sistemi deformasiyaya uğrayır, yeni milli-mənəvi dəyərlərə zidd olana yeni normalar formalaşır ki, bunlarda əksər hallarda cəmiyyət tərəfindən bir mənalı qarşılanmır.

Bu günkü yeniyetmələrdə formalaşan ünsiyyət tərzləri, dünyanı qavrama istiqamətləri və prioritet dəyərlər cəmiyyətin sosial strukturunun formalaşmasında əsas tendensiyaya çevrilib ki, bu da müxtəlif neqativ halların yaranmasına şərait yaradır.

Bir halda ki, adaptasiya prosesi miqrant yeniyetmənin həyatının normalarını, davranış və fəaliyyət formalarını, tələb və maraqlarını mənimsəməsini və «özününküləşdirməsini» təmin edir, deməli, adaptasiya prosesi planlaşdırılmalı, idarə olunmalı və gedişinə nəzarət edilməlidir. Yeniyetmənin seçdiyi peşəyə yaradıcı münasibəti məhz adaptasiya prosesində formalaşır

Miqrant yeniyetmələrin adaptasiyası prosesinə pedaqoji təsirin vacibliyi həm də onunla şərtlənir ki, məktəbin real şəraitindən və özünün şəxsi keyfiyyətlərindən asılı olaraq,miqrant yeniyetmə öz

şəxsiyyətinin ya əsasən birtərəfli, yaxud da əsasən hərtərəfli inkişafını təmin etməyə yönəlir. Tərbiyəvi işlərin təsiri isə fərdin mənəvi aləminin zənginliyinə və çoxçalarlığına əsaslanaraq, yeniyetmənin ahəngar inkişafını təmin edir. Bu və ya digər səbəblərlə əlaqədar, inkişafın bu normaları kortəbii olaraq pozulur, beləliklə, birtərəfli inkişaf etmiş miqrant yeniyetmələr meydana gəlir.

Ədəbiyyat

1. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı: Adiloğlu, 2003, 282 s.
2. Məmmədli İ. Miqrantların identikliyinin sosial-psixoloji problemləri. Psixologiaya ü. F. dok. diss. Avtoreferatı. Bakı:2013, 23 s.

## AŞAĞI ƏTRAFLARI AMPUTASİYA EDİLMİŞ ŞƏXSLƏRİN PSİXOLOJİ DURUMU

***prof.E.İ.Şəfiyeva***
***dos. S.A.Allahyarova***
***dos.S.Y.Quliyeva, psixologiya kafedrası, BDU***

Hər il digər dünya dövlətlərində olduğu kimi ölkəmizdə də bir çox qaçılmaz səbəblərdən amputasiya cərrahi əməliyyatları həyata keçirilir. Bu proses şəxslərin yalnız fiziki cəhətdən məhdudiyyəti ilə deyil, həm də psixi cəhətdən bir sıra mənfi təzahürləri ilə nəticələnir. İstər yuxarı, istərsə də aşağı ətrafın amutasiyasından sonra şəxsin cəmiyyətə, sonrakı həyatına, insanlara, onun bu vəziyyətinə səbəb olan faktorlara (bu hansısa bir xəstəlik, müharibə rejimi və yaxud da arzuedilməz bir hadisə nəticəsində yaşanmış travmalar ola bilər) münasibəti, ümumiyyətlə psixi durumu çox böyük maraq kəsb edir. Çünki məhz bunlar şəxsin yenidən cəmiyyətə adaptasiyasında, sonrakı həyatında vacib əhəmiyyət kəsb edir

və daha sonralar meydana gələn bir sıra ağır psixoloji vəziyyətlərə - krizis hallarına səbəb ola bilər.

Amputasiya sözü latınca *“amputare”* – kəsib götürmək sözündən götürülüb, ambi - ətrafında, kənarında, putare – kəsmək, ixtisar etmək. Ingiliscə *“ amputation”* sözü isə ilk dəfə XVII əsrdə, Peter Lovenin *“ Cərrahiyə mədəniyyətinin tam mühazirələrində ”* tibbə gətirilmişdir. Bu terminlər XVI əsr fransız ədəbiyyatında və ingilis müəlliflərinin yazılarında “ extirper ”(fransızca), *“ extirpation”* (ingiliscə)– tələf etmək, kəsmək şəklində təsvir edilirdi, *“ disarticulation ”* və “ dismemberment ” – ayırmaq, parçalamaq sözləri isə qədim fransızcada *“ desmembrer”* sözündən yaranmışdır.[

Amputasiya prosesi tarixi müxtəlif dövrlərə bölünə bilər. İlk aşağı ətrafların kəsilməsi travma və qeyri-cərrahi müdaxilənin nəticəsi olurdu, əlbəttə ki, xəstənin həyatı qurtarılsa da infeksiyalara yoluxma və həddən artıq qan itkisidən yayınmaq mümkün deyildi. Cərrahi texniki imkanların inkişafı XIX əsr – 1840 –cı illərdə anestiziyanın tətbiqi və infeksiyalara nəzarətin məhsuldarlığı ilə əlaqəli olmuşdur. XX ərsdən etibarən isə tibbin nəzərə çarpacaq inkişafı ilə yanaşı mükəmmələşmiş protezlərin də istifadəs amputasiya sahəsində öz müsbət nəticələrini verir.

Amputasiya səbəbləri sırasında qəza halları, infeksiyalar, qanqrenalar, xərçəng, diabet fəsadları və s. xüsusi qeyd edilir.

Amputasiya prosesinin uğurluluğunu müəyyən edən vacib üç faktor aşağıdakılardır:

- Yaxşı güdül
- Uyğun gələn protez
- Və reabilitasiya proqramı

Göstərilən faktorlar arasında sıx asılılıq vardır. Güdülün keyfiyyəti də öz növbəsində müxtəlif amillərdən asılıdır. Amputasiya səbəbi, nə dərəcədə fəsadın dərin olması güdülün uzunluğunu müəyyən edir. Həmçinin fəsadın səviyyəsi güdülün gələcək fiziki məşqləri, protezi və fiziki yükü üstlənə

bilməsinə səbəb olar, belə ki amputasiya səbəbi fəsadlaşması ağır olarsa və güdülün forması münasib olmazsa bu növbəti prosedurlarda aşağı nəticələdən xəbər verir.

Amputasiyadan sonra müşahidə edilən xüsusi psixoloji və tibbi izaha ehtiyac duyulan problemlərdən biri də fantom ağrılardır. Bu ağrılar yanğı, sancı, sanki kəsilmə hissi, keyimə hissi kimi özünü biruzə verir. Fantom ağrılar insan yaddaşının bir məhsuludur, belə ki, aşağı ətraf olmadıqda belə sinir sonluqları onurğa beyinə qıcıqlar ötürür, onurğa beyin isə həmin qıcıqları şəklini dəyişmiş formada baş beyinə göndərir, lakin baş beyində bu informasiya tam emal olunmur, ağrı, keyimə, gizilti və s.şəkildə əks olunur. Əgər amputasiya prosesi yerli anesteziya ilə aparılıbsa, sinir sonluqları bağlanılır və bu xəstələrdə tam anesteziya altında amputasiya olunmuşlardan fərqli olaraq fantom ağrılar müşahidə edilmir.

## MODA SOSİAL-PSİXOLOJİ FENOMEN KİMİ

***İbrahimova Diyanə Rəşid qızı***
***BDU-nun Sosial və pedaqoji psixologiya kafedrasının dissertantı***

İnsanların modaya münasibəti maraqlı, lakin son dərəcə mürəkkəb məsələdir. Onlar çox vaxt modaya öz həyati problemlərinin həlli vasitəsi kimi baxırlar. Onların fikrincə, müxtəlif məqsədlər, böyük nailiyyətlər - sevdiyi insanda xoş təəssürat yaratmaq, iş yerində öz səliqəliliyini nümayiş etdirmək, yeni dostların əhatəsində özünü təsdiq etmək – bütün bunlara moda vasitəsilə sahib olmaq olar.

Sosial-psixoloji təsir vasitəsi olan moda termini latınca “modus” (ölçü, tərz, qayda) sözündən götürülmüşdür. XVII əsrdən etibarən fransız və italyan ədəbiyyatında mode (fransızca) və ya moda, modo (italyanca) formasında həmin terminlə başlıca olaraq məişət, geyim, mebel, saçın

düzəldilməsi və davranış sahəsində özünü göstərən xüsusi sosial-psixoloji fenomeni ifadə etməyə başlamışdır. B.D.Parigi-nin müşahidələrinə görə, rus dilində moda I Pyotrun dövründə işlənilməyə başlanmış və ilk rus lüğətində təsbit edilmişdir. Azərbaycan dilində moda sözü nisbətən sonrakı dövrlərdə vətəndaşlıq hüququ qazanmışdır. Bizim dilimizdə uzun müddət onun qarşılığı kimi dəb sözü işlənmişdir və indi də "dəb salmaq", "dəbə düşmək" kimi söz birləşmələrində geniş işlənilir. İngilis dilində XV əsrin əvvəlindən başlayaraq indiyə qədər moda mənasında fashion (latınca facere, faction sözün-dəndir) işlənilir; mode sözü isə nisbətən az, həm də əksərən "adət" (dəb) mənasında işlənilir [2, s.297].

Moda köhnə sosial formaların daxilində daim inkişaf edən özünəməxsus prosessdir. Avropada XII əsrdən başlayaraq modanın mövcud olması kommunikasiyanın inkişafı, yeniliyə tələbatın olması əlaqədardır. Bir qayda olaraq, belə əlaqələrin əsas yeri şəhər meydanları və küçələri idi. Bu şəhərlərdə yeni mədəniyyət nümunələri və obrazları yaranmış, istehsal inkişaf etmiş, satış üçün məhsulların hazırlanmasına istiqamətlənmişlər.

XIX əsrdə burjuaziya inqilabından sonra moda mühüm əhəmiyyət kəsb etməyə başladı. Bərabər hüquqlu cəmiyyət formalaşdı, əvvəlki sərhədlər, qadağalar aradan qaldırıldı. Kütləvi istehsal yüksək sürətlə inkişaf etməyə başladı və kütləvi bazar ehtiyaclarını ödəmək üçün ucuz mallar, o cümlədən müxtəlif məhsullar istehsal olundu. Yeni rabitə kanalları və poçt, teleqraf, televiziya, internet kimi əlaqə vasitələri yaradıldı [3].

İnsanlarda bir-biri haqqında ilk təəssüratın yaranmasında moda özünəməxsus rol oynayır. Bir-birilərinin davranışını təhlil edərkən onların modaya münasibətinə də diqqət yetirirlər. Bu baxımdan insanlar özlərinin fizioqnomik maskasını yarat-maq üçün modadan təsirli vasitə kimi istifadə edirlər.

Hər bir tarixi dövrdə modanın bu və ya digər aspekti – estetik, mənəvi, iqtisadi və ya sosial – kişi və qadınların həyatında birinci növbədə çıxış edir. Moda qadınlarda olduğu kişilərdə də insanın özünün fərdiliyini üzə çıxarır. Geyim istənilən tarixi dövrdə şəxsiyyətin xarakterinin aynasıdır. Qadın və kişilərin modaya fərdi münasibətini təşəbbüskarlar, ekstravaqantlıq, yaradıcılıq, özünüifadə etmə və özünüsevmə, şəxsiyyətin müvəqqəti perspektivləri, həyat tərzi kimi faktorlar müəyyən edir. Qadınlar üçün geyim seçdikdə xoş gəlmək, təəccübləndirmək, heyran etmək kimi fikirlər üstünlük təşkil etdiyi halda, kişilər isə sosial vəziyyəti göstərəcək "işarə"lər-dən ibarət detallar xüsusi əhəmiyyət kəsb edir. Qadınların əksəriyyəti klassik geyimlərə üstünlük verirlər. Onların fikrincə bu həm işgüzar, həm də təmtəraqlı görünmək üçün əla seçimdir. Kişilərin işgüzar geyimləri çoxşaxəli olsa da onda əsas iki istiqamət cəmlənmişdir: "mühafizəkar tərz" – etibarlı, səliqəli, varlı obrazı və "enerjili tərz" - ənənəvi qərarlardan uzaq olan, təşəbbüskar insan obrazı.

Moda – gündəlik həyat fonunda gözlər üçün bayramdır (S.Kirsanov). Dəbli obyektlərin müxtəlifliyi çatışmayan fiziki stimulları kompensasiya edir, moda yarışında insanların kütləvi iştirakı isə müvəqqəti olaraq sosial təcridolunmanı unutmağa imkan verir. Moda ayrı-ayrı hallarda şəxsiyyətin kifayət qədər təmin edilməmiş sosiogen tələbatlarını kompensasiya edir. Yetim uşaqların bəzək elemnetlərindən daha çox istifadə etməsi faktını xatırlasaq, fikrimiz aydın olar. Bu nöqteyi nəzərdən moda əlverişli şəraitdə insanın özünün təsdiqetmə, başqalarının diqqətini cəlbetmə, nüfuzunu artırma vasitəsinə çevrilir.

Sosial davranışın spesifik və son dərəcə dinamik forması olan moda müəyyən zaman kəsiyində hər hansı bir ideyanın üstünlük təşkil etməsi kimi başa düşülür. O, cəmiyyətdə üstünlük təşkil edən əhvalların, sürətlə dəyişən zövq və əyləncə vasitələrinin təsiri ilə, əsasən kortəbii surətdə əmələ gəlir (Ə.Bayramov, Ə.Əlizadə) [1, s.318]. Moda anlayışının özü, bir

qayda olaraq, məşhurluğun sürətli şəkildə itirilməsi, incəliyi ifadə edir.

Modanı psixoloji fenomen kimi onun yaranma səbəbini və dəyişilməsi xüsusiyyətlərini fərdi psixologiya baxımından da öyrənirlər. Moda mexanizm kimi sosial konformizm və fərdi azadlıq arasında yaranmış konfliktləri həll edən insanın vacib tələbatlarını təmin edir.

Moda sosial tənzimləyici kimi də çıxış edir. Bir tərəfdən o, cəmiyyətin sosial bərabərsizliyini nümayiş etdirir, digər tərəfdən isə sosial qruplar arasındakı fərqləri hamarlamağa çalışır. Moda həm qruplararası, həm də qrupdaxili ünsiyyət kimi fəaliyyət göstərir. Moda ünsiyyətin təqlid, təlqin kimi sosial-psixoloji mexanizmləri ilə sıx bağlıdır. Moda da təqlid mühüm əhəmiyyət kəsb edir. Təqlid olunanlar isə ictimai insanlar: siyasətçilər, aktyorlar, musiqiçilər, modellərdir. Eyni zamanda moda vasitəsilə müəyyən şəxsə və ya sosial qrupa qarşı əks münasibət də yarana bilər [4].

Modanı izləmək insanın həm özünə, həm də ətraf mühitə münasibətini müəyyən edir. İnsan öz fərdiliyini digər insanlarla identifikasiya edərək qorumağa çalışır. Gizli olaraq modaya tabe olmaq arzusu müstəqil olmağa can atmaqla, digərlərini təqlid etməmək, ümumi kütlə ilə "qarışmamaq" istəyi ilə mübarizə aparır. Moda hazır variantlar təklif edərək insanın həqiqi seçimini üstələyir. Belə olan halda insan yanlış olaraq özünün fərdiliyini inkişaf etdirdiyini düşünür. Amerikan sosioloqu C.Helbreyt qeyd edirdi ki, moda nümunələrinə və standartlarına sahib olmaq müəyyən psixi reaksiya ilə bağlıdır.

Modanı izləmək sosial identifikasiyanın xüsusi halı olan komformizmlə sıx əlaqədədir. Komformizm qrup və şəxsiyyət arasında konfliktə, maraq və baxışları arasında fikir ayrılığına zəmin yaradır. Şəxsiyyət qrupun dəyərlərinə uyğunlaşmaq və ya öz inanclarından imtina edərək qrupun qərarları, standartları adı altında maskalanmağa məcburdur. Moda bu konflikti yüngülləşdirərək eyni zamanda hər iki tərəfi təmin edir.

Modanı izləmək formal və ya aktiv ola bilər. Formal olaraq modanı təqib etmək insanın özünün şəxsi fikirləri ilə izlədiyi moda arasında fərq yaranmadığı halda baş verir [7].

Moda dövrü xarakter daşıyır. Modanın mərhələlərində onun yaranması, kütlə tərəfindən qəbul olunması, sonradan yayılması və sonlanması müşahidə olunur. Bütün bu mərhələlərin hər birinin özünəməxsus qanunauyğunluqları var. Modanın dövrləşməsinin ilkin mərhələsi yeni nəyinsə təklif olunması ilə başlayır ki, bu da sonralar dəbli obyekt olaraq, insanlar arasında məşhurluq qazana bilər. Yeni obyekti təklif edən şəxs modanın yaradıcı, müəllifi hesab edilir. Bir qayda olaraq bu insan yaradıcı qabiliyyətli, kütlənin maraqlarını nəzərə alaraq yeni nəyisə yaratmağa qabil şəxsdir. Modanın müəllifi yazıcı, rəssam, geyim üzrə dizayner, alimlər, mühəndislər ola bilər.

Nəticə etibarilə onu vurğulamaq lazımdır ki, hal-hazırki dövrdə moda psixologiyası mövzusu olduqca aktualdır. Bu modanın dinamik prosesdə olması ilə bağlıdır.

## ƏDƏBİYYAT


1. Ə.S.Bayramov, Ə.Ə.Əlizadə, Sosial psixologiya, Bakı: 2003
2. M.C.İsmayılova, Ünsiyyət psixologiyası, Bakı: 2011.
3.Hurlock E. B/ The Psychology of Dress, Ronald Press, N.Y., 1929. p. 7-8.
4.Вайнштейн О. Одежда как смысл: идеология современной моды: (О социал. стиле) // Иностр. Лит. - 1993. - № 7. - С. 224-232.
5.Гофман А.Б. Мода и люди. Новая теория моды и модного поведения. М., 2001.
6.Килошенко М.И. Психология моды: теоретический и прикладной аспект. СПб., 2001.

7.Новикова Е.Ю. Социально-психологический аспект отношения подростков к моде // Вопр. психологии. - 1989. - № 1. - С. 121-127.

# TƏKRAR CİNAYƏT TÖRƏTMİŞ QADINLARIN TƏSNİFATI VƏ TİPOLOGİYASI

***Nazəni Həmzəyeva***
***BDU-nun II kurs magistrantı***
*naza.hamza23@mail.ru*

Böyük elmi və praktiki əhəmiyyət kəsb edən təkrar cinayət törətmiş qadınların təsnifatı və tipologiyası ilə əlaqədar mürəkkəb məsələləri həll etmək üçün,ilk növbədə bunun elmi idrak formalarına prinsipial metodoloji yanaşmaları müəyyən etmək lazımdır.Ən əvvəl qeyd etmək lazımdır ki, təsnifat və tipologiya eyni bir şey deyil.

Təsnifat, ümümiləşdirmənin aşağı səviyyəsi olaraq, tədqiq olunan obyektlərin, onların ayrı-ayrı əlamətlərinə görə sabit qruplaşmasıdır və hər birinin dəqiq dəyişməz yeri olan qrupların və altqrupların sərt meyarları üzərində qurulmuşdur. Tipologiyada isə bu sərt differensiasiya yoxdur.

Təkrar cinayət törətmiş qadınların təsnifatı müxtəlif əsaslar üzrə aparıla bilər. Onların arasında üç böyük əlamətlər qrupunu ayırmaq olar: psixoloji, sosial ( sosial-demoqrafik) və hüquqi.

Birinci qrupa təkrar cinayət törətmiş qadınların psixoloji təsnifatı aid edilir.Bunlara aşağıdakılar aiddir:

1.Zəif iradəli təkrar cinayət törətmiş qadınlar -bu şəxslər situasiyadan asılı olaraq şəraitə uyğunlaşa bilmirlər. Bu şəxslər sosial dezadaptiv şəxslərdir. Məhz bu xüsusiyyətlərin hesabına onlar müxtəlif növ cinayətlər törədirlər.

2.İmplusiv təkrar cinayət törətmiş qadınlar - çox tez özlərindən çıxır,öz davranışlarının nəticələsini proqnozlaşdıra bilmirlər,ləngimə prosesi çox zəif inkişaf edib. Ən

əhəmiyyətsiz şeylərə belə əsəbi,acıqlı reaksiya verirlər. Törətdikləri əməlin ağırlığı onun səbəbinə müvafiq olmur. Ən çox xuliqanlıqla, müvafiq zorakı əməllərlə məhkumluq həyatı yaşayırlar. Bu şəxslərə nevroz, alkoqol deqradasiya, əqli çatışmazlıq, infantilizm xasdır.

3.Affektiv təkrar cinayət törətmiş qadınlar -emosional cəhətdən qeyri sabitdirlər. Çox yüksək həyəcanlılıq,aşağı tolerantlılıqla fərqlənirlər. Bu qüsurları onlar yüksək aqressivliklə kompensasiya etməyə çalışırlar.Bu tipli təkrar cinayət törətmiş qadınlar məişət və sağlamlığa qəsd etməyə, əmlaka ziyan vurmağa meyillidirlər.

4.Emosional təkrar cinayət törətmiş qadınlar -bu tip şəxslər hər hansı neqativ emosional vəziyyətin sabitliyi ilə fərqlənirlər.(intiqam,qisasçılıq buraya aiddir). Sabit qəddarlıq,amansızlıq kimi xüsusiyyətlər bu şəxslərin törətdikləri cinayətin hər detalını dəqiqləşdirməyə, uzun müddət düşünməyə vadar edir. Onlar cinayəti xüsusi amansızlıqla edirlər

İkinci qrupa cins, yaş, təhsil səviyyəsi, maddi təminat səviyyəsi, sosial vəziyyət, ailə vəziyyəti, sosial mənşə, ictimai faydalı əməklə məşqulluğ, əməyin növü, ixtisasın mövcudluğu, yaşayış yeri aiddir.

Üçüncü qrupa törədilmiş cinayətlərin ağırlığı, cinayətlərin ilk dəfə və ya təkrar, tək və ya qrupda törədilməsi, cinayətkar fəaliyyətin davamlılığı, cinayətkar qəsdin obyekti, təqsirin forması daxildir.

Cinayətkarların sağlamlıq vəziyyətini xarakterizə edən əlamətlər xüsusi bir qrup təşkil edir. Bununla əlaqədar olaraq sağlam olanları və somatik və psixi xəstəliklərdən əziyyət çəkənləri ayırmaq olar.

Əlbəttə,təkrar cinayət törətmiş qadınların təsnifatı ilə yanaşı onların tipolgiyasıda mövcuddur. Bu tipolgiyaya aşağıdakılar aid edilir

-Xüsusi təhlükəli təkrar cinayət törətmiş qadınlar (aktiv antisosial) - dəfələrlə məhkum edilmiş residivistlər, davamlı sabit cəmiyyətə, onun dəyərlərinə və normalarına qarşı aktiv fəal müxalif xarakterli cinayətkar fəaliyyət; onlar israrla bu fəaliyyətə digər şəxsləri cəlb edirlər.

-Desosializasiya olunmuş təkrar cinayət törətmiş qadınlar-normal əlaqə və ünsiyyət çərçivəsindən çıxmış, uzun müddət tüfeyli, adətən evsiz, həyat tərzi sürən şəxşlərdir. Bunlar avaralar, dilənçilər və müftəxorlardır. Əksəryiyyəti alkoqolikdilər.-Qeyri-sabit, dəyişkən təkrar cinayət törətmiş qadınlar - cinayətləri davamlı sabit antisosial üstanovkaların və təsəvvürlərin təsiri ilə deyil, həyat fəaliyyətinə mənfiyə yönəmli müəyyən qrupların daxil olması, qəbul oluna bilən həddə və antisosial həyat tərzi aparması ilə əlaqədar olaraq törədilməsi. Onlar cinayətkarın şəxsiyyətinin və qanuna tabe olan vətəndaşın xüsusiyyətləri cəmləşmiş qismən kriminogen sirayətlənmə ilə seçilirlər.Bu tipin ən geniş yayılmış nümayənələri sərxoş halda, adətən, xırda talama və oğurluq, xuliqanlıq və kec-kec soyqunçuluq, quldurluq və müxtəlif zorakı cinayətlər törətmiş şəxslərdir. Yaşayış tərzlərinin müsbət tərəfə əhəmiyyətli dərəcədə dəyişməsi və effektiv tərbiyə tədbirlərinin təsiri ilə onlar hüquqazidd hərəkətlərdən təkrar cinayət törətmiş qadınlar çəkinməyə qadirdilər;

-Kompulsiv təkrar cinayət törətmiş qadınlar- şəxsin ictimai təhlükəliliyi davranışında az təzahür olunur, ancaq mövcüddür və müvafiq situasiyada görünür. Onlar cinayəti konkret situasiyanın həllədici rol oynadığı üçün deyil, şəxsi psixoloji xüsusiyyətlər təsirindən, situasiyadan ciddi asılı vəziyyətə düşərək, mənəvi təsirin çatışmamazlığından, onun sosial qəbul oluna bilən həlli yolunu tapa bilmədikləri üçün törədir.

Son olaraq təkrar cinayət törətmiş qadınların təsnifatı və tipologiyası ictimai təhlükəliliyi, kriminogen sirayətlənməsi, onun təzahür olunması və fəallığı əsasında da aparıla bilər.

ƏDƏBİYYAT
1. Bayramov Ə.S., Əliyev B.H. Hüquq psixologiyası. Bakı: Təhsil, 2012
2.Разумова Е.М. “Психологические особенности личности преступников- рецидивист” Моск.2007.

## ARTIQ ÇƏKİLİ İNSANLARIN MOTİVASİYA-TƏLABATLAR SFERASININ PSİXOLOJİ SƏCİYYƏSİ

***Səmədova Günel***
***BDU-nun II kurs magistrantı***
***semedova-g@mail.ru***

Ümumdunya Səhiyyə Təşkilatının ekspertlərinin hesablamalarına görə artıq çəki peşə, soasial, milli, coğrafi, cinsi və yaş qruplarından aslı olmayaraq planetin milyonlarla sakinlərini əhatə edən müasir dövrün qlobal epidemiyasıdır. Artıq çəkiyə meyilli pasientlər normal çəkili pasientlərə nisbətən 2-3 dəfə daha çox hipertoniya xəstəliklərindən, 3-4 dəfə çox stenokardiyadan əziyyət çəkirlər. Artıq çəkili insanlarda praktik olaraq sübut olunmuşdur ki, istənilən xəstəlik, hətta virus, qrip, sətəlcəm, agciyər xəstəlikləri zamanı belə onların sağalması ağır və çətin olur.

Daha sonralar A.Adler kök Mən obrazı ilə özünüqiymətləndirmə arasında sıx əlaqə olduğunu göstərdi (xüsusi ilə, insan davranışının bəzi növləri özündə bədənin həqiqi və ya xəyali itkisini kompensasiya cəhdlərini təqdim edir). Köklük psixologiası baxımından qidanın udulması, həzm olunması və mənimsənilməsi prosesi insanın dünya ilə qarşılıqlı əlaqəsində ümumiləşmiş metaforadır. Yemək ritmi, onun uşağın həqiqi vəziyyəti ilə uzlaşması əsas etimada çevrilir. Əmizdirmə, onun rejimi, onun emosional müşayiəti uşaq üçün bütün dünya və digər insanlarla qarşılıqlı münasibətində birincili model rolunda çıxış edir.

E.T.Sokolov tərəfindən göstərilmişdir ki, psixi patologiyanın müxtəlif formaları zamanı, xüsusi ilə, nevrotik anoreksiya və şizofreniya zamanı öz bədəninin qavranılmasında ifadəli pozuntu müşahidə olunur. Uyğun pozuntu artıq çəkidən və piylənmədən əziyyət çəkənlərdə də rast gəlinir. Müəllif daha sonra qeyd edir ki, qida meylinin pozulması özündə güclü motivasiya enerjisi daşıyan və "açıqlanmaya" ehtiyacı olan köklük təcrübəsinin parçalanması və Mənin bütöv strukturu ilə sıx şəkildə bağlıdır.

Qida təlabatı ilə depressiya və aqressiv tendensiya arasındakı qarşılıqlı əlaqə artıq çəki probleminin mövcudluğundan aslı olmayaraq özünü göstərir. Belə ki, artıq çəkisinə görə narahat olan qadınlar üçün qisa stimullarına qarşı qiciqlanma emosiyasının artması xarakterikdir. Həmçinin neqativ yaşantıların fiksasiya olunması da belə xanımlara xasdır. Dolu qadınlar öz həyatlarında baş vermiş əhəmiyyətli hadisələrə qarşı aşağı subyektiv nəzarətə malikdirlər. Artıq çəkili xanımlar, həmçinin çəkisi normal olan xanımlar digərləri ilə formal və qeyri – formal münasibətlərini idarə etməyə qadir olmadıqlarını, başqalarının rəğbətini və hörmətini qazana bilməyəcəklərini düşünürlər.

Normal çəkisi olan xanımlarla müqayisədə dolu xanımlarda aqressiv və aleksitimik tendensiyalar, günahkarlıq hissi, intim planda özünə inamsızlıq, öz bədənindən məmnun qalmamaq, küsəyənlik, uzunmüddətli neqativ yaşantılar, ətrafdakılara qarşı inamsızlıq və dalaşqanlığa meyillilik, həmçinin problemdən qaçmaq tendensiyası və emosional gerginlik zamanı tənhalıq axtarışı özünü daha ifadəli şəkildə büruzə verir.

Yetkin yaşda kökələn qadınlarda daha çox həyacanlılıq və əhval – ruhiyyənin aşağı olması üstünlük təşkil edir. Kök qadınlar ətraf mühitin təsirlərinə, sosial normaların orientasiyaına qarşı yüksək həssaslığa malik olurlar. Kökəlmiş qadınlar müəyyən münasibət quranda daha az ünsiyyətdə olur

və bu ünsiyətdən daha az rəgbət gözləyirlər. Belə qadınlarda ətrafdakılarla əlaqəyə girmək və qarşılıqlı münasibətdə olmaq təlabatı daha az ifadəyə malik olur. Onlar daha çox qapalı, ətrafdakı insanlara qarşı inamsız olur və öz sevgisini gizlətməyə səy göstərirlər. Öz növbəsində, uşaqlıqdan dolu olan qadınların aqressiv və dominant ifadəyə malik olmalarına baxmayaraq, artıq çəkinin  olması onlarda daha çox ünsiyyət təlabatına təsir edir.

Normal çəkisi olan qadınlarla müqayisədə, artıq çəki probleminə görə narahat olan qadınlarda öz sağlamlığına görə məsuliyyət daşımaq, pedantlıq, cəhd etmə, doğruluq tendensiyası daha qabarıq şəkildə və qayğısız davranışa, yünkül hərəkətlərə, laqeyid davranış formalarna daha az meyillilik özünü büruzə verir. Onlar üçün həm də təfəkkürün qeyri – adiliyi, düşüncələrin hisslər üzərində hakim olacağına meyillilik, münasibətlərdə seçicilik qabiliyyəti xarakterikdir.

Hal –hazırda artıq çəkidən və piylənmədən əziyyət çəkən insanların sayı durmadan artmaqdadır. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə, eləcə də Rusiyada hər üç sakindən biri artıq çəkidən əziyyət çəkir. Bununla bərabər yaşı 40-dan yuxarı olan şəxslərdə piylənmə 40-60% hallarda müxtəlif dərəcələrdə özünü büruzə verir. Bele ki, hər gün artıq şəkidən əziyyət çəkən insanların sayı orta hesabla 10% artır ki, bu da şübhəsiz olaraq mediko – sosial problem hesab olunur.

## ƏDƏBİYYAT

1. Александров А.А. Психотерапия: Учебное пособие - СПб.: Питер, 2004, 480 с.
2. Берне Р. Развитие Я - концепции и воспитание - М.: Прогресс, 2006, 420 с.
3. Бессесен Д.Г. Избыточный вес и ожирение: профилактика, диагностика и лечение М.: Бином, 2004 - 239 с.

4. Благосклонная Я.В. Проблемы лишнего веса – СПб,Невский проспект, 2008, 118 с.
5. Бобровский А. Как победить аппетит? - М.: Изд-во ЭКСМО-Пресс, 2007, 320 с.

## ПСИХОЛОГИЧЕСКОЕ КОНСУЛЬТИРОВАНИЕ ПРИ ДЕНТОФОБИИ

***доц.Аллахярова С.А.(БГУ)***
***преп.Ибрагимов Э.А (АМУ)***

Психологическое консультирование даёт возможность снизить степень дентофобии, при наличии следующих условий её проведения:

1.Оказание оперативной помощи клиенту в решении возникших у него проблем. У людей часто возникают такие проблемы, которые требуют срочного вмешательства, неотложного решения, такие, на решение которых клиент не имеет возможности тратить много времени, сил и средств. При дентофобии наиболее эффективным консультированием будет время перед началом стоматологической процедуры.

2.Оказание клиенту помощи в решении тех вопросов, с которыми он смог бы самостоятельно справиться без вмешательства со стороны, без непосредственного участия психолога, т. е. там, где специальные профессиональные психологические знания, как правило, не нужны и необходим лишь общий, житейский, основанный на здравом смысле совет. В случае с дентофобией это приведение аргументов о необходимости своевременного стоматологического вмешательства, о возможных серьёзных осложнениях в случае откладывания визита к стоматологу и т.д.

3.Оказание временной помощи клиенту, который на

самом деле нуждается в длительном, более или менее постоянном психотерапевтическом воздействии, но в силу тех или иных причин не в состоянии рассчитывать на него в данный момент времени. В этом случае психологическое консультирование используется в качестве средства оказания текущей, оперативной помощи клиенту, сдерживающей прогрессивное развитие негативных процессов, препятствующей дальнейшему осложнению проблемы, с которой столкнулся клиент.

4.Когда у клиента уже имеется правильное понимание своей проблемы и он, в принципе, готов сам приступить к ее решению, но кое в чем еще сомневается, не вполне уверен в своей правоте, тогда в процессе проведения психологического консультирования клиент, общаясь с психологом-консультантом, получает с его стороны необходимую профессиональную и моральную поддержку, и это придает ему уверенность в себе.

5.Когда психологическое консультирование применяется не вместо других способов оказания помощи, а вместе с ними, в дополнении, с расчетом на то, что не только психолог, но и сам клиент займется решением возникшей проблемы.

Во всех этих и других подобных случаях психологическое консультирование решает следующие основные задачи:

-уточнение (прояснение) проблемы, с которой столкнулся клиент;

-информирование клиента по сути возникшей у него проблемы, о реальной степени ее серьезности (проблемное информирование клиента);

-изучение психологом-консультантом личности клиента с целью выяснения того, сможет ли клиент самостоятельно справиться с возникшей у него проблемой;

-четкое формулирование советов и рекомендаций

клиенту по поводу того, как наилучшим образом решить его проблему;

-оказание текущей помощи клиенту в виде дополнительных практических советов, предлагаемых в то время, когда он уже приступил к решению своей проблемы;

-обучение клиента тому, как лучше всего предупредить возникновение в будущем аналогичных проблем (задача психопрофилактики);

-передача психологом-консультантом клиенту элементарных, жизненно необходимых психологических знаний и умений, освоение и правильное употребление которых возможно самим клиентом без специальной психологической подготовки (психолого-просветительское информирование клиента).

## TƏHSİLDƏ İMTAHAN STRESSİNIN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ VƏ KORREKSİYASI

***Davudova Aytən Niyaz qızı***
***BDU-nun II kurs magistrantı***
***Elmi rəhbər: p.ü.f. d Piriyeva Elnarə Abbas qızı***

Müasir dövrdə texnologiyanın sürətlə inkişafıyla əlaqədar gələcəklə bağlı narahatlıqlar get-gedə artmaqdadır. Bu vəziyyət isə fərdlər üçün təhsilin hər keçən gün daha əhəmiyyətli olmasına və çalışdığı sahə üzrə dərslərdə müvəffəqiyyət qazanmaq meylinin güclənməsinə səbəb olur. Dərslərdəki müvəffəqiyyətin imtahanlarla qiymətləndirilməsi isə bir çox tələbələrdə, xüsusilə, özünə inamı aşağı olan tələbələrdə imtahan stressi yaradır [1].

İmtahan stressi, imtahan verən şəxsin imtahanla bağlı çoxu həqiqi olmayan neqativ gözləntilərinin yaratdığı narahatlıq, gərginlik hissidir. Məsuliyyət sahibi olan, məqsədi bir olan və

bunun reallaşması üçün səy göstərən hər bir şagirdin, tələbənin biliklərinin qiymətləndirildiyi bu tip imtahanlardan əvvəl qismən narahatlıq hissinin olması təbii hal hesab edilir. Stress az miqdardadırsa şagird və tələbəyə məsuliyyət və motivasiya yüksəldici təsir göstərir. Amma stress normal səviyyədən yüksək olduğunda şəxsin diqqət, öyrənmə, yadda saxlama və digər proseslərinə mənfi təsir göstərərək müvəffəqiyyət və motivasiyanın səviyyəsini aşağı salar [3]. İmtahan stressi artdıqca mənfi düşüncələr şagirdin zehni düşüncələrini üstələyir və onun fəaliyyətinə ləngidici təsir göstərməyə başlayır.

İmtahan stressi uşağın və ya gəncin problemi kimi görünsə də, əslində kompleks olaraq qiymətləndirmək və araşdırmaq lazımdır. Bu zaman ailə, müəllimlər və ictimai mühitin bu sahədəki roluna diqqət yetirmək lazımdır. Şagirdin imtahan haqında fikirləri, imtahanla əlaqədar beynində meydana gətirdiyi imic bu çox istiqamətli əlaqələrin nəticəsində meydana gəlir və şagirdin duyğularıyla, təcrübələriylə və inanclarıyla formalaşır. Çox zaman ailələr bu gərginlik və stressi ancaq şagirddə üzə çıxan fizioloji narahatlıqlardan sonra hiss edirlər. Bu zaman hər kəsdən öncə ailə, imtahan stressinin aradan qaldırılmasında şagird və tələbələrə köməklik göstərməlidir.

Stressin uzunmüddətli tədqiqinin nəticələri göstərir ki, o orqanizmin bütün əsəb, ürək-damar, immun sistemlərinə təsir edir. İmtahan zamanı nəbz sürətlənir, qan təzyiqi yüksəlir, əzələ və psixoemosional gərinliyin səviyyəsi artır. Araşdırmalardan da görünür ki, stressin bu simptomları imtahan sonrası dərhal normaya qayıtmır, normal hala qayıtmaq üçün bir neçə gün vaxt lazım olunur. Beləliklə, imtahan stressi insanların həm fiziki həm psixi sağlamlıqlarına mənfi təsir edir. Lakin bununla birlikdə imtahan stressinin yaratdığı daxili psixoloji gərginlik insanın imtahanı müvəffəqiyətlə verməsi üçün bütün biliklərini və daxili ehtiyatlarını səfərbər etməsinə stimullaşdırır. İmtahan stressinin bu cür mənfi və müsbət təsirləri imtahan stressinin korreksiyası metodlarına ehtiyac yaradır. Bununla çox

həyəcanlı tələbələrə öz stressini azaltmağın yolları öyrədilir və onun motivasiyası lazımı səviyyəyə qədər yüksəldilir.

İmtahan stressinin korreksiya metodları imtahan zamanı yaranan psixoloji gərginliyin imtahan verən şəxsdən uzaqlaşdırılmasına kömək edir. Bununla çox həyəcanlı tələbələrə öz stressini azaltmağın yolları öyrədilir və onun motivasiyası lazımı səviyyəyə qədər yüksəldilir. Stressin neytrallaşdırılması üçün tətbiq edilən müxtəlif korreksiya metodları vardır [4]:

1. Psixoloji korreksiya metodları-autogen məşq, meditasiya, rasional terapiya və b.
2. Fizioloji korreksiya metodları-masaj, fiziki hərəkətlər, akupunktura-iynə batırma və b.
3. Biokimyəvi korreksiya metodları- hamam, bərkitmə, su prosedurları və b.
4. Fiziki korreksiya metodları- sakitləşdiricilərin qəbulu, alkoqolun istifadəsi və b.

Bu korreksiya metodlarını seçərkən əsasən şəxsin fərdi xüsusiyyətlərini və  stressin təsiriylə orqanizmdə yaranan əks göstəricilərin hansı sistemdə daha yüksək olmasını nəzərə almaq lazımdır.

İstənilən situasiyada yaranan stressi tamamilə aradan qaldırmaq mümkün olmadığı kimi,  imtahan stressini də tamamilə aradan qaldırmaq mümkün deyil. Lakin bu stressi azaltmaq və öz emosiyalarına nəzarəti artırmaq bütün hallarda mümkündür [2]. Özünü qələbəyə kökləmək, imtahan zamanı bütün güc və biliklərini səfərbər etmək, stressli vəziyyətlərdə həyəcan və gərginliyi azaltmağ üçün müxtəlif profilaktik üsullar vardır.

## ƏDƏBİYYAT

1. Cavadov R.Ə., Tağıyeva G.B. “Ekstremal şəraitlərdə psixoloji xidmət”. Bakı 2006.

2. Özer, K. . Kaygı: Sınanma Duygusuyla Baş Edebilme. İstanbul: Sistem Yayıncılık ve Mat.San.Tic.A.Ş. 2005
3. Д-р Л. Китаев-Смык "Психология стресса". М.: Наука, 1983,368с
4. Щербатых Ю.В «Вегетативные проявления экзаменационного стресса и способы его коррекции» СПб.: Год издания: 2001

## MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN NİTQİNİN İNKİŞAFINI ŞƏRTLƏNDİRƏN TƏLƏBLƏR

***Hüseynova Samirə İbrahim qızı***
***Bakı Sosial PedaqojiKolleci Psixologiya müəllimi,***
***BDU doktorantı. RasNara@yandex.ru***

Məktəbəqədər yaş dövrü 3-6 yaşları əhatə edir. Bu yaş dövrü uşağın psixi, sosial, fiziki inkişafında önəmli əhəmiyyət kəsb edir. Məktəbəqədər yaş dövrü məzmun və mündəricəsi etibarilə spesifik psixoloji çalarlarla xarakterizə olunur. Bu yaş dövründə uşağın hərtərəfli şəxsiyyət kimi formalaşması üçün vacib olan faktorlardan biri nitq inkişafıdır.

Nitqin insan həyatındakı misilsiz əhəmiyyəti aydındır. Nitq dil materialları əsasında yaranır. Ona görə də dil - insanlar arasında ünsiyyət vasitəsidir, nitq isə dil vasitəsi ilə insanlar arasında ünsiyyət prosesidir. Bu, o deməkdir ki, insanlar dilin səslərindən, hecalarından, sözlərindən istifadə edərək öz fikirlərini ifadə etmək üçün cümlələr düzəldir. Onları məntiqi ifadə edirlər. Bunun da nəticəsində insanlar öz aralarında bir-birini anlayır, başa düşür, bir-biri ilə ünsiyyətə girirlər.

Bu kontekstdə Azərbaycan Respublikasının təhsilin inkişafı üzrə Dövlət Strategiyasında, Azərbaycan Respublikasının Təhsil Qanununda, Ümumtəhsil məktəblərinin, həmçinin, məktəbəqədər tərbiyə müəssisələrinin nümunəvi əsasnaməsində, ali və orta ixtisas məktəblərində

humanitar fənlərin tədrisi, təbliği və tədqiqi daha da yaxşılaşdırılması haqqında qanunda göstərilir ki, məktəbəqədər və kiçik yaşlı məktəblilərin hərtərəfli inkişafını təmin etməkdə nitq inkişafı mühüm əhəmiyyət kəsb edir.

Məşhur amerikan pxisoloqu C.Bruner uşağın nitqə yiyələnməsini onun vasitəsiz informasiya çərçivəsindən çıxması və ətraf aləm haqqında təsəvvürlərin yeni formasının qurulması vasitəsi hesab edirdi. Uşaqların artan müstəqillik imkanları onların hissi və praktik təcrübəsinin zənginləşməsinə, ünsiyyət dairəsinin genişlənməsinə gətirib çıxarır.

Uşaqların məktəbə hazırlığı nitqin inkişafı ilə analoji əlaqədədir. Ona görə də məktəbəqədər yaşlı uşaqlarda nitqin inkişaf prosesi yaşlılar tərəfindən diqqət, ciddi nəzarət, xüsusi qayğı və istək tələb edir. Deməli, məktəbəqədər yaşlı uşaqlarda nitqin inkişaf etdirilməsi məsələsi məktəbə hazırlıq problemləri içərisində özünəməxsus aktuallığı ilə seçilir.

Uşaq nitqini inkişaf etdirmək, hər şeydən əvvəl səsləri və sözləri düzgün tələffüz edə bilmək bacarığını aşılamaqdan ibarətdir. Bu, düzgün nitqin əsas əlamətlərindən biridir. Səsləri və sözləri düzgün ifadə etməyən adamın söz ehtiyatı nə qədər zəngin olsa da, o qrammatik cəhətdən nə qədər mükəmməl danışsa da onun sözləri aydın olmayacaqdır. Buna görə də uşaqlarda hələ kiçik yaşlarından nitqin fonetik cəhətini - səsləri və sözləri düzgün tələffüz etmək vərdişlərini inkişaf etdirmək lazımdır.

Nitqin fonetik cəhətini inkişaf etdirmək dedikdə valideynlər əsas 3 məsələni nəzərdə tutmalıdırlar: Birincisi, uşaqlar ana dilinin bütün sözlərini və səslərini düzgün tələffüz etməyi öyrənməlidirlər; İkincisi, uşaqların nitqinin fonetik cəhətdən inkişaf etdirmək sahəsində mühüm məsələlərdən biri tələffüz ediləcək səsləri düzgün eşidə bilməsidir.

Bu dövrdə uşaqlar bir-birinə yaxın olan səsləri, sözləri bir-birindən asanlıqla ayırd edə bilməli, bir-birinə yaxın səsləri

aydın qavramağı bacarmalıdır. Əşya və oyun fəaliyyətinin inkişaf prosesinin erkən yaşlarından necə getməsini təsəvvür etmək üçün anlayışlar sistemini (lüğət ehtiyatını) genişləndirmək lazımdır.

Məktəbəqədər yaş dövründə uşağın nitqinin inkişafı üç istiqamətdə gedir:

- Birincisi, uşağın söz ehtiyatının get-gedə zənginləşməsi, yeni sözlər öyrənib bu sözlərdən istifadə etməsi;
- İkincisi, nitqinin fonetik cəhətdən inkişaf etməsi, yəni uşağın səsləri düzgün tələffüz etmək xüsusiyyətinin inkişaf etdirilməsi. Bu bir tərəfdən səsləri düzgün eşitmək, digər tərəfdən isə səsləri düzgün tələffüz etməkdə ifadə olunur.
- Üçüncüsü, uşaq nitqinin təkmilləşdirilməsindən ibarətdir.

Məktəbəqədər yaşlı uşaqlar erkən uşaqlıq dövründəki imkanları arxada qoyaraq daha fəal surətdə sosial imkanlara malik olurlar. Məhdud ailə münasibətləri çərçivəsindən kənara çıxmaq əsasında uşaqlar daha çox adamlarla, yaşlılar və yaşıdları ilə fəal ünsiyyətə qoşulurlar. Oyun, təlim xarakterli müxtəlif məşğələlər uşaqların nitqində ünsiyyətin müxtəlif formalarından istifadəyə geniş imkanlar açır.

Məktəbəqədər yaş dövründə nitqin inkişafına verilən tələblər aşağıdakılardır:

> Məktəbəqədər yaşlı uşaqlarda digər psixi proseslərin xüsusilə təfəkkürün inkişafına əlverişli zəmin yaradır.

> Nitq daha artıq dərəcədə uşaq üçün təfəkkür alətinə, onun savada yiyələnməsi vasitəsinə çevrilir.

> Uşaqlarda anlama qabiliyyəti sürətlə artdığına görə, onlar yaşlılardan hər gün yeni sözlər öyrənir, onların göstəriş və təlimatlarını yerinə yetirməyə qadir olurlar.

> Məşğələlər zamanı tərbiyəçinin verdiyi tapşırıqları dəqiq yerinə yetirmək üçün uşaqlar diqqətlə onun nitqini dinləyir və onu anlamağa səfərbər edilirlər. Fəaliyyətinin tərkib

hissəsinə, müşahidə və rəsm etmənin və s. ayrılmaz amilinə çevrilir.

Nitq inkişafı üzrə göstərdiyimiz tələblərin hər biri tədris və tərbiyəvi əhəmiyyətə malikdir. Nitq inkişafının həmin sahələrinin hər biri özünəməxsus metod və priyomlardan istifadə olunmasını tələb edir.

Nitq inkişafı üzrə iş uşaqların fiziki imkanlarına müvafiq olmaqla onların fikir və fəaliyyətini hərəkətə gətirməli, təfəkkürünü, yaddaşını inkişaf etdirməli, müqayisəetmə, ümumiləşdirmə, əqli nəticəyə gəlmə bacarıqlarına yiyələnməsini təmin etməlidir. Bütün bunlara nail olmaq üçün nitq inkişafı üzrə iş birtərəfli deyil, kompleks şəkildə aparılmalıdır. Bu dövrdə uşaqların nitqi elə inkişaf etdirilməlidir ki, sərbəst, düzgün, sürətli, ifadəli, şüurlu, qrammatik- orfoepik, leksik çalışmaları yerinə yetirməyə, gördükləri, eşitdikləri, yerinə yetirdikləri haqqında müstəqil kiçik həcmli hekayələr qurub danışmağa hazır olsunlar.

## ABİTURİYENTLƏRLƏ PSİXOLOJİ MƏSLƏHƏT İŞİNİN SPESİFİK XÜSUSİYYƏTLƏRİ

***Musayeva Günel İsmixan qızı***
***BDU-nun II kurs magistrantı***

Ali məktəblərə qəbul imtahanları abituriyentlər üçün ən yaddaqalan, həyəcanlı, bəziləri üçünsə ən qorxulu, dəhşətli məqamlardandır. İmtahana mümkün qədər psixoloji və fiziki cəhətdən hazır olmaq lazımdır. Çox illik təcrübələrdən belə qənaətə gəlmək olar ki, biliklərin yoxlanılmasında ən çox həyəcanı imtahan verənlər keçirir. Buraxılış imtahanları adətən hazırlıqların bitdiyi dövrə təsadüf edir. Nəticə olaraq hər bir insan iki seçim qarşısında qalır: bundan sonrakı həyatının necə olmasının seçimi və əgər seçim edilibsə, onun necə reailizə olunması üçün heç bir təminatın olmaması.

Abituriyentlərə imtahana hazırlıq dövründə psixoloji yardım işləri çoxpilləli və mürəkkəb proses olub, psixoloji maarifləndirmə, psixodiaqnostika, psixoloji konsultasiya, psixoprofilaktika, psixokorreksiya, psixoloji konsilium kimi istiqamətləri birləşdirir. Bunların içərisində ən çox istifadə olunan və effektli nəticələr əldə olunmasına səbəb olanlardan biri psixoloji konsultasiyadır.

Psixoloji konsultasiya-üzləşdiyi psixoloji çətinliklərin həlli ilə bağlı psixoloqun apardığı söhbət, verdiyi məsləhət və tövsiyələrlə kliyent rolunda çıxış edən abituriyentə yönəldilmiş professional köməkdir. Bu zaman psixoloq konsultant rolunda çıxış edir. O, kliyent rolunda çıxış edən abituriyentlə fikir mübadiləsi apararaq psixoloji məsləhətlər verir [1, s. 137].

Psixokorreksiya və psixoterapiyadan fərqli olaraq psixoloji konsultasiyada kliyent rolunda çıxış edən abituriyent zəif iradəli, zəif qabiliyyətli şəxs deyil, öz problemlərinin həlli yollarını yaxşı bilməyən, bu problemləri psixoloqla birgə həll etməkçün özündə dəyişmələr etməyə hazır olan (ailə promlemləri, peşə seçimi və s.), yaxud özünü daha dərindən tanımaq məqsədi ilə ona müraciət etmiş sağlam şəxsdir.

Konsultativ psixologiyada xüsusi qurulmuş ünsiyyət prosesində abituriyentə özünü aktuallaşdırmaq üçün əlavə güc verilir, qabiliyyətləri üzə çıxarılır, problem situasiyanı həll etmək üçün psixoloji imkanlar yaradılır. Psixoloji konsultasiyada təsiredici vasitələrə-söhbət, məsləhət, nümunələr, sitatlar, faktlar göstərmək, xatırlatmaq, inandırmaq, təlqin etmək və s. daxildir.

Psixoloji konsultasiyanın məqsədi hansı psixoloji məktəbə istinad edilməsindən asılıdır, məsələn, psixoanalitik konsultasiyada abituriyentin şüuraltı sahəsində toplanmış düşüncələr, təəssüratlar, neqativ obrazlar canlandırılır, fəallığa ləngidici təsirləri müəyyənləşdirilir, şəxsiyyətdə yaratdığı həyəcanların əsas səbəbləri izah olunaraq qarşısının alınması yolları izah olunur [3, s. 210].

Digər tərəfdən, bihevioral istiqamətli konsepsiyada əsas məqsəd abituriyentin davranışının dəyişdirilməsidir. Bunun üçün abituriyentin çətinliklər yaşadığı həyat situasiyalarının psixoloji quruluşu, həmin situasiyalarda cərəyan edən proseslər təhlil edilərək müvafiq davranış normaları seçilir, onun rol-davranış qaydaları müəyyənləşdirilərək tövsiyələr verilir [1, s. 139].

Göründüyü kimi psixoloji məktəblərdən asılı olaraq konsultasiyanın xarakteri də dəyişə bilər.

Bütövlükdə psixoloji konsultasiyada əsas diqqət abituriyentin psixoloji rahatlığına və psixoloji sağlamlığın qorunmasına, eləcə də özünün şəxsi məsuliyyətini artırmaqla konsultantın yardımı olmadan yaşamağı bacarmasına yönəlir.

Psixoloji konsultasiyaların aparılmasında bir sıra kriteriyalar diqqət mərkəzində saxlanılır:

- Abituriyentin razı qalması;
- Abituriyentin özü ilə bağlı baş verənlərdə özünün daha çox məsuliyyət daşıması, fikirlərini qəbul etməsi [1, s. 141].

Keyfiyyətli və səmərəli, məqsədəyönəlmiş, metodologiyası, eləcə də proseduru düzgün qurulmuş psixoloji konsultasiya abituriyentdə konstruktiv dəyişmələr yaratmağa qadirdir. Ona görə də psixoloji konsultasiyada əsas diqqət abituriyentin məlumatlandırılmasına və problemin izah olunmasına yönəldilir.

Ümumi psixoloji konsultasiya proseduru zamanı hansı tələblər qoyulursa, abituriyentlərlə aparılan psixoloji konsultasiyalar zamanı da həmin tələblər qoyulmalıdır. Bu tələblərə-məkan, şərait (otağın rəngi, qoxusu, əşyaları və s.), vaxt amilindən düzgün istifadə və s. daxildir [4, s. 17].

Praktik psixoloqun fəaliyyəti ilə bağlı olan etik prinsiplər abituriyentin konsultasiya prosesində də gözlənilir, lakin burada xüsusi prinsiplər də vardır: abituriyentə xeyirxah və tənqidsiz münasibət, abituriyentin dəyərlərinə istiqamətlənmək,

anlamaq, tələsik məsləhət verməmək, anonimlik, şəxsi və professional münasibətlərdə məhdudluq [2, s. 111].

Konsultasiyada əhatə olunan insanların sayı baxımından onların forması müəyyənləşir. Psixoloji konsultasiya zamanı adətən psixoloq abituriyentlə fərdi görüşür. Formasına görə konsultasiyalar 3 yerə bölünür: fərdi konsultasiyalar, ailə konsultasiyaları və qrup konsultasiyaları [5].

Beləliklə, yuxarıda sadalalanları ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, abituriyentlərin imtahanda uğur qazanmasında psixoloji konsultasiyanın əhəmiyyəti böyükdür. Psixoloji konsultasiya psixoloji cəhətdən sağlam olan abituriyentin üzləşdiyi çətinliklərin aradan qaldırılması üçün söhbət, tövsiyələr, məsləhətlər şəklində təşkil olunur və abituriyentə problemini həll etməsində psixoloq tərəfindən yardım olunur. Psixoloji konsultasiyanın köməyi ilə öz problemlərini həll edən abituriyent imtahanda özünə və öz potensialına daha güvənli olur, imtahan zamanı özünü itirmir, öz emosional halını idarə edə və uğur qazana bilir.

## ƏDƏBİYYAT


1. Əmrahlı L. Məktəb psixoloqu. Bakı, Nurlan, 2014, 176 s.
2. Məmmədov İ.Ə. Azərbaycan məktəblərində psixoloji xidmətin təşkili təcrübəsi və elmi-metodik problemləri. Bakı, Gənclik, 1996, 276 s.
3. Məmmədzadə P.H. Təhsil müəssisələrində psixoloji xidmət. (Metodik vəsait). Bakı, Gənclik, 1996, 314 s.
4. Zeynalabdinova Ə.X. Məktəbdə psixoloji xidmətin praktik məsələləri. Bakı, ADPU, 2003, 178 s.
5. Psixoloji təsir və məsləhət. İnternet resurs- http://haqqinda.az/Psixoloji+Meslehetler/7224-Psixoloji+tesir+ve+meslehet-.html

# HÜQUQAZİDD DAVRANIŞLI YENİYETMƏLƏRİN HÜQUQ PRAKTİKASINDA PSİXOLOJİ BAXIMDAN TƏDQİQİ

***Mütəllimova Aygün Mütəllim qızı***
***BDU-nun II kurs magistrantı***

Ümumiyyətlə,cəmiyyətin yaranması anından onun idarə edilməsi mexanizmləri də yaranmaşdır. Bu mexanizmlər əslində insanların müəyyən formada, məqsədyönlü inkişafına yönəlmişdir. Davranış formaları cəmiyyətin hər bir üzvünün- "nəyi necə etmək düzgündür?" sualının cavablarını müəyyən qaydalar şəklində özündə əks etdirməkdən ibarətdir. Daha dəqiq desək davranış formaları sosial və rəsmi normalara söykənmiş qaydaları özündə əks etdirir. Hüquqazidd davranışın yaranması məhz bu tip bu qaydaların pozulması zamanı meydana gəlir.Yeniyetmələrdə hüquqazidd davranışın xarakteristikasının öyrənilməsi həm psixoloji aspektən,həm də hüquqi aspektən mühüm amil hesab olunur. Yeniyetmə hüquq ədəbiyyatlarında Yetkinlik yaşına çatmayan şəxs kimi öz əksini tapır. Hüquq nəzəriyyəsində yetkinlik yaşına çatmayan şəxs dedikdə, hüquq münasibətlərinin tam şəkildə subyekti ola bilməyən şəxslər nəzərdə tutulur. Yetkinlik Yaşına Çatmayan- qanunla tam hüquq qabiliyyətini əldə etməyə imkan verən,yəni ölkənin Konstitusiyası və digər qanunları ilə insan və vətəndaş hüquq və vəzifələrini tam həcmdə realizə etmək imkanı verən yaş həddinə çatmayan şəxsdir.Hüququn müxtəlif sahələrində hüquq münasibətlərinin subyekti olmaq üçün minimum yaş həddi müəyyən tətbiq edilir. Əslində yeniyetmələrin fərdi tipologiyası onun davranışı ilə sıx əlaqəlidir, daha dəqiq desək tiplərin, psixikanın fərqliliyi davranışın fərqliliyinə də böyük təsir göstərir.

Cinayət Qanunvericiliyində yetkinlik yaşına çatmayanların konkret yaş həddi müəyyən edilmişdir.Belə ki,Azərbaycan

Respublikasının Cinayət Məcəlləsinin 84.1-ci maddəsinə görə cinayət törədərkən 14 yaşı tamam olmuş,lakin 18 yaşına çatmayan şəxslər yetkinlik yaşına çatmayanlar hesab olunur.Bu şəxlər cinayət törətdikdə,onlara cəza təyin edilə bilər və ya tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq edilə bilər.(3,79)Əslində Yetkinlik yaşına çatmayan şəxslərə hüquq sistemində xüsusi yanaşma, onlara tətbiq edilən güzəştlərin əsas mahiyyəti ondan ibarətdir ki, yetkinlik yaşına çatmayan şəxslərin rahat bir şəkildə cəmiyyətə adaptasiya olunsun və öz hüquqi iradəsini ifadə etməsi zamanı ona dərk edə biləcək qaydada şəraitin yaradılması təmin olunsun.

Hüquq alimlərinin fikrincə, yeniyetmələr hüquq pozuntusu zamanı əslində törətdiyi əməlin hüquqi nəticəsini tam dərk etmir və onun əməlinin təhlükəlilik dərəcəsini, cəmiyyətə və ya fərdə zərər yetirməsini, onun fəsadların tam şəkildə anlamır. Ona görə də yeniyetməlik dövründə şəxsin hüquqazidd davranışının qarşısının alınması məqsədi ilə islah olunması zamanı onun psixoloji durumu mütləq qaydada nəzərə alınmalıdır. Bir halı xüsusi qeyd etmək lazımdır ki, hüquq ədəbiyyatında hüquqazidd davranış geniş sahəsini özündə əks etdirir və bu sahəni tam dərindən təhlil etməmiş, həmin davranışları törədən şəxslərin, xüsusən də yeniyetmələrin psixoloji tədqiqini aparmaq müəyyən mənada çətinliklər yarada bilər.

Bəzən şəxslər hüquq normalarında ifadə olunan hüquqi göstərişlərə uyğun gəlməyən hərəkətlər edirlər. Həmin hərəkətlərlə onlar hüquq normalarının müəyyən etdiyi tələbləri pozurlar. Belə halda isə hüquqazidd davranış göz qabağındadır. Şəxslərin hüquq normalarının göstərişlərinə zidd olan və bu göstərişləri pozan hərəkətinə (hərəkət etməməsinə, hərəkətsizliyinə) hüquqazidd davranış deyilir [2,21].

Sonda onu qeyd edək ki, yetişməkdə olan gənc nəsildə mövcud əxlaq və hüquq normalarına uyğun  davranış və əməllərin inkişaf etməsi və formalaşması zəruridir.

ƏDƏBİYYAT

1.Bayramov Ə.S,Əliyev B.H. Hüquq psixologiyası. Bakı, Təhsil, 2012
2. Ənvər Seyidov – Hüququn əsasları.Bakı 2008
3.Azərbaycan Respublikasının Cinayət Məcəlləsi.Bakı,Hüquq 2014

## FƏRDLƏRİN DAVRANIŞININ NİZAMLAYICISI KİMİ MƏDƏNİYYƏT XÜSUSİYYƏTLƏRİ

***Aysel Mahmudova***
***BDU-nun II kurs magistrantı***

Hazırki dövrdə konfliktin müxtəlif konsepsiyalarında mədəniyyətlərarası fərqlərin onun nümayədələri üçün nəyə əsaslanaraq bu və ya digər davranış üsullarının konfliktli situasiyada üstünlüyü məsələsi daha az diqqəti cəlb edir. Daha konseptual işlər kimi S.Tinq-Tumi, D.Tyusvolda, X.Markus və S.Lin fəaliyyətlərini təqdim etmək olar. O cümlədən mədəniyyətlərarası fərqlərin konfliktli davranış, onların əsasları və nizamlama üsullarına əsaslanaraq çoxlu empirik yanaşmalar işlənilmişdir. İşlərin əsas hissəsini dünyanın iki regionları ilə əlaqələndimək gərəklidir. Tədqiqatların keçirildiyi ölkələr sırasında ingilis dilinin hakim olduğu Latın Amerikası və Şimali Amerika ölkələri arasında müqayisələrin aparıldığı fəaliyyəti misal göstərmək olar. Lakin işlərin əksəriyyəti Şimali Amerika (xüsusi olaraq ABŞ), Avropa və Asiya sakinlərinin konflikt modellərinin müqayisəsinə həsr olunmuşdur. Asiya mədəniyyətləri arasında çin və yaponiya mədəniyyətləri modellərinə xüsusi diqqət yetirilir.

Xaricdə fərqlərin, mədəniyyət ölçüsünün konfliktin həllinə təsiri məsələləri bir çox araşdırmaların yaranmasına səbəb olmuşdur. Müəlliflərin əksəriyyəti mədəniyyətin ölçülməsini,

konfliktin davranış üsullarının izahını individualizm / kollektivizm kimi istifadə edirlər.

Bir çox hallarda konflikt iştirakçılarının davranış üsullarını individualizm / kollektivizm mədəniyyətinə əsaslanaraq izahı ikiqat maraq modelindən istifadə olunur. Bu modelin əsasında iki müstəqil amil dayanır: digər tərəfin maraqlarını üstün tutmaq (kooperasiya) və öz maraqlarına əsaslanmaq (inadkarlıq). Ikiqat maraq konsepsiyası konfliktin idarəsində 4 üsulu nəzərdən keçirir: yarış, əməkdaşlıq, qaçış və güzəşt. Ikiqat maraq konsepsiyası həm şəxsin özünün, həm də əks tərəfin maraqlarının aşağı/yuxarı qayğılarını açıqlayır. Məsələn. Münaqişələrin həll üsulu kimi yarış seçilirsə, o zaman şəxs öz maraqlarını opponentin maraqları hesabına əldə etmiş olur.

İkiqat maraq modeli bir çox müəlliflərin tədqiqatlarında istifadə olunub, məsələn: D.Pruyt və P.Karnevale; A.Rəhim, E.Van de Flirt və Q.Preyn, B.Qrey, D.Key və E.Fink.

Çoxsaylı tədqiqatların nəticələri göstərir ki, individualist mədəniyyətin nümayəndələri konfliktin həllində elə yanaşmalara üstünlük verirlər ki, orda ilk növbədə şəxsi maraqlara nail olmaq mümkün olsun. Və tədqiqatçılar təstiq edirlər ki, kollektivist mədəniyyətin nümayəndələri elə yanaşmadan istifadə edirlər ki, burada qarşı tərəflə aşkar qarşıdurma rastlanmır, əksinə konflikt iştirakçıları arasında harmonik münasibətin saxlanlmasına çalışılır.

Kollektivist və individualistlərin nümayəndələri arasında baş verən konfliktin həllinin uğurlu nəticələnməsi mədəniyyətlərarası fərqlərə o zaman təsir edər ki, tərəflər bir-biri haqda kifayət qədər biliklər müşahidə edilmir.

Ədəbiyyatın təhlili göstərir ki, mədəniyyətlərarası qarşılıqlı təsirdə konfliktin həlli üsullarında mədəniyyətləarası fərqin təsini nəzərə almaq problemi hələ kifayət qədər dolğun öyrənilməyib. Empirik tədqiqatlarda mövcud problemin sistemli yanaşmalarına rast gəlinir. Azərbaycan və ingilislər

arasında şəxsiyyətlərarası konfliktin həllinə mədəniyyətin xüsusiyyətlərinin təsiri indiyədək toxunulmamışdır. Tərəfimizdən keçirilmiş empirik tədqiqiqatın məqsədi həmin boşluğu doldurmaqdır.


ƏDƏBİYYAT

1. Ə.S.Bayramov. Etnik psixologiya məsələləri. .Bakı 1996, 204 s.
2. Агеев, В.С. "Влияние факторов культуры на восприятие и оценку человека человеком" Моск. 1985.


## ВЛИЯНИЕ ТАБАКОКУРЕНИЯ НА ПСИХИЧЕСКОЕ ЗДОРОВЬЕ


***Мирзагаева Рейхан***
***магистрантка 2-го курса БГУ***
***reyhan.mirzagayeva@gmail.com***


Табакокурение увеличивает риск развития психических расстройств. Психические заболевания, по-видимому, могут возникнуть из-за длительного курения, постоянной тяги к сигаретам. Кроме того, курение может являться своеобразным способом невербального общения. По мнению многих психологов, именно это обстоятельство в большинстве случаев становится причиной, по которой человек начинает курить.

Современные исследования группы американских исследователей показали, что курение является социально-заразным феноменом. В результате этого исследования было выяснено, что курильщику легче удаётся отказаться от курения, если бросил курить кто-то из его ближайших друзей или родственников. Самое сильное воздействие на

отказ от курения, как показали эти исследования, оказывал отказ от курения ближайшего родственника курильщика, однако даже не связанные напрямую люди оказывали воздействие друг на друга: идея отказа от курения на положительном примере передавалась даже через друзей. Это обнаружила группа американских исследователей, установивших, что курильщику скорее удастся отказаться от сигареты, если с этой пагубной привычкой уже "завязал" кто-то из родственников, коллег или друзей. Людям свойственно бросать курить группами, а если кто-то из членов "кружка" продолжает дымить, то это для него становится связанным со все возрастающим дискомфортом и "вытеснением" из привычной социальной среды." Привычка курильщика определяется не только поведением его собственных друзей, но и друзей его друзей, и так далее", - сообщил один из авторов исследования, ведущий социолог школы медицины Гарвардского университета Николас Кристакис. Ученые изучали данные, собранные в период с 1971 по 2003 годы при проведении другой научной программы, посвященной изучению сердечно-сосудистых заболеваний. В ней приняли участие более 12 тыс. взрослых американцев, многие из которых дружили между собой, сообщает ИТАР-ТАСС.

Всего исследователи выявили в этой группе свыше 38,5 тыс. родственных или социальных связей. Количество курильщиков в изучаемой группе на протяжении лет менялось, отражая общенациональные тенденции, отмечают эксперты. Самое мощное воздействие на курильщика оказывал отказ от пагубной привычки ближайшего родственника. Если один из супругов отказывался от сигареты, вероятность того, что за ним последует и второй, составляет 67 %, установили ученые. Если "завязывает" с курением один из друзей или коллег, возможность успеха в борьбе с сигаретой равняется 36 %.

Особенно интересно, что люди, не связанные друг с другом напрямую, также находятся под воздействием: шансы отказаться от сигареты того, кто знает бросившего через друзей, составляют 29 %, а через друзей друзей - 11 %. "Если один из участников бросает курить, мотивация "завязать" с сигаретой передается другим, а идея отказа от курения проходит через всю группу",- подчеркивают эксперты.

Проблема табакокурения становится год от года все острее. Все больше молодежь оказываются втянутыми в курение.Табакокурение отрицательно влияет на успеваемость замедляя их физическое и психическое развитие [1, 2, 4]. Проявление агрессии в учебных заведениях является проблемой, которая все больше волнует педагогов и родителей. Каждый индивид должен обладать определенной степенью агрессивности, однако чрезмерное развитие ее может формировать весь облик личности, которая может стать конфликтной, неспособной на самостоятельную кооперацию [3]. Повышенная тревожность способна ухудшать возможности учащегося, снижать результативность его деятельности, что в свою очередь еще более усиливает эмоциональное неблагополучие. Табачная зависимость по Международной Классификации Болезней включена в раздел «Психические расстройства и расстройства поведения связанные с употреблением психоактивных веществ». Значительное влияние никотин оказывае на центральную нервную систему, он способствует более легкой возбудимости коры головного и среднего мозга. При этом наблюдается двухфазность действия: сначала кратковременная фаза возбуждения, а затем - длительное торможение. Результатом постоянного, искусственно вызываемого возбуждения, является нарушение питания головного мозга. Ухудшается память, внимание, растет

утомляемость. Как и всякое наркотическое средство, при курении табак вызывает кратковременную стадию эйфории.

Кратковременное возбуждение умственной деятельности обусловлено действием не только никотина, но и раздражением нервных окончаний полости рта и дыхательных путей агрессивными компонентами табачного дыма и рефлекторным влиянием па мозговое кровообращение. В больших дозах никотин вызывает судороги. Никотин обладает свойством вызывать так называемый синдром отмены. При длительном употреблении, как это происходит у курильщика, никотин перестает стимулировать дыхание, а с прекращением приема вызывает его угнетение. С этим связан дискомфорт, который испытывает человек при отказе от курения. Это состояние развивается в течение первых суток и может продолжаться одну – две недели.

У лиц с табачной зависимостью наряду с синдромом патологического влечения к курению табака и синдромом отмены в 60% случаев диагностируются пограничные психические расстройства. Наиболее часто наблюдаются тревожно-ипохондрический, тревожно-депрессивный, астенодепрессивный и деперсонализационный синдромы. Пограничные психические расстройства развиваются одновременно с клинической картиной зависимости, существуют самостоятельно, а при обострении создают основу мотива прекращения курения табака с поисками медицинской помощи от курения. Только 5% курящих табак могут самостоятельно прекратить курение. 80% хотят прекратить курение табака, но им необходима специальная медицинская помощь. Такую помощь можно получить в лечебно-профилактических учреждениях, обратившись к врачу наркологу-психиатру,

психотерапевту или психологу. Курильщику важно осознать, что табакокурение – серьезная проблема.

ЛИТЕРАТУРА

1. Бабанов С.А. Табакокурение в молодежной среде и пути профилактики // Проблемы социальной гигиены, здравоохранения и истории медицины. — 2002. — № 1. — С. 13—15.
2. Баранов А.А., Кучма В.Р., Звездина И.В. Табакокурение детей и подростков. М.: Изд-во «Литтерра», 2007. — 216 с.
3. Берковиц Л.Л. Агрессия: причины, последствия и контроль. М.: ОЛМА-ПРЕСС, 2002. — 512 с.
4. Киселева Е.А. Влияние табакокурения на здоровье // Новые Санкт-Петербургские врачебные ведомости. — 2003. — № 4. — С. 64—68.
5. Сафаев Р.Д. Подходы к лечению табакокурения// Военно-медицинский журнал. — 2003. — № 4. — С. 28—33.

## MÜASİR DÖVR AZƏRBAYCAN GƏNCLƏRİNİN MƏNƏVİ DƏYƏRLƏRİNİN SOSİAL-PSİXOLOJİ CƏHƏTLƏRİ

***Seidzadə Bəyimxanım***
***BDU-nun II kurs magistrantı***
***seyidzadeb@mail.ru***

Bu gün müasir Azərbaycan cəmiyyətində mənəvi dəyərlərin formalaşmasının, transformasiyasının, inkişaf dinamikasının, həmçinin bu prosesin müxtəlif insan kateqoriyalarının, xüsusilə də gənclərin təlabatlar sistemi, həyat tərzi və davranış stereotiplərinin formalaşmasına təsirinin

öyrənilməsi ölkəmizin, eləcə də xarici ölkə psixoloqlarının aktual problemlərindən biridir. Cəmiyyətdə qəbul edilmiş dəyərlər arasında hər bir fərd özü üçün ən əhəmiyyətli olanları seçir və onlara yönəlir. "Dəyərlər oriyentasiyası" anlayışı ilk dəfə ənənəvi sosiologiya və sosial psixologiyada A.Q.Zdravomıslov və V.A. Yadov tərəfindən müəyyən edilmişdir. Bu anlayış altında biz cəmiyyətin maddi və mənəvi mədəniyyətinin bu və ya digər dəyərlərinə şəxsiyyətin ustanovkasını nəzərdə tuturuq. Dəyər oriyentasiyaları anlayışı psixologiyada istifadə edilən ustanovka, tələbatlar, maraq anlayışlarına olduqca yaxındır[3,s.21]. Dəyərlər oriyentasiyasının tədqiqi D.A.Leontyev, M.Rokiç, E.Şpranqer, Q.Ollport, V.P.Tuqarinov, Ş.Şvarts və U.Bilski, E.B.Fantalova kimi tədqiqatçıların adı ilə bağlıdır. Azərbayacanda Ə. S.Bayramov tələbələrin sərvət dəyərləri və ideallarının onların şəxsiyyətinin inkişafında roluna dair, L.A.Süleymanova şəxsiyyətin dəyərlər oriyentasiyası (tədqiqatın məqsədi eyni millətli və çoxmillətli qruplarda tələbələrin dəyərlər oriyentasiyasının xüsusiyyətlətini aşkara çıxarmaq idi), E.M. İsmayılova dəyər və dəyərlər oriyentasiyası insan davranışının nizamlayıcısı kimi, G.Q.Hüseynova müasir cəmiyyətdə gənclərin dəyərlər oriyentasiyasının xüsusiyyətləri, A.Musayeva müasir Azərbaycan qadınlarının sərvət dəyərlərinin psixoloji xüsusiyyətlərinin araşdırılmasında bu problemə toxunmuşlar.

Bu problemlərlə bağlı müxtəlif tədqiqatlar aparılmışdır. Biz isə əsasən tələbə gənclərdə mənəvi dəyərlərin xüsusiyyətlərini, tələbə gənclərdə dəyərlərin əhəmiyyətlilik dərəcəsini, onların inkişaf dinamikasını öyrənmək üçün M. Rokiçin “ Dəyərlər oriyentasiyası” metodikasından istifadə etmişik [4, s.12].

Tədqiqatın obyektini tələbə gənclər, predmetini tələbə gənclərin mənəvi dəyərlərinin sosial –psixoloji xüsusiyyətləri, məqsədini isə tələbə gənclərdə mənəvi dəyərlərin inkişaf

dinamikası və müasir dövrdə baş verən proseslərlə bağlı onların dəyişikliyini araşdırmaqdır. Bu problemlə bağlı BDU, ADPU və digər təhsil müəssisələrinin tələbə gəncləri üzərində tədqiqat aparılmış və alınan nəticələr təhlil olunmuşdur. Tədqiqatda iştirak edən tələbə gənclər 18- 22 yaşlarını (I - IV kurslar) əhatə edirlər.

Tələbələ gənclər üzərində aparılan M. Rokiçin " Dəyərlər oriyentasiyası" metodikası nəticəsində müəyyən olunmuşdur ki, I kurs tələbə gənclərin ən çox üstünlük verdiyi (ilk 3 yerdə) dəyərlər sırasına - terminal dəyərlərə 1.sağlamlıq, 2.yaxşı və etibarlı dostların olması, 3.əyləncə, ən aşağı dəyərlərə isə azadlıq, məhsuldar həyat, həyati müdriklik, instrumental dəyərlərin sırasına isə 1.tərbiyəlilik, 2. həyatsevərlik, 3.vicdan kimi, ən aşağı dəyərlərə baxış genişliyi, icraçılıq, özünün və başqalarının çatışmazlıqları ilə barışmamaq daxildir. II kurs tələbə gənclərin üstünlük verdiyi, onlar üçün əhəmiyyət kəsb edən dəyərlərə (terminal dəyərlər) 1.sağlamlıq, 2.məhəbbət, 3.dərketmə, ən aşağı dəyərlərə həyati müdriklik, azadlıq, həyatın gözəlliyi və incəsənət, ilk pillələrdə olan instrumental dəyərlərə 1.tərbiyə, 2. təhsil, 3. həyatsevərlik, aşağı dəyərlərə rasionalizm, baxış genişliyi, müstəqillik, III kurs tələbə gənclərin üstünlük, əhəmiyyət verdiyi terminal dəyərlərə 1.inkişaf, 2.sağlamlıq, 3. cəmiyyətdə qəbul olunma, ən aşağı dəyərlərə, həyatın gözəlliyi və incəsənət, azadlıq, instrumental dəyərlərə 1. təhsillik, 2. tərbiyəlilik, 3. səliqəlilik, ən ən aşağı dəyərlərə müstəqillik, baxış genişliyi, möhkəm iradə, özünün və başqalarının çatışmazlıqları ilə barışmamaq daxildir. Nəhayət IV kurs tələbə gənclərin vacib hesab etdikləri terminal dəyərlər siyahısına 1. maraqlı iş, 2.cəmiyyətdə qəbul olunma və 3. sağlamlıq, ən aşağı dəyərlərə azadlıq, başqalarının xoşbəxtliyi, həyatın gözəlliyi və incəsənət, instrumental dəyərlərə 1. təhsillilik, 2.məsuliyyətlilik, 3. tərbiyəlilik, ən aşağı dəyərlərə isə müstəqillik, özünün və başqalarının çatışmazlıqları ilə barışmamaq daxildir.

Demək olar ki, dəyərlər arasında hər 4 qrupun üstünlük verdiyi ilk pillələrdə duran sağlamlıq, tərbiyəlilik, təhsil kimi dəyərlərə tələbə gənclər daha çox əhəmiyyət verirlər. Təbii ki, gənclik dövründə tələbələr daha sağlam olurlar, onların bu dəyərləri ilk pillələrdə seçməsi maraqlıdır. Lakin onlar sağlam bədəndə sağlam ruh olar düşüncəsinə malikdirlər. Təhsilin də ilk pillələrdə olması sevindirici haldır. Bu o deməkdir ki, gənclər təhsilə qiymət verir, gələcəkdə ali təhsilli olamağa üstünlük verirlər. Bununla bərabər onların ən aşağı sıralarda qiymətləndirdikləri dəyərlərə isə müstəqillik, azadlıq, baxış genişliyi, özünün və başqalarının çatışmazlıqları ilə barışmamaq daxildir. Qeyd edə bilərik ki, gənclərin müstəqillik, azadlıq kimi dəyərləri daha aşağı pillələrdə seçməsi onların hələ də valideyn qəyyumluğundan çıxmamalarından irəli gəlir. Onların yerinə bəzən qərarların valideynlər tərəfindən verilməsi, onların özlərinin müstəqil, qərarlı hərəkət etmələrini çətinləşdirir. Məsuliyyəti tamamilə öz üzərilərinə götürə bilməməsi çətinliklər yaradır və gənclərin sonrakı həyatlarına təsir edir, onların özlərinin belə ailə qurarkən valideynlərindən asılılığına gətirib çıxarır.

Beləliklə qeyd etdiyimiz kimi, dəyərlər insan şüurunun əsasını təşkil edərək onların həyatının bütün sahələrinə, eləcə də davranışlarına böyük təsir göstərir. Onlar gənclik dövründə individlərin sosializasiyası zamanı formalaşaraq daha sonra stabil xarakter daşıyır.

## ƏDƏBİYYAT

1. Леонтьев Д. А. Ценность как междисциплинарное понятие: опыт многомерной реконструкции // Вопросы философии/. М:1996, № 5, с. 15-26.
2. Моральные ценности и личность / Под ред. А. И. Титаренко, Б. О. Нико-лаичева. М: 1994, Прогресс, 176 с.

3. Ядов В.А. О диспозиционной регуляции социального поведения личности. М:1975, с.89-105.
4. http://azps.ru/tests/tests_rokich.html

## GÖRMƏ QÜSRURU OLAN UŞAĞIN MƏNLİK ŞÜURUNUN VƏ ÖZÜNÜ QİYMƏTLƏNDİRMƏSİNİN FORMALAŞMASI

***Məmmədova Siyarə Əfqan qızı***
***ADPU-nun I kurs magistrantı***
***Elmi rəhbər: Dosent Tamilla Hüseyn qızı Ağayeva***

Görmə qüsuru olan uşağın mənlik şüurunun və özünü qiymətləndirməsinin ilkin xüsusiyyətlərinin formalaşması ailə mühitindən başlayır.Görmə qüsuru olan uşağın psixi inkişafının erkən mərhələsində onların valideynlərinin öz uşaqlarına mənəvi və sosial dəstək göstərməsi faktoru çox vacibdir. Buna görə də ailə, sağlamlıq imkanları məhdud olan uşaqların həyat yolunun bütün mərhələlərində, onların fiziki "Mən"inin, özünüdərk və özünü qəbulunun formalaşmasında xüsusi rol oynayır. Uşağın inkişafında hansısa bir qüsur olduqda, çox vaxt valideynlər uşağı başa düşməkdə, onun davranışını tənzimləməkdə xeyli çətinliklərlə qarşılaşır. Bu çətinliklərlə qarşı-qarşıya qalan ailə uşaqla münasibətdə yaranan problemləri aradan qaldıra bilmədikdən bu sahə ilə məşğul olan mütəxəssislərlə əməkdaşlığa başlamalıdır.[1] A.S.Kuznetsova, A.V.Saturyan qeyd edir ki, bu zaman mütəxəssislərin köməyi, hər şeydən əvvəl, konkret ailənin tələbat və imkanlarını nəzərə alaraq valideynlərə uşaqlarının şəxsiyyətini "görmək"də, uşağın xüsusi ehtiyaclarını bilməkdə, onların ehtiyaclarını təmin etmələrinə kömək etməkdən ibarətdir.

Görmə qüsuru olan uşağın inkişafının erkən mərhələlərində özünü rədd etməsi dəyərsizlik kompleksinin formalaşmasına

gətirib çıxara bilər, bu da özünü uşağın özünə inamsızlıqdan əziyyət çəkməsində ,özünü aşağı qiymətləndirməsində büruzə verir.“Dəyərsizlik kompleksi” termini Avstriya psixiatrı A.Adler tərəfindən təqdim edilib, o, hesab edirdi A.Adler güman edirdi ki, hələ balaca, zəif və bacarıqsız olan uşaq artıq öz dəyərsizliyini hiss edir.[2] Bu hiss – kompleks inkişaf mənbəyi rolunu oynayır ki, maddi qüsur şəxsi natamamlıq, dəyərsizlik hissi yaradır çəkməsində, özünü aşağı qiymətləndirməsində, real və ya xəyali qüsurlarına görə həyəcanlanmasında büruzə verir.

Özünüqiymətləndirmə görmə qüsuru olan uşağın əsas özünüqəbul mexanizmidir, bu da müxtəlif şəraitlərin təsiri, həm də dünyaya gəldiyi andan belə ailə üzvlərinin ona münasibəti Yüksək özünüqiymətləndirmə, bir qayda olaraq, qarşısına qeyri-real məqsədləri qoymaqla müəyyən çətinliklər yaradır, müxtəlif görmə disfunksiyalarına malik uşaq uğursuzluq vəziyyətində qalmağa risk edir.[3] Aşağı özünüqiymətləndirmə görmə qüsuru olan uşaq öz dəyərini qiymətləndirə bilmədikdə və çox vaxt şəxsi qüsurlarını şişirtdikdə baş verir. Uşaq özünü bu cür qiymətləndirdikdə o, həyatda çox şeyə nail ola bilmir, ən əsası isə passiv asılı vəziyyətdə qalır, o, ətrafındakı insanlarla münasibət qurmaqda çətinlik çəkir. Bu cür uşağın özünüqiymətləndirməsi valideynlərinin əli ilə formalaşır. Burada aparıcı rolu, bir qayda olaraq, ailədəki qarşılıqlı münasibətlər və tərbiyəvi təsirlərin xarakteri oynayır. Qeyri-ixtiyari olaraq uşaqda ailə tərbiyəsi zamanı bacarıqsız, köməksiz varlıq olması ilə bağlı təsəvvür yaratmaqla sonda bu cür özünüqiymətləndirmənin uşaq yaddaşında dərindən iz salmasına nail olmaq olar və bu pis fikir böyük yaşlarda da davam edəcək.[4] Bundan uzaqlaşmaq üçün görmə qüsuru olan uşağı tərbiyə edən valideynlər onun normal görmə qabiliyyəti olan uşaqlar mühitinə uğurlu inteqrasiyasına kömək etməlidir. Bundan başqa, onun real imkanlarını nəzərə alaraq, ona şəxsi dəyər hissi və müəyyən

ümumi vəziyyəti əldə etməyi formalaşdırmaq üçün konstruktiv vasitələrdən istifadə edərək səriştəli insan olmaqda kömək etməlidirlər.

## ƏDƏBİYYAT


1. Kuznetsova M.S., Saturyan A.V. Mütəxəssislərin və valideynlərin əməkdaşlığı: erkən yaşlarından inkişaf qüsuru olan uşaqları böyüdən ailələrlə iş təcrübəsindən. Defektologiya, 2010, №4.s. 42-50.
2. Sokolova E.T. Şəxsiyyətdə anomaliya hallarında şüur və özünüqiymətləndirmə. M., 1989.
3. Stepanov S. Natamamlıq kompleksi. Ailə və Məktəb, 1994, №5. s. 11-13.
4. Hell L., Ziqler D. Şəxsiyyət nəzəriyyəsi. SP.: Piter Press, 1997.


## TƏLƏBƏ PSİXOLOQLARİN PEŞƏ HAZIRLIĞININ XÜSUSİYYƏTLƏRİ


***Əyyubova Rima Hüseyn qızı***
***BDU-nun dissertantı***


Təhsil sistemində praktik psixoloq hazırlığının problemləri hazırda geniş təhlil olunan məsələlərdən biridir. Bu istiqamətdə aparılan işlərdə psixoloqun peşə fəaliyyətinin xüsusiyyətləri, iş prinsipləri və həlli çətin olan situasiyaları nizamlamaq üçün vacib olan  peşə bacarıqları diqqət mərkəzində saxlanılır. Bununla belə, konkret olaraq onların peşə hazırlığında hansı məsələlərin hansı yollarla həllini aydınlaşdırmağa ciddi ehtiyac vardır.

Psixoloq hazırlığı iki yolla həyata keçirilir:

- mükəmməl müstəqil fərdi təcrübə yolu ilə;

- praktik psixoloq hazırlayan konkret ali təhsil müəssisələrində.

Hazırda ali təhsilin müasir tələbləri modul xarakterli təhsil proqramlarının işlənib hazırlanmasına yönəldilir. Müasir proqramların modul qurulması fərdi təhsilin əhatə dairəsini müəyyənləşdirməyə, tələbələrə özünün peşə keyfiyyətlərini və peşə bacarıqlarını mənimsəmə qabiliyyətinə uyğun kursları seçməyə imkan verir. Tədris prosesinin başlıca forması kimi isə aşağıdakılar götürülür: tədris (akademik tip); peşəkarlığa yaxın təcrübəyə əsaslanmaqla; tədris peşə fəaliyyəti üzrə.

Tələbə hazırlığında hələ də akademik tip aparıcıdır. Peşəkarlığa yaxın və tədris-peşə fəaliyyət növləri üzrə hazırlıq tələblərin praktik psixologiya məkanı ilə fəal qarşılıqlı əlaqəsini, onlarda peşə qabiliyyətlərinin inkişafını nəzərdə tutur. Praktik psixoloq hazırlığında tələbələrdə peşə səriştələrinin formalaşdırılmasında peşə isitqamətinə uyğun olan müəssisələr yaxından iştirak edir. Aparılan işlərdə, xüsusilə, tələbələrdə həlli çətin olan problemli situasiyaları həll etmək üçün zəzuri olan peşə bcarıqlarının inkişaf etdirilməsi üçün bir sıra tələblər qoyulur.

- Peşə fəaliyyətində üzləşə biləcəyi problemlərin həlli üzrə müstəqil və çevik şəkildə bilik, bacarıq və vərdişlərə sahib olmaq.
- Təhsil sistemində çalışan, pedaqoji işçilər kateqoriyasına daxil olna digər həmkarları ilə əməkdaşlıq etmək. Onlara özünün peşə fəaliyyətinin xüsusiyyətləri, təhsil sistemində yeri və rolu ilə bağlı zəruri informasiyalar vermək, əməkdaşlıq vasitələri seçərək tətbiq etmək. Onlarla qarşılıqlı müansibətləri tənzizmləmək, qrupda, kollektivdə özünü qəbul etdirmək.
- Peşə bacarıqlarına daxil edilməli olan konstruktların standartlarını müəyyənləşdirmək, mərhələlər üzrə onların elementləri üzrə altsəriştələrə yiyələnmək: fəaliyyəti öyrənmək, axtarmaq, düşünmək, əməkdaşlıq etmək, işə qoşulmaq, və uyğunlaşmaq; səriştələrin təbiqi sahələrini ayırd etmək; bu

sahələr üzrə səriştələrin tətbiqi üçün əlavə biliklərə yiyələnmək.

- Peşə fəaliyyəti üçün iş yerinə uyğun uğurlu vasitələrdən səmərəli yararlanmaq qabiliyyəti. Bu halda peşə səriştəliliyi məlum “bilik-bacarıq-vərdiş” triadasından kənara çıxaraq özündə formal və qeyri-formal elementləri, bilikləri birləşdirir (davranış, faktların analizi, qərar qəbulu, informasiya üzərində iş və s.).
- Müasir çətin şəraitdə peşə fəaliyyəti göstərmək üçün inteqrasiyalı bilik, bacarıq və ustanovkalara sahib olmaq.

Bu halda tələbə-psixoloqun peşə bacarıqları yalnız öz ixtisasına xas olan çevrədən kənara çıxaraq daha geniş sahələri əhatə etmiş olur. Hətta, bu səriştələrə psixoloqun özünüqiymətləndirməsi və özünütəhlili də daxildir.

ƏDƏBİYYAT

1. Əliyev B.H., Cabbarov R.V. Təhsildə şəxsiyyət problemi. Bakı: Təhsil, 2008, 134 s.
2. Əmrahlı L.Ş. Məktəb psixoloqu. Bakı: MBM, 2014, 160 s.
3. Дружилов *С.А.* Освоение студентами модели профессии и профессиональной деятельности как необходимое условие профессионализации // Образовательные технологии и общество, 2010, т. 13, № 4, с 299-318

## DEPRİVASİYA VƏ ONUN NÖVLƏRİ

***Əsgərova Rəna Əliövsəd qızı***
***BDU-nun Psixologiya kafedrasının dissertantı***
***renaaskerova@yahoo.com***

Müasir dövrümüzdə deprivasiya termini psixoloji və tibbi ədəbiyyatıarda geniş istifadə olunur. “Deprivasiya” termini

ingilis sözü olub məhrum olma, itirmə mənalarını verir. Deprivasiya terminin daha geniş izahını İ.Lanqmeyer və Z.Mateyçek verimişlər. Onlar qeyd edir ki, psixoloji deprivasiya subyektin öz tələbatlarını ödəməsi üçün ona lazımı şəraitin və müddətin verilməməsi situasiyasında yaranan psixoloji vəziyyətdir [1. səh,75]. Bununla bərabər müəlliflər əsas ("həyati") tələbatlara aşağıdakı tələbatları da əlavə edirlər:

- Stimulların növünə və müxtəlifliyə, müyyən miqdarda olması tələbatı
- Səmərəli tədris üçün əsas şərtlərin olması tələbatı
- Şəxsiyyətin inteqrasiyası üçün imkan yaradan ilkin sosial əlaqələr tələbatı
- Müxtəlif sosial rollar və dəyərlər əldə etməyə şərait yaradan cəmiyyətdə özünüaktuallaşdırma tələbatı

Deprivasiyanın növlərini müəyyənləşdirərkən İ.Lanqmeyer və Z.Mateyçek insanın əsasən nədən məhrum olmasına, onun hansı tələbatının ödənməməsinə diqqət ayırmışlar. Onlar deprivasiyanın əsasən 4 növünü göstəmişdirlər [1. səh, 187]:

1. Stimul deprivasiyası (sensor): sensor stimulların miqdarının azalamsı və ya onların üzvi dəyişməsi və modallığı
2. Məna deprivasiyası (koqnitiv): xarici aləmin dəqiq olmayan, hədsiz dəyişkən və xaotik stukturu xaricdə baş verənləri anlamaq, təxmin etmək və idarə etməyə imkan vermir
3. Emosional münasibətlərin deprivasiyası (emosional): imtim emosional əlaqələrin qurulmasına və ya bu əlaqələrin pozulmasına kifayət qədər imkanın olmaması
4. Identiklik deprivasiyası (sosial): sosial rolun qəbul edilməsində məhdud imkanların olması

Digər müəlliflərdə deprivasiyanın bu növlərinin üstündə dururlar və onları müxtəlif aspektlərdən izah edirlər.

Sensor deprivasiya "tükənmiş ətraf" anlayışı ilə izah olunur. Burada insanın görmə, eşitmə, toxunma və digər stimullarının kifayət qədər ala bilmədiyi ətrafı başa düşülür. Öz işlərində D.Xebb qeyd edir ki, çox məhdudlaşdırılmış ətraf

uşağın inkişafına və onun normal fəaliyyətinin pozulmasına gətirib çıxarır. Buna görə də kompleks sensor ətraf uşağın inkişafı üçün əsas şərtlərdən biridir [3. səh, 279].

Koqnitiv deprivasiya (informasiya) ətraf aləmin adekvat modellərinin qurulmasının qarşısını alır. Cism və hadisələr arasında əlaqələr haqqında təsəvvürlərin və informasiya olmadıqda insan "xəyali əlaqələr" qurur və onda yalnış təsəvvürlər yaranır. Peşə fəaliyyətində informasiya azlığı səhvlərə və qərar qəbul emtəkdə çətinliklərə yol açır. Ekstremal şəraitlərdə informasiya defisiti daha çox özünü göstərir [2. səh, 43].

Emosional deprivasiya həm uşaqlarda, həm də böyüklərdə rast gəlinir. Birinci emosional elaqə körpə və anası (və ya onun qayğısına qalan şəxslə) arasında yaranan əlaqədir. Bu əlaqənin yaranması ilə sevgiyə və bağlılığa olan tələbat ödənmiş olur. Ana deprivasiyası uşağın psixi sağlanlığının pozulmasına gətirib çıxarır [4. səh, 158].

Deprivasiyanın psixoloji ədəbiyyatda ən çox istfadə edilən növü sosial deprivasiyadır. Qapalı müəssisələrdə yaşayan və oxuyan uşaqlar, həmçinin müxtəlif səbəblərdən izolyasiya şəraitində yaşayan böyüklər sosial deprivasiya vəziyyətində ola bilər.

Deprivasiyanın göstərilmiş növlərindən başqa növlərini də göstərmək olar. məsələn, hər hansı səbəbdən hərəkətin məhdudlaşması baş verərsə onda hərəkət deprivasiyasından danışmaq olar. bu deprivasiya psixoloji pedrivasiya aid olmasa da, uşağın psixiki inkişafına əsaslı təsir edir. Yaş psixologiyasında aparılmış tədqiqatlar göstərir ki, uşaqlıqda hərəkətin inkişafı "Mən obrazın" formalaşmasında əsas amillərdən biridir.

Müasir psixoloji ədəbiyyatda və humanitar elmlərdə insan fəaliyyətinin müxtəlif sahələri ilə əlaqəli olan deprivasiya növlərini göstərirlər: təhsil, iqtisadi, etik deprivasiya və s.

Deprivasiyanın növlərindən başqa onun formalarını da göstərilir: gizli və aşkar deprivasiya.

Aşkar deprivasiya görünən, aydın xarakter daşıyır. İnsanın cəmiyyətdən izolyasiya olunması və ya uşağın uşaq evlərində, internat məktəblərində tərbiyə alması və s. buna misal ola bilər.

Gizli deprivasiya insanın tələbatlarını ödəməsi üçün şərait olduqda belə onları ğdüyə bilməməsidir. C.Boulbi ana və uşağın bir-birindən ayrı olmadığı, lakin onların onların münasibətləri hər hansısa bir səbəbdən tükənmiş və tələbatın ödəmədiyi vaxt yaranan vəziyyətdə gizli deprivasiyadan danışır.

Həmçinin ekzistensial deprivasiyanı göstərirlər. Bura insanın mövcud olmaqla bağlı,həyat və ölüm, müstəqillik və məsuliyyətlə bağlı olan, ünsiyyət və tənhalıqla bağlı olan tələbatların ödənilməsi aiddir [1. səh, 240].

Müasir dövrdə deprivasiya insan həyatının müxtəlif sahələrində meydana çıxa bilən, çox şaxəli bir fenomendir.

## ƏDƏBİYYAT


1. Лангмейер.Й., Матейчек.З. Психическая депривация в детском возрасте. Прага, Авиценум, 1984, 334 стр.
2. Алексеенкова Е.Г. Личность в условиях психической депривации: Учебное пособие для студентов. СПб.: Питер, 2009, 96стр
3. Хегенчан Б., Олсон М. Теории личности, 6-е изд. СПб.: Питер, 2004, 474 стр.
4. Фурманов И.А. Психология депривированного ребёнка: пособия для психологов и педагогов М.:Гуманитар. изд. Центр ВЛАДОС, 2010, 319 стр

# AZƏRBAYCAN AİLƏSİ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZİN QORUYUCUSU KİMİ

*Psixologiya kafedrasının baş müəllim K.Q.Kazımova*
*Psixologiya kafedrasının baş müəllim Y.Ə.Vəliyeva*
*Psixologiya ixtisasının II kurs tələbəsi A.Ş.Bəylərli*

1.Hər bir xalqın ən böyük sərvəti onun milli-mənəvi dəyərləri, bu dəyərlərdən formalaşan adət-ənənələr, mədəniyyət nümunələridir. Xoşbəxt o xalqdır ki, milli- mənəvi dəyərlər ümumbəşəri insani dəyərlərlə üst-üstə düşür. Mənəvi dəyərlər insanı cəmiyyətdə formalaşdıran, inkişafına kömək edən davranış qaydalarıdır. Bu qaydalar dünya sivilizasiyasının təməli qoyulandan yaranmağa başlamışdır. Xalqımızın mövcudluğunun əsas göstəricisi olan milli-mənəvi dəyərlər onun ən qiymətli sərvətidir.

Hər bir xalq milli-mənəvi dəyərlər sisteminə malikdir. Azərbaycan xalqı meydana gəldiyi gündən inanc etiqadla yaşamış, özünü yer özünün yer üzünün əşrəfi səviyəsinə qaldırmış və tarixən daha da təkmilləşmişdir. Bu yolun zirvələrindən biri də məhz milli-mənəvi dəyərlərdir.

Milli-mənəvi dəyərlər bizim tariximiz, dilimiz, dinimiz, adət-ənənələrimiz, mentalitetimiz, mədəniyyətimiz, ədəbiyyat və incəsənətimizdir. Xalqımızın soykökünə bağlı olan adət-ənənələrimiz yaşayaraq əsrimizə qədər gəlib çatmışdır.

Xalqın toy-büsat mərasimi, bayram adət-ənənələri, Novruz bayramı, yas mərasimləri, İslam dini təmizlik, düzlük, insanlıq kimi bəşəri ali hisləri tərbiyə edən milli-mənəvi dəyərləri özündə birləşdirir.

Müasir insanın formalaşması və özünü təsdiqi məhz bu dəyərlərin aşılanması prosesi ilə bağlıdır. Milli musiqi də milli-mənəvi dəyərlərin bir hissəsini təşkil edir. Milli-mənəvi dəyərlərin və milli şüurun inkişafında Azərbaycan xalqının qədim köklərə malik olan milli maarifçiliyinin də əsaslı təsiri

olmuşdur. Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini inkişaf etdirən onun dilidir. Hər bir insan öz ana dilini bilməli və onu qorumalıdır. Ana dili insanın mənəvi aləminin zənginləşməsində dünyagörüşünün yenilənməsində mükəmməl təhsil almasında öz soydaşları ilə ünsiyyət qurmasında və s. mühüm rol oynayır.

Ulu öndərimiz Heydər Əliyevin vaxtilə qeyd etdiyi kimi millətin milliliyini saxlayan onun dilidir. Dil mənəviyyatdır, mədəniyyətdir, ədəbiyyatdır, tarixdir. Dilsiz millət olmaz. Biz dilimizə ana dili deyirik.

2.Hər bir dəyər itirilmiş və sərf olunmuş gücün ekvivalentidir. Ümumiyyətlə dəyər dedikdə, insan üçün qiymətli olan və xüsusi olan varlıqlar nəzərdə tutulur. Dəyərlər öz növbəsində maddi və mənəvi olaraq iki yerə bölünür. Həm maddi, həm də mənəvi dəyərlər ailə üzvləri tərəfindən qorunub, nəsildən-nəsilə ötürülürsə, bunlar ailə dəyərləri adlana bilər.

Mənəvi ailə dəyərləri ailəni bir araya gətirən və onları birləşdirən fikir, düşüncələr və s.-dir. Əslində isə bu ailənin mövcudluğunun başlıca səbəbidir. Əgər dəyərlər olmasa ailə də ola bilməz. Ailə dəyərləri yalnız ailə üzvlərinin eyni baxış bucağına sahib olması deyil, həmçinin onun qorunub saxlanılmasıdır. Ailə dəyərlərinin eyni olduğu ailələrdə emosional vəziyyət müsbət olur. Əsas ailə dəyərləri aşağıdakılardır:

Həyatın mənası, ölüm, etika, cinsi münasibətlər, din və digər suallar haqqında eyni baxış bucağına malik olmaq. Ailə dəyərlərinə həmçinin xalqın adət və ənənələr də daxildir. Ailədə ailə üzvlərinin (ər- arvad, uşaqlar, bacı-qardaş, nənə-baba və s.) rollarının qavranılması, onların hüquq və vəzifələri, məsuliyyət sərhədləri vəs. bunların hamısı birlikdə ailə dəyərləri adlanır. Bununla belə ailə dəyərlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

1.Ünsiyyət və ünsiyyətə açıq olmaq. Öz fikirlərini, düşüncələrini söyləmək, hər bir insan üçün vacibdir. Çox vaxt

ailədə normal ünsiyyət qurulmur. Bu da ailə üzvlərinə öz mənfi təsirini göstərir. Buna görə də insanlar sevinc və kədərləri ilə ailə üzvləri ilə deyil, daha çox dostları və tanışları ilə bölüşürlər.

Münasibət ilə ünsiyyət eyni deyildir. Eyni ailənin üzvləri qaçılmaz olaraq bu münasibət içindədirlər, ancaq bu münasibət halında olmaq onların ünsiyyət halında olmaqları mənasına gəlmir. Ailə üzvlərinin həqiqi mənada ünsiyyət qurmaqları çox önəmlidir. Gerçək ünsiyyətin təməlində "səmimiyyət" və "başa düşülmə" dayanır. Ailədəki hər kəs bir-birinin danışma və özünü ifadə etmək haqqına hörmət etməlidir. Bir ailə üzvü danışdıqda digər ailə üzvləri onu həqiqətən anlamaq niyyəti ilə dinləməlidirlər. Hər ailə üzvü digər ailə üzvlərindən fərqli də olsa öz fikirlərini azad və sərbəst formada deyə bilməlidir. Bir problem yaşananda da onu dolayı yollarla deyil, ünsiyyət qururaraq həll yolu tapılmalıdır. Əgər ailədə normal ünsiyyət qurularsa, onda ailə üzvləri bir-birini daha yaxşı başa düşər və bu ailədə narazılıqlar və mübahisələr daha az olar və ya heç olmaz.

2. Hörmət ailə içində ən başlıca dəyərlərdən biri hörmətdir. Sağlam münasibətlərdə hörmət əsasdır. Qarşımızdakı insanının varlığını qəbul etmək, onun dəyərinin fərqində olmaq, onunla təsadüfi davranmamaq hörmətin əsasını yaradır. Hörmət əsas etibarı ilə insanın yaradılışından gələn dəyərdir. Hər bir ailə üzvləri bir-birinə lazım olan hörməti göstərməlidirlər. Valideynlər ailə daxilində hörməti açıq-aydın bir dəyər olaraq yaşayar və yaşatdırarsa uşaq şəxsiyyətinin inkişafına ən böyük təsir etmiş olarlar. Əgər ailə üzvləri bir-birinə hörmət etmirsə, bir-biri ilə maraqlanmırsa bu zaman ailədə normal ünsiyyət də olmaz. Əsas odur ki, "hörmət" və "qorxu" anlayışları qarışdırılmasın. Ailə üzvləri bir-birindən qorxmalı deyil, bir-birinə hörmət etməlidir.Hörmət qarşındakı insana öz fikirlərini aşılamaq yox, onun fikir və tələbatlarını qəbul etmək və onu olduğu kimi qəbul etmək deməkdir.

3. Ailə üçün önəmli olmaq hissi. Hər bir insan evinə qayıdarkən öz doğmalarının gözlərində sevinc görmək, onların sevgisini hiss etmək və bu sevginin onun yüksəliş və enişlərindən asılı olmadığını bilmək istəyir. Hətta ən məşğul ayırmalı və onların problemi ilə maraqlanmalıdır.. Ev bir qaladır. Ailə isə kiçik bir ordu və hər bir insan evində özünü rahat hiss etmək istər.

4. Bağışlamaq bacarığı. Bizlərdən heç birimiz ideal deyil və hər birimiz səhv edə bilərik. Ailə və insanın doğmalarından ibarət olduğundan burada kin və ədavətə yer olmamalıdır. Məhz buna görə də bir-birimizi bağışlamağı bacarmalı və özümüzdə çalışmalıyıq ki səhv etməyək.

5.Adət-ənənələr. Hər il yeni ili, Novruz bayramını və s. bayramları qeyd etmək- əlbəttə bu da bir adət-ənənədir. Hər bir xalqın, millətin özünəməxsus adət- ənənələri olduğu kimi hər bir ailənin də öz adət-ənənələri mövcuddur. Bəziləri intisnasız olaraq hər hansı günü hər həftə eyni yeməyi bişirir və s. Bu dəyərin əsas mahiyyəti ondan ibarətdir ki, ailənin hər bir üzvü ona inanır və əməl edir.

6. Məsuliyyət. İnsana xoş olan ən önəmli xüsusiyyətlərdən biri də məsuliyyət hissidir. Unutmaq olmaz ki, işdə, rəislə danışanda və digər iş görəndə məsuliyyətli olduğumuz kimi ailəmizdə də məsuliyyətli olmalıyıq. Nə qədər məsuliyyətli olarıqsa, ailəmizin bizə olan güvəni də bir o qədər çox olar. Hər bir ailə üzvü öz roluna uyğun olaraq bəzi məsuliyyətləri yerinə yetirmək məcburiyətindədir. Hər gün yemək bişirmək, ailəyə gəlir gətirmək, məktəbə getmək və ev təmizliyi etmək kimi işlərlə qarşıqarşıya oluruq. Ortaq bir yaşayış vəziyyəti yaratmaq və birlikdə yaşaya bilmək üçün bu məsuliyyətlərin yerinə yetirilməsi vacibdir. Bu məsuliyyətlərin nə olacağı və sərhədləri hər ailəyə görə də dəyişə bilər. Önəmli olan hər bir ailə üzvünün məsuliyyətinin (üzərinə düşən) fərqində olmasıdır.

7. Qərarlara qatılmaq. Hər bir ailə üzvü ailənin ortaq qərar vermə və qərarlara qatılma haqqına sahib olmalıdır. Hansı yemək bişiriləcək, hansı televiziya proqramına baxılacaq və nə geyiləcək kimi bir çox mövzularda qərar verməkdə çətinlik çəkilir. Əgər söhbət ailənin ortaq fəaliyyətlərindən gedirsə, hər kəs fikrini söyləməlidir.

8. Davamlı sevgi. Ailənin bütövlüyü sevgidən keçir. Ananın ataya və atanının anaya, valideynlərin uşağa, uşağın valideynlərə göstərdiyi sevgi ailənin emosional atmosferini yaradır. Ana və atanın həm bir-birinə həm də övladına sevgi mövzusunda comərd davranması vacibdir. Bir uşaq doğulduğu andan etibarən ana-atasından ona qarşı sevgi görərsə ruhən də sağlam olur. Bu səbəblə ana-ata uşaqlarına "Küsdüm", "Belə etsən səni sevən deyiləm", "Sənlə danışmıram" kimi lazımsız cümlələr deməsi doğru deyil. Bu kimi cümlələr emosional güvənlik sahəsini təhdid edər. Əgər bu qeyd etdiyimiz dəyərlərə bütün ailələrdə əməl edilərsə o ailənin bünövrəsi möhkəm və uzunömürlü olar.

## ƏDƏBİYYAT


1. Ə.S.Bayramov. Etnik psixologiya. Bakı, 2001.
2. H.A.Həbilov. Azərbaycan etnopsixologiyası. Bakı, 1991.
3. Ə.Əlizadə, A.N.Abbasov. Ailə. Bakı, 1989.
4. Ə.Əlizadə. Məhəbbət aləmi.Bakı, 1995.


## MENECMENT VƏ LİDERLİK


***Mütəlibova Arzu Mais qızı ,***
***BDU-nun II kurs magistrantı.***


Liderlik və menecment anlayışları bir çox məqamda eyni mənada işlədilir.Diqqət yetirildikdə onların bir-birindən fərqli məvhumlar olduğu nəzərə çarpır. Liderliyə aid olan vəzifə və

öhdəliklər menecmentlə bağlı olan vəzifə və öhdəliklərdən tam fərqlidir. Liderlik etmək istəyən məktəb direktorunun öhdəlikləri ilə menecmentlə məşğul olan direktorun öhdəlikləri üst-üstə düşmür və bu vəzifələrin hər biri fərdi yanaşma tələb edir. Əgər liderlik işçi heyətin istiqamətləndirilməsi və perspektiv məqsədlərin müəyyən olunmasına yönəldilirsə, menecment görülən işlərin səmərəliliyinə daha çox üstünlük verir. Göstərilən fərqləri isə yalnız fəaliyyətdəki fərqlər kimi qiymətləndirmək düzgün olmazdı, çünki fərqin yalnız fəaliyyətdə görülməsi lider fəaliyyətləri ilə menecment fəaliyyətləri arasında daima mövcud olan gərginliyin artmasını daha da gücləndirir. Liderlər daha çox ətrafa və gələcəyə nəzər salırlar, çünki onlar gələcək uğurları yeniliklərdə görürlər. Menecerlər isə mövcud vəziyyətlə məşğul olaraq təşkilatın uğurunu nəzarət sistemi və nizam-intizamın yaxşılaşdırılmasında görürlər. Güclü liderlik və səmərəli menecmentlik vəhdəti məktəbin uğurlu fəaliyyətini şərtləndirən ən vacib amildir. Bacarıqlı məktəb direktorları bu keyfiyyətlərin hər birinə malik olmalıdırlar. Onlar hansı vəziyyətdə daha çox liderliyə, hansı halda isə idarəetmə bacarıqlarının səfərbər edilməsinə ehtiyac olduğunu yaxşı bilirlər.

Belə ki, idarəetmədə liderin rolu edilməsi lazım olanı müəyyənləşdirmək,yəni doğru olanı etməkdir.Menecerin rolu isə NECƏ sualını cavablamaq, yəni işi doğru etməkdir. Menecerlərin fəaliyyəti tabeçiliyində olan işçilərə təsir etmək və onlarla münasibət qurmaq üçün hakimiyyət mənbələrinə əsaslandığı halda, Liderlərin fəaliyyəti isə təşkilatda sosial qarşılıqlı təsirə vəmünasibətlərə əsaslanır.

Belə ki, insana əmr, göstəriş verməklə deyil, onun mövqesindən çıxış edərək istiqamətləndirmək daha çox fayda verir.Yəni lider öz ətrafındakılara “külək” kimi soyuq deyil,“günəş” kimi isti münasibət bəsləməlidir. Liderlər təşkilatda tabeçilərə deyil, ardıcıllara üstünlük verir. Belə ki,

”müdir-tabeçi” “ lider-davamçı” münasibətləri ilə əvəz olunur. Lider böyük dəyişiklərin yaratdığı yeni məqamları nəzərə ala bilən, təhlükələrə baxmayaraq, bu məqamları qiymətləndirərək təşkilatına yeniliklər gətirə bilən,hər kəsin gözünü çevirəcəyi yeni bir üfiq yaradan şəxsdir. Bəziləri liderlik keyfiyyətinin anadangəlmə, bəziləri isə müəyyən məktəb keçməklə qazanıldığını göstərir. Əslində isə hər kəsdə bu qabiliyyət var, amma onu reallaşdırmaq onun öz səylərindən asılıdır. Tətqiqatlar nəticəsində məlum olmuşdur ki, liderlər adətən özlərindən soruşurlar: ”Biz həqiqətən bizə etibar edilmiş ehtiyyatların, o cümlədən adamların istedad və qabiliyyətlətini, pulun yaradıcı potensialını layiqincə qiymətləndirə bilirikmi?” Bunlar yalnız böyük ideyaların düşünülməsi deyil, bu,sadəcə cazibədarlıq da deyil, bu, tamaşa oynanılması da deyil, bu,işi həyata keçirmək deməkdir. Bu isə istənilən missiya üçün birinci dərəcəli fəaliyyət əmridir.

## ƏDƏBİYYAT

1.Müasir Təhsil və Tədrisə Yardım Mərkəzi: “Məktəb menecmenti və liderlik”

2. Məktəb təhsilində pedaqoji menecment Иманкулова М. Т., Эсенгулова М. М., Джусупбекова Н. С., Юсупова А. Д. Liderlik, hamilik və monitorinq üzrə vasitələr. // B.: , 2014. – 205s.

3. Çelik, Vehbi Eğitimsel Liderlik ,Prof. Dr , Pegem Akademi Ankara 2013

4.www.az.wikipedia.org

# AZƏRBAYCAN TƏHSİL SİSTEMİNDƏKİ İNKLUZİV TƏHSİL PROQRAMININ XARİCİ ÖLKƏLƏRDƏN FƏRQLİ CƏHƏTLƏRİ

***Məsmalı Səbinə Sahib qızı***
***II kurs magistrantı, BDU***

Azərbaycanın təhsil sistemində inkluziv təhsil proqramı nisbətən geç tətbiq olunmuşdur.  Bu proqram hər bir ölkədə eyni məqsədə xidmətetsədə müxtəlif formalarda həyata keçirilir. Mu müxtəlifliklərin olması təbii haldır. Çünki insanlar fərqli olduğukimi düşüncələrdə müxtəlifdir. Müxtəlif ölkələrdə tətbiq olunan inkluziv təhsil proqramlarına nəzər salsaq bir çox yenilikləriqeyd edə bilərik.

Amerika, Avropa ölkələri, Yunanıstan, İtalya, Belarusya kimi ölkələrin inkluziv təhsil proqramlarına nəzər salaq.

İlk öncə qeyd etmək isdərdim ki, inkluziv təhsil proqramı İtalyada yaranması hesab olunur. Belə qeyd edirlər ki, İtalya digər ölkələr üçün təcrübə olmuşdur. 1971 ildə sağlamlıq imkanları məhdud uşaqların ümumitəhsil məktəblərində təhsilalması ilə bağlı qanun qəbul edilməzdən öncə İtalyanın birçox bölgələrində bu proqram tətbiq olunurdu. Faiz nisbətləri ilə qeydetsək İtalyada xüsusi qayğıya ehdiyacı olan uşaqların 99%-i təhsilə cəlb olunsada Azərbaycanda bu nisbət çox aşağıdır. Amerikada isə bu nisbət 50% təşkil edir. Azərbaycanda təhsillə bağlı qəbul edilmiş qərarlarda son illərdə bu məsələyə toxunulmuşdur. Bu fərqlilikləri etnik düçüncələrlə izah edirlər. Bu kimi düçünülür ki, latın mədəniyyətində “insan necədir?” sualı ilə yanaşılaraq insanın müsbət cəhətlərinə diqqət yünəldilir. Amerika və bəzi Avropa mədəniyyətində isə əsasən insanın bacarıq və qabiliyyətinə diqqət yönəldilir.

Belarusyada sağlamlıq imkanları məhdud çəxslərin ümumitəhsil məktəblərinə inteqrasiya Azərbaycanla nisbətdə bir necə il erkən yaranmısdır. 1995-ci ildə Belarusyada məhdud

imkanlı uşaqları ümumitəhsil məktəblərinə qəbul edilsədə Azərbaycanda bu məsələ 2001-ci ildən sonra müzakirə olunmuşdur. Bu yaxınlığın olması təbii haldır. Çünki Azərbaycan və Belarusya hər ikisi də Sovetlər birliyinin tərkibində olmuşdur. O dövrdə Sovetlər birliyində defektologiya elmi mövcud idi. Bu idə onu gösdərir ki, insanlara qayğı göstərərək onları cəmiyyətə inteqrasiya etmək deyil, onların problemləri qabardılaraq cəmiyyətdən təcris edirdilər. İnternat tipli məktəblərdə təhsil alan xüsusi qayğıya ehdiyacı olan  uşaqlar öz mühitindən uzaqlaşdırılaraq xüsusiləşdirlirdi.

Yunanıstanda bu məsələ nisbətən fərqli şəkildə qabardılırdı. Orada uzun müddət sağlamlıq imkanları məhdud uşağı olmaq rüsvayçılıq sayılırdı. Bu baxımdan bir çox uşaqlar savadsız böyüyürdü. Yunanıstan 1980-ci illərdə Avropa birliyinə üzv olduqdan sonra bu düçüncə tərsi getdikcə ləğv olmağa başladı. Elə həmin dövrdən də əlillər üçün ümumi ibtidai təhsil haqda vacib qanunlar qəbul edilmişdir. 1974-cü ildən artıq xüsusi qayğıya ehdiyacı olan  uşaqlar digər uşaqlar kimi məktəblərə inteqrasiya edilməya başladı. Azərbaycandan fərqli olaraq bu ölkədə sağlamlıq imkanalrı məhdud şəxsləri təhsilə cəlb edilməsi cəmiyyətin, valideyinlərin təzyiqi ilə deyil, yalnız yanunvericiyin yaranması nəticəsində həyata keçdi. Azərbaycanda valideyinlər və pedaqoqlar xüsisi qayğıya ehdiyacı olan uşağı mümkün qədər cəmiyyətə inteqrasi etmək üçün çox cəhd etsələrdə Yunanıstanda bu belə deyildi. Statistik göstəricilərə görə həmin illərdə təhsil ocaqların sayı artmağa başladı.

Moldova Respublikasında təhsil sahəsində, xüsusilə də məhdud imkanlı uşaqların təhsil və tərbiyəsində həyata keçirilən dövlət siyasəti  dövlətin milli prioritetlərindən biri hesab edilir. İnkluziv təhsil məsələsi Moldovada 21-ci əsrin əvvəllərindən yaranmağa başladı. Moldovada İnkluziv təhsilin inkişafının sürətlənməsi Avropa mütəxəsisləri ilə əməkdaşlıq

nəticəsində sürətləndi. Hətta inkluziv təhsil üzrə kadr hazırlığı üçün peşəkarların hazırlanması sahəsində 2007-ci ildən Pedaqoji Elmi İnstitutu "İnkluziv təhsil" adlı kurslar keçirilməyə başlamışdır.

Azərbaycanda tətbiq olunan inkuziv təhsil bu ölkələrlə müqaisə etdikdə yeni yaramışdır. Və yeni proqram olduğu üçün çatışmazlıqların müvculuğu labüddür.

## ФОРМИРОВАНИЕ ОСНОВ БЕЗОПАСНОСТИ ЖИЗНЕДЕЯТЕЛЬНОСТИ У ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА

***Преподователь ШГПЭК***
***Нармин Рагимова***

Проблема безопасности жизнедеятельности признается во всем мире, и считается одной из наиболее важных проблем требующих решения. Каждый человек, и взрослый, и ребенок в любой момент может оказаться в чрезвычайной ситуации, столкнуться с опасностью. Техногенные и экологические катастрофы, террористические акты, военные конфликты, рост преступности, социальная и экономическая нестабильность особенно остро сказываются на детях [2, с. 4]. Формирование ответственного отношения человека к своей безопасности должно проходить на всех этапах его жизни, а начинать ее необходимо именно с дошкольного возраста. Дошкольный возраст — важнейший период, когда формируется человеческая личность, и закладываются прочные основы опыта жизнедеятельности и здорового образа жизни в целом [1, с. 41]. И поэтому задача взрослых состоит в том, чтобы подготовить ребенка к встрече с различными сложными, а порой опасными жизненными ситуациями. Такие особенности

дошкольника, как доверчивость, внушаемость, открытость в общении и любознательность, обусловливают поведение в опасной ситуации и способствуют его наибольшей уязвимости, поэтому то, что для взрослого не является проблемной ситуацией, для ребенка может стать таковой, так как ребёнок по своим физиологическим особенностям не может самостоятельно определить всю меру опасности.

Период дошкольного детства характеризуется нарастанием у детей двигательной активности и увеличением физических возможностей ребенка, которые, сочетаясь с повышенной любопытностью, стремлением к самостоятельности, нередко приводят к возникновению травмоопасных ситуаций, поскольку реакции детей по сравнению с взрослыми замедленные, они гораздо позже могут правильно отреагировать на возникшую опасность [1, с. 42]. Формирования основ безопасности собственной жизнедеятельности и формирования предпосылок экологического сознания  достигается в рамках занятий по безопасности окружающего мира.

Процесс формирования основ безопасности жизнедеятельности предполагает реализацию следующего механизма включающего рациональный, эмоциональный и поведенческо — деятельностный компонент. Первый рациональный компонент предполагает сферу сознания личности, так как отношение к объектам окружающего мира начинается с понятий и представлений о вещах, явлениях, событиях, ценностях. Второй эмоциональный компонент предполагает восприятие любого знания, действия и поступка сквозь призму эмоционального строя личности, чувств, вызываемых явлениями окружающего мира [3, с. 32]. Третий поведенческо — деятельностный компонент предполагает то, что знания о мире, их эмоциональная оценка неизменно приводят к

определенному типу действий и поступков (сознательных, осознанных действий) [3, с. 34].

Таким образом во-первых, детям нужно дать необходимые знания об общепринятых человеком нормах поведения; во-вторых, научить адекватно, осознанно действовать в той или иной обстановке, помочь детям овладеть элементарными навыками поведения дома, на улице, в парке, в транспорте; и главное развивать у дошкольников самостоятельность и ответственность, при этом важно научить ребёнка объяснить собственное поведение. [1, с. 42]. Обучение навыкам безопасного поведения дошкольников и приобщение их к здоровому образу жизни можно разделить на два периода. Первый — это дети 3—5 лет (младшая и средняя группа), второй — дети 5—7 лет (старшая и подготовительная группа). Работа, направленная на освоение ребенком правил безопасного поведения должна осуществляться ступенчато: сначала важно заинтересовать детей вопросами безопасности; затем необходимо постепенно вводить правила безопасности в жизнь детей, показать разнообразие их применения в жизненных ситуациях; упражнять дошкольников в умении применять эти правила.

Как отмечают многие исследователи занимающиеся проблемами безопасности, главной особенностью в формировании основ безопасности жизнедеятельности у детей дошкольного возраста является то, что при знакомстве детей с правилами безопасности очень важно делать акцент на формирование у них определённой модели поведения, которая в сочетании с рассмотренными выше механизмом и направлениями способствуют наиболее эффективному усвоению детьми знаний и навыков безопасности жизнедеятельности:

· предвидеть опасность

· уметь принять меры во избежание опасности
· уметь обращаться за помощью к другим
· уметь действовать так, чтобы обеспечить свою безопасность, защитить себя в опасных ситуациях [4 с. 10].

Таким образом, особенности формирования основ безопасности жизнедеятельности у детей дошкольного возраста предполагают реализацию комплекса который включает механизм, направления и модель способствующие достижению эффективных результатов в опасных ситуациях.

## ЛИТЕРАТУРА


1. Виноградова Н.Ф. Дети, взрослые и мир вокруг [Текст] / Н.Ф. Виноградова. М.: Академия, 2008. — 152 с.
2. Гаткин Е.Я. Безопасность ребенка [Текст] / Е.Я. Гаткин. М.: Лист, 2007. — 173 с.
3. Маленкова Л.И. Теория и методика воспитания. Учебник. [Текст] / Л.И. Маленкова. М.: Педагогическое общество России, 2004. — 480 с.
4. Основы безопасного поведения дошкольников: занятие, планирование, рекомендации [Текст] / Автор-составитель О.В. Чермашенцева. — Волгоград: Учитель, 2008. — 226 с.


## ŞİZOFRENİYADAN ƏZİYYƏT ÇƏKƏN XƏSTƏLƏRİN MÜALİCƏSİNDƏ KOQNİTİV REMİDIASİYA PROQRAMININ ROLU


***Sevda Cəlilzadə***
***BDU – nun I kurs magistrantı***
sevda.celilzade@gmail.com


Şizofreniya-xəstələnmə və ölüm üzrə yüksək göstəricilərə malik olan, ciddi, lakin müalicəyə tabe olan prosessual psixi xəstəlikdir. Xəstəlik çox vaxt cavan yaşlarda meydana çıxır və bütün ömür boyu psixotik əlamətlərlə gedərək, xəstələrin

fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir edir. Tarixi kontekstdə şizofreniyanın spesifik əlamətləri Assosiativ pozulmalar, Affektiv pozuntular, Autizm və Ambivalentlikdir (4A) [2, s.12]. Müasir təsəvvürlərə görə, şizofreniyaya psixikanın təfəkkür, qavrama, emosiya, iradə, davranış kimi sahələrinin pozulması kimi baxılır. Şəxsiyyətin müəyyən dəyişiklikləri, sosial və qohumluq əlaqələrinin itirilməsi ilə əlaqədar olaraq, şizofreniyalı xəstələr tez-tez qeyri-qanuni əməllərin qurbanları olur və digər insanlar tərəfindən ayrı seçkiliyə məruz qalırlar. Qeyd etmək vacibdir ki, şizofreniyalı xəstələr və onların ailə üzvləri çox vaxt, xəcalət, günahkarlıq və ya dəyərsizlik hissi ilə bağlı olan damğanın təsirini hiss edirlər, bu isə zəruri yardım üçün müraciət etməyə mane olur. Şizofreniya və onun müalicəsi psixi sağlamlığın bərpa olunmasının aktual məsələlərindəndir. Şizofreniya kimi ağır psixi pozuntular, onların müalicəsi üçün istifadə olunan psixososial reabilitasiya proqramı son illər böyük maraq doğurmuşdur. Psixi pozuntular dünyanın istənilən ölkəsində, hər iki cinsin nümayəndələrində hər bir yaşda, sosial və etnik qruplara mənsubiyyətdən asılı olmayaraq meydana çıxır, xəstələrin özünə və yaxınlarına çox böyük iztirablar gətirir. Həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə şizofreniya xəstələrində xəstəlik nəticəsində müşahidə olunan sosial adaptasiya probleminin aradan qaldırılması aktual məsələlərdəndir. Müxtəlif ölkələrdə xəstəliyin produktiv, neqativ, ümumi psixopatoloji simptomlarına təsir edən və xəstəliyin klinik mənzərəsini yaxşılaşdıran amillərin araşdırılması ilə bağlı tədqiqatlar aparılmışdır [6, s.35]. Eyni zamanda xidmətlərə münasibətin müəyyən edilməsi, pasientlərin ehtiyac duyduğu xidmət sahələrinin yaradılması, inkişaf etdirilməsi və buna əsasən xidmətlərin keyfiyyətini yüksəltməyə imkan verən tədbirlərin görülməsinə əsaslanan müxtəlif tədqiqatlar keçirilmişdir. Şizofreniyanın müalicəsini 4 mühüm növü vardır: dərman müalicəsi, psixo və ya sositerapiya, psixo-

məlumatlandırma,ailə dəstəyi.Dərman müalicəsi-xəstənin bu üsulla müalicəsində neyroleptik maddələrdən istifadə edilir. Dərmaların istifadəsi xəstədən xəstəyə dəyişir.Psixoməlumatlandırma - şizofreniya xəstələrinin müalicəsində yerinə yetiriləcək proqrama daxil edilməsində yararlı olduğuna dair sübutlar var və bəzi ölkələrdə bu cür proqmlardan xəstəliyin müalicəsində istifadə edilir.Psixoterapiya - şizofreniya xəstələrinin müalicəsində istifadə olunan müxtəlif psixoterapiya müalicələri formalaşmışdır (dəstəkləyici,şəxsi,bağlılıq və.s). Bu cür terapiyaların dərman müalicəsindən sonra geridə şikayətləri qalan xəstələrdə yararlı olduğu düşünülməkdədir.Mütəxəssislər şizofreniyadan əziyyət çəkən xəstələrin müalicəsində effektiv psixoterapiya kimi Koqnitiv Bihevioral Terapiyanı irəli sürürlər. Eyni zamanda şizofreniyadan əziyyət çəkən xəstələrin müalicəsində Koqnitiv Remidiasiya Proqramını da istifadə edirlər.[5.s.125] Koqnitiv remidiasiya proqramı hal-hazırda dünyada geniş yayılmış və nəticə göstərən terapiya növüdür. Bu terapiyadan qida pozuntuları zamanı, şizofreniya xəstəlikləri zamanı və s. istifadə oluna bilər. Koqnitiv remidiasiyanın əsas məqsədlərindən biri də idrak defisitlərinin aradan qaldırılmasıdır. Koqnitiv remidiasiyada istifadə edilən “alət”lərlə beyin proqramlarını bəzən müqayisə edirlər. Lakin koqnitiv remidiasiyadan fərqli olaraq beyin proqramlarının obyekti sağlam insanlardır və onlarda yaşlılıqla əlaqədar olaraq yaranan idrak kəsirlərinin qarşısını almağa yönəlib. Idrak defisitlər diqqət, yaddaş və icra funksiyalarının pozulması kimi özünü büruzə verir.Bəzi psixi xəstəliklər bəzən koqnitiv funksiyaların pozulması nəticəsində baş verir. Bu tip koqnitiv pozuntulardan əziyyət çəkən insanlara cəmiyyətdə sosial və professional həyatda boyük güşəştlər edilməlidir. Koqnitiv remidiasiya proqramı elə bir müalicə üsuludur ki, bu proqramda olan tapşırıqlar vasitəsilə xəstələrin diqqət, yaddaş, dil və icraedici funksiyaları inkişaf etdirilir. Edilən tapşırıqlar

nəticəsində xəstənin həyati keyfiyyətlərinə təsiri nəticəsində inkişafı gözlənilir.[6.s.78] Müvafiq terapiya vasitəsilə eyni zamanda xəstələrin sosial və professional həyata inteqrasiya etmək bacarıqların artırılmasına da kömək edir.Koqnitiv remidiasiya proqramı xəstəliyin effektlərini müəyyən qədər azaldır lakin, bu o xəstəliyin təsirini tamamilə aradan qaldırılmasına və ya müvafiq psixoterapiyaları əvəz etməsi mənasına gəlmir. Həqiqətən də, bu müalicənin hər üç növünün paralel aparılması daha effektli olur. Belə ki, psixoaktiv maddələr pasientin beyin reseptorlarına təsir edir, eyni zamanda paralel olaraq psixoterapiya xəstənin ətraf mühitdəki profilinə, düşüncələrinə cəmiyyətdəki davranışlarına təsir edəcək formada aparılır, koqnitiv remidiasiya proqamı isə beyində yeni informasiyaların yaranmasına və diqqət, yaddaş, icraedici funksiyaların inkişaf etdirilməsinə yönəlir. [4.s.37] Bir sözlə, müxtəlif terapiya üsulları birləşdirilir və paralel şəkildə müalicə gedir. Koqnitiv remidiasiya eyni zamanda psixiatrik pozuntulardan əziyyət çəkən uşaqlar üçün də tətbiq edilə bilər. Buna misal olaraq, diqqət əksikliyi və hiperaktivlik problemini, psixi inkişafdan geri qalmanı, beyin travmalarını və erkən yaşlarda başlayan demensiyanı göstərə bilərik. Bir nüansı qeyd etmək lazımdır ki, koqnitiv remidiasiya proqramı yalnız klinik stabil və öz xəstəliyinə tənqidi yanaşa bilən xəstələr üzərində aparıla bilər. Çünki onlar 20 (bəzən daha çox) dəqiqə davam edən məşğələlər ərzində diqqətini cəmləşdirməlidirlər. Pasient koqnitiv remidiasiya proqramından keçmək üçün müraciət edərkən, ilk növbədə onun hal-hazırkı idrak prosesi qiymətləndirilir. Bu onun koqnitiv sahəsində olan əksiklikləri və bu əksikliklərin təbiətini müəyyənləşdirmək baxımından zəruridir.Bu müalicənin məqsədi insanlara sosial və işgüzar həyatda sərbəstlik hissinin artırılmasıdır.[5.s.79] Bu müalicənin 2əsas üsulları vardır. Üsullardan biri beynin funksiyalarını inkişaf etdirmək üçün, müntəzəm olaraq təkrar məşqlərdən və idrak prosesində olan

əksiklikləri korreksiya etmək üçün xüsusi təlimlərdən istifadə olunmasıdır. Bu koqnitiv funksiyalarda olan problemlərin bərpa olunmasına kömək edir. Ikinci reabilitasiya üsulu isə idrak funksiyalarının saxlanılmasıdır. Koqnitiv remidiasiya proqramı şizofreniyadan əziyyət çəkən xəstələrdə onların iradi sferasının funksional göstəricilərinin yaxşılaşdırılması məqsədilə məşqlər formasında keçirilir. Ümumiyyətlə, şizofreniyadan əziyyət çəkən xəstələrdə idrak funksiyalarının yaxşılaşdırılmasına və təmizlənməsinə ehtiyac vardır. Bu baxımdan da Koqnitiv Remidiasiya proqramını həmin xəstələrlə keçirmək çox vacibdir. Şizofreniyalı xəstələrdə istifadə olunan bu proqram koqnitiv təmizlənmə, sosial vərdişlərin artırılması və neyrokoqnitiv nəticələrin yaxşılaşdırılması üçün möhkəm empirik bazaya malikdir.

## ƏDƏBİYYAT


1. İsmayılov, N.V. Psixiatriya. Bakı, 2004. 586 səh.
2. İsmayılov, N.V. İsmayılov, F.N.Tibbi psixologiya və psixoterapiya. Bakı, 2008. 416 səh.
3. İsmayılov N.V. Şizofreniyanın patogenezinin immunogenetik aspektləri. Monoqrafiya, 207 səh. 1995
4. Хелл Д., Фишер-Фельтен М. Шизофрении, Москва, 2010. 452.
5. David G.T., Kingdon M.D.,Cognitive-Remediation Therapy of Schizophrenia, N.Y. 2004 219 pages
6. Beck J.A. Aaron T.B. Cognitive Behavior Therapy, Second Edition: Basics and Beyond. The Guilford Press2011, 391 pages.
7. T.Wykes, C.Reeder. Cognitive Remediation Therapy for Schizophrenia: Theory and Practice. Y.N.2005. 315 page
8. http://www.ncbi.nlm.nih.gov/pubmedhealth/
9. http://www.mentalhealthcare.org.uk/content/?id=9
10. http://www.schizophrenia.ru/schizo/how.shtml

## FƏLSƏFƏ BÖLMƏSİ

*bölmə rəhbəri: b/m A.M.ALLAHVERDİYEV*

# HUMANİZM NƏDIR?

***Bayramova Ramilə Nuqzar qızı,***
***BDU-nun II kurs magistrantı.***
***ramila.bayramova@inbox.ru***

Yaşadığımız mürəkkəb dövrdə humanizm əsasən çoxcəhətli, tarixi cəhətdən müxtəlif aspektlərdən ifadə edilən və əsaslı sosial-fəlsəfi təhlil tələb edən problem kimi nəzərə çarpır. Humanizmin tarixi nöqteyi- nəzərdən anlaşılması insanın təbiəti və mahiyyətinin anlaşılması ilə əlaqələndirilir. Əsasən bu anlaşılma mükəmməl insanın tarixi nöqteyi-nəzərdən müəyyən olunan modelinə uyğun tərtib olunur və diqqəti əxlaqi keyfiyyətlərə yönəlirdi.

Bütövlükdə götürdükdə, humanizm anlayışı mədəniyyət və fəlsəfə tarixində yüksək əhəmiyyət daşıyan, insanın bir fərd və şəxsiyyət olaraq mükəmməl inkişafına istiqamətlənən baxışların və nəzəriyyələrin məcmusunu əhatə edir. "Humanitas" sözünün latın dilində ilk dəfə e.ə. 83-84-ci illərdə yazarı məlum olmayan "Rhetor ika ad Herennium" adlı mətndə istifadə edildiyi güman edilir (3). Lakin bu sözə Latın dilində tam mənasıyla hüquq qazandıran Siseron olmuşdur və o, həmin anlayışı təxminən e.ə. 80-ci illərində istifadə etmişdir. Müasir mənada bu anlayış fransız sözü olan "humanisme" sözündən götürülmüş və "insan təbiətinə xas özəlliklərin tamlığı" mənasına gəlir. Bu söz Azərbaycan dilində "insansevərlik" mənasını ifadə edir (5). Hal-hazırda ədəbiyyatlarda humanizm daha çox aşağıdakı iki mənada işlədilir:

1. Antik Yunan mədəniyyətinə və Latın dilinə bələd olan şəxs;

2. İnsansevərlik.

Humanizm insanın bir şəxsiyyət kimi özünü dəyərləndirməsinə, onun azadlıq və xoşbəxtlik hüququna əsaslanan dünyagörüşüdür. Humanistləri insan özü, onun təbiəti, müstəqillik və yaradıcılığı maraqlandırır. Humanizm fəlsəfəsi Orta əsrlər geosentrizmini insanın dünya ilə münasibətlərində ona göstərilən marağa qarşı qoyur.

Humanizm insani məsələlərdə təbiətüstü inancların hakimiyyətini tamamilə rədd edir, amma bununla yanaşı inancların özünü hədəf olaraq seçmir. Ümumi mənada ateizm və aqnostisimlə bütünləşir, amma humanist anlayış bunlara daxil deyil. Humanizm bu cür təbiətüstü güclərin varlığı ilə bir növ maraqlanmayan etik yanaşmadır. Humanizmin əsas məqsədi hər cür avtoritarlıqdan insanı azad etməkdir.

Humanizmə görə həqiqəti tapmaq insanın haqqıdır. Amma həqiqəti tapmaq yolunda mistisizm, inanclar və bu kimi məntiqlə tamamlanmayan üsullar doğru deyil. Həqiqətə edilən bu arzu gözübağlı mütləq həqiqət olaraq qəbul etmək deyil, elmi şübhəçilik və elmi üsullarla öz cavabını tapmalıdır. Avtoritarlığı və eyni zamanda həddən artıq şübhəçiliyi də rədd edərkən, taleyin hadisələr üzərindəki təsirini qəbul etmir. Doğrunun və yanlışın olmasına şəxsi və ortaq elmin mənimsənilməsilə çatılabiləcəyini müdafiə edir. Bununla yanaşı humanizm insanın bütün digər canlı növlərindən daha fərqli olduğu düşüncəsini inkar edir. Humanist filosof Piter Singer "Bir çox istisna olmasına baxmayaraq humanistlərin çoxu özlərini böyük bir doqmadan azad edə bilmir. Humanistlər digər canlı növlərinə qarşı düşüncəsiz istismara qarşı çıxmalıdır" (4) deyərək humanizmin təbiiliyi və həyatsevərliyini göstərir.

Humanizm insanın bacarıqlarına müsbət yanaşır, bununla yanaşı insan təbiətinin bütünlüklə yaxşı və bütün insanların humanizmin müdafiə etdiyi mənəvi dəyərlərə çatabiləcəyini müdafiə etmir. Bunun üçün əzm və başqalarının köməyi də

lazımdır. Humanizmin əsas hədəfi insanın inkişafı və bütün insanlar üçün həyatı yaxşılaşdırmaqdır. Humanizm gözəl işlər görməyə, indi və burada yaxşı yaşamağa və gələcəyə daha yaxşı bir dünya qoyub getməyə çalışır, sonrakı həyatda mükafatlandırılmaq üçün həyat boyu əzab çəkmək lazım deyil.

ƏDƏBİYYAT


1. Muhsin Kadıoğlu-Humanizm (makale). Ankara 2005.
2. Tony Davies-Humanism. London 1997, 161 p.
3. Humanizm. http://sosyolojisi.com/
4. Humanism. https://www.marxists.org/
5. Humanizmin özellikleri ve temsilcileri. http://www.kisacabilgi.net/
6. What is Humanism. http://iheu.org/
7. Humanism. . http://simplypsychology.org


## НАНОЭКОНОМИКА-НОВАЯ ОСНОВА ДЛЯ РАЗВИТИЯ ИНТЕРЭКОНОМИКИ


*проф. Ф.М.Эфендиев*
*доц. И.А.Исламов*


Современная экономическая наука прогредиентно расширяет и рекурсивно идентифицирует уровни системного анализа теории и практики хозяйственной деятельности общества, со всей сложностью совокупных производственных, обменных, распределительных и потребительских взаимоотношений в нём. Формирование актуальной и эффективной научной парадигмы, позволяющей правильно идентифицировать ключевые проблемы, создавать адекватные механизмы для их решения, требует новых подходов к самой методологии

исследования экономических отношений. Одним из инновационных логико-мнестических подходов к изменению догм имеющейся научно-экономической парадигмы, является углубленный фрактальный анализ с фокусировкой на первопричине появления всех видов экономических отношений в мире, то есть на самом “человеке”, как биологическом индивидууме, ежедневно принимающем те или иные экономические решения в зависимости от объективных реалий, изменений окружающей среды и субъективного отношения к ним в каждый конкретный момент времени.

Данный углубленный аналитический подход в контексте экономической теорий, переводит нас от сложившихся представлений микроэкономики и микросоциума к новому уровню “нано” – ($10^{-9}$), где каждый индивид с его потребностями, желаниями, амбициями, ресурсами и возможностями становится ключом к пониманию и эссенциальным интегральным элементом для модификации современной мировой экономической системы. Подобная эволюция представлений в методологии создания универсальной концепции глобальной модели экономики привела л созданию в начале XXI-века новой науки – “наноэкономики”.

Непосредственно термин «нано» был введен в активное научное обращение еще в 1959 г. физиком Р.Фейнманов в докладе «В том мире полно места». «Нано» (n) ( в переводе с др.-греч. nanos–карлик , гном или nano–экстремальная версия микро-) означает одну миллиардную часть единого целого и человечество уже давно “созрело” для того , чтобы данный термин мог быть адеквано применен в отношении его ( численность населения Земли достигла 1 миллиарда человек еще в первой четверти XIX-го века).

В экономической же литературе само понятие «наноэкономика» впервые появилось лишь в конце XX-го века, а именно в 1987 году в статье известного экономиста, лауреата Нобелевской премии по экономике за 1972 год , Кеннета Джозефа Эрроу под названием «Размышление над эссе », где ученый непосредственно не дает четкую дефиницию термина и трактовку самого понятия, но подразумевает необходимость построения теории экономического поведения индивидуальных экономических агентов в рыночных и нерыночных условиях с учетом их вероятной иррациональности, алогичности и импульсивности. Однако, к сожалению, призыв К.Эрроувпоследующем не сделал реальных шагов к разработке данной теории, остановившись лишь на указании нам вектора разбития научной мысли.

В русскоязычной экономической литературе термин «наноэкономика» был впервые введён в оборот в 1996 г. Г.Б.Клейнером (не знакомым, по словам автора, в то время с публикацией К.Эрроу от 1987 года) в статье «Современная экономика России как «экономика физических лиц».

В своих работах Г.Б.Клейнер уточняет определение наноэкономики, исследует ее функции и место в системе схожих экономических понятий, рассматривает различные характеристики экономики Российской Федерации с наноэкономической точки зрения. По мнению Г.Клейнера, под наноэкономикой может пониматься, во-первых, сама экономическая система, рассматриваемая с точки зрения поведения физических лиц, во-вторых, научная дисциплина, изучающая эту систему.

Более же сфокусированным, глубоким и онтогенетическим подходом в области изучения наноэкономики отличаются обширные исследования, проведенные О.В.Иншаковым, который выделяет три

основных направления исследования наноэкономики: 1) утилитаристский; 2) бихевиористский; 3) эволюционистский. В своих трудах О.В.Иншаков отдельно акцентирует внимание ученых на том, что решение многих методологических и теоретических задач эволюционной экономики начинается на наноуровне, так как “генетический подход” через переосмысление процессов онтогенеза предприятий как индивидуальных “экономических организмов” позволяет расширить понимание различных процессов и форм их филогенеза, а также связей между этими процессами в интерэкономике.

В настоящее время понятие “наноэкономика” носит выраженный мультидисциплинарный характер, так как процессы исследования экономического поведения отдельно взятых индивидов – “экономических агентов/акторов” затрагивают интересы практически всех сфер научных дисциплин, занимающихся изучением человека: антропологии, физиологии, психологии, социобиологии, генетикии, когнитивной этологии, философии, и т.д. Поэтому логично, что именно на основе интерференции и “комплексного взаимодополнения” должно быть выведено четкое понятие наноэкономики с позиции отношений и действий первичных субъектов относительно объектов, процессов и их результатов, которое создают научно-теоретическую базу для развития этой новой дисциплины, определит ключевые векторы для развития и детерминирует критерия для определения адекватности и эффективности практического приложения данной науки.

Эссенциальными философско-методологическими инструментами наноэкономики можно назвать 2 ключевые научные концепции: 1) материалистическую диалектику (базирующся на диалектике Гегеля) и 2) гносеологический оптимизм (как принцип познаваемости

материального мира и общества). При этом, философское содержание наноэкономики на сегодняшний день можно охарактеризовать, как базирующуюся на 3 основных теоретических “столпах”: 1) диалектическая теория индивидуально-коллективной формы общественной собственности; 2) диалектическая теория рыночных и плановых отношений в обществе и 3) полезностно-трудовая теория ценности.

Также следует отметит, что в настоящее время многими учеными выделяется 4 основных научно-практических направления в рамках исследования наноэкономики:

1) Наноэкономика (nanoeconomics, nET) как особый раздел экономической теории;

2) Наноэкономический менеджмент (nanoeconomics management, nEM);

3) Наноэкономическая политика государства, регионов и корпораций (nanoeconomics policy, nEP);

4) Наноиндустрия (nanoindystrial, nIT) сфера хозяйственной практики, связанная с развитием нанотехнологий и внедрением их в жизнь общества.

Учитывая вышеприведенные факты, тенденции и потребности современного общества, можно постулировать, что интегральный “наноэкономический” подход к анализу мотивов поведения человека, принятия им хозяйственных решений с ожиданием их практического результата позволит определить приоритеты, критерий оценки, предпочтения, когнитивные стереотипы с вариантами социальных девиаций и ряд других параметров на основе которых будет возможным прогнозировать наиболее вероятные модели поведения зкономических субъектов с высокой статистической достоверностью. Данный “наноэкономический” подход позволит вывести глобальную экономику на новый

уровень эффективного планирования и управления, где вероятность возникновения различных “кризисов” станет минимальной, а вертикаль “индивид-социум-государство” будет застрахована от многих рисков и ингибирующих элементов на каждом этапе принятия решений и коопераций, что обеспечит прогрессивное социально-экономическое развитие мирового сообщества.

## ЛИТЕРАТУРА


**1.** Arrow, Kenneth J.(1987).”Rationality of self and others in an economic system”, in R.M.Hogart and M. W.Reder (eds.), Rational Choice. Chicago:The University of Chicago Press.

**2.** Клейнер Г.Б./Наноэкономика //Вопросы экономики.-2004.-№12.

**3.** Иншаков О.В./Экономическая генетика и наноэкономика //О.В. Иншаков. Изд-во ВолГУ, 2007.

**4.** Иншаков О.В./ Наноэкономика в глобальном контексте / О.В. Иншаков/Научнитрудове // “Интердисциплинарен форум България и Русия -2008” , Русе, България.

**5.** Любимова Т.А./Наноэкономика как исходный уровень анализа экономических отношений //Вестник ИрГТУ-2009.-№2(38).

**6.** Манахова И.В./Наноэкономика: многоуровневый подход к исследованию экономикических отношений //Известия СГУ.Экономика.Управление. Право.Том .-2011.-Вып.2.

# MULTİKULTURALİZMİN TƏDQİQİ PRİORİTET ELMİ İSTİQAMƏT KİMİ

***Vüsal Zülfüqarov***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Azərbaycan özü tarixi prosesin bütün mərhələlərində multikultural dəyərlərin yaşandığı bir coğrafi məkan kimi tanınmış, bu gün də mədəniyyətlər və dinlərarası dialoqun unikal məkanına çevrilmişdir.

Multikultural cəmiyyətlərin formalaşmasına təsir edən əsas proseslərdən biri olan qloballaşma prosesi çərçivəsində ölkəmizdə mültikultural və tolerant dəyərlərin inkişaf etdirilməsi daha uğurlu alınır. Çünki, sivilizasiyaların qovşağında yerləşən Azərbaycanın özü daha zəngin mədəni-mənəvi irsə və tolerantlıq ənənələrinə malikdir. Bu prosesdə qloballaşmanın müsbət və mənfi tərəflərinin araşdırılması, Multikulturalizm konsepsiyasının elmi-nəzəri əsaslarının, o cümlədən etik prinsiplərinin tədqiqi elmi tədqiqatların predimetini təşkil etməlidir. Həmçinin miqrasiya prosesinin multikultural cəmiyyətlərin formalaşmasındakı rolu nəzərdən qaçmamalıdır. Multikultural və tolerant dəyərlərin formalaşmasındakı rolundan savayı, bu amilin ölkəmizin sosial-iqtisadi inkişaf perspektivləri baxımından da araşdırılması önəm daşıyır. Hazırda Avropa ölkələrində miqrasiya prosesi beynəlxalq formada özünü göstərməkdədir. Bəzən cəmiyyətdə emiqrantlarla yerli xalqlar arasında mədəniyyətlərarası çatışma və dözümsüzlük kimi xoşa gəlməyən mənfi hallar da baş verə bilir. Multikultural cəmiyyətlərin formalaşmasında və inkişafında medianın da rolu əhəmiyyətli dərəcədədir. Multikultural araşdırmaların nəticələrinin ictimaiyətə çatdırılması, multikultural və tolerant dəyərlərin təbliğində media əsas vasitəsitədir. Multikulturalizmin bir ideoloji məsələ kimi öyrənilməsi milli

təfəkkürdə multikultural dəyərlərin yer alması və inkişafında əhəmiyyətli rol oynayacaqdır.

Azərbaycanın dünyaya tolerantlıq nümunəsi olaraq daha geniş tanıdılmasının vacibliyini, eləcə də ayrı-ayrı ölkələrdəki müxtəlif multikultural modellərə xas fəlsəfi, sosial, siyasi və digər aspektlərin Azərbaycan reallığında təhlili və təşviqinin əhəmiyyətini nəzərə alaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 15 may 2014-cü il tarixli Fərmanı ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmışdır. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin təşkilatçılığı ilə "Azərbaycan multikultualizmi" bir fənn kimi Avropanın bəzi universitetlərində tədris olunur. Eyni zamanda Mərkəz tərəfindən qısa müddətli yay-qış məktəbləri təşkil edilir, məktəblilərlə görüşlər keçirilir, həmçinin Azərbaycanın bölgələrində multikultualizm və tolerantlıq mövzularında elmi-intelektual seminarlar təşkil edilir.

9 noyabr 2015-ci il tarixində Azərbaycan Milli Elmlər Akademiyasının 70 illiyik yubileyinə həsr olunmuş Ümumi yığıncaq keçirilmişdir. Ümumi yığıncaqda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev nitq söyləmişdir. Dövlət başçısının həmin nitqindən irəli gələrək AMEA-nın Rəyasət Heyəti qərar qəbul etmiş və həmin qərara əsasən verilmiş tapşırıqlardan biri də Multikulturalizm konsepsiyasının elmi-nəzəri əsaslarının tədqiqi və fundamental istiqamətlərinin müəyyənləşdirilməsi ilə bağlı ictimai və humanitar elmlər sahəsində araşdırmaların daha da genişləndirlməsi olmuşdur.

Dövlət başçısının 11 mart 2016-cı il tarixli Sərəncamı ilə 2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsinə dair Tədbirlər Planı təsdiq edilmişdir. Tədbirlər Planında Azərbaycan multikulturalizminə və multikultural və tolerant dəyərlərin inkişaf etdirilməsinə həsr olunmuş əsərlərin yazılması, kitabların hazırlanması, müsabiqələrin keçirilməsi, ölkədaxili və beynəlxalq səviyyəli

müxtəlif elmi və elmi-texniki tədbirlərin təşkil olunması nəzərdə tutulub.

## ƏDƏBİYYAT


1. AMEA-nın 70 illik yubileyinə həsr olunmuş Ümumi yığıncaqda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin irəli sürdüyü elmi prioritetlər haqqında / AMEA Rəyasət Heyətinin 18 noyabr 2015-ci il tarixli 17/1 nömrəli qərarı
2. "2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsinə dair Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında / Azərbaycan Respublikası Prezidentinin 11 mart 2016-cı il tarixli 1890 nömrəli Sərəncamı
3. http://president.az/articles/16703
4. http:// president.az/articles/11740
5. http://multikulturalizm.gov.az/xeberler/



*Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir – Qrant № EIF-2014-9(24)-14/14/5*


# НЕЙРОЭКОНОМИКА - НАПРАВЛЕНИЕ ИЛИ ОСНОВА?


***проф.Ф.М.Эфендиев***
***доц. И.А.Исламов***


"Какой напиток лучше - кока-кола или пепси?". Этот вопрос давал начало дискуссиям долгие годы. В 2004 году, Рид Монтегю, в Хьюстоне невролог Медицинского колледжа, наконец поставил точку на постоянных спорах.

Он ставил опыты на людях и обнаружил, что добровольцы-дегустаторы не чувствуют какой-либо разницы между вышеупомянутыми напитками когда предлагается им кола или пепси в стаканах без маркировки (схожих по цвету, по вкусу и запаху). Но, когда эти напитки наливали из бутылок с соответствующей этикеткой, почти все единогласно признавали, что кола намного вкуснее.

Спустя году, Монтегю повторил эти же эксперименты, но уже голова дегустатора находилась в специальном аппарате - ядерно-магнитном томографе, который показывал активность центров мозга в момент принятия решения (к усиленно работающим участкам мозга приливала кровь, и это было видно на мониторе). Во время эксперимента, если дегустатор знал, что стакан был с колой, то активировались зоны, которая была связанна с позитивными мыслями, приятными воспоминаниями и эмоциями. Вероятней всего происходило это за счет воспоминаний о рекламе данного напитка. То есть, грубо говоря, компания "Кока-кола" за счет агрессивной рекламы внедрило в мозги положительный образ своего напитка.

Другой невролог Стэнфордского университета, Брайан Натсон при помощи компьютерного томографа исследовал происходящие и мозгу процессы во время выбора того или иного товара в магазине. Головы тестируемых добровольцев окружали датчиками томографа, а затем показывали изображения различных и их цену и просили и конечном счете сказать, купили бы они этот товар или нет.

Из этих и других подобных опытов и Швейцарии, и Университете Базеля, возникла целая новая наука - нейроэкономика, анализирующая процессы, происходящие в головном мозге при принятии экономических решений. Нейроэкономика позволяет нейробиологам, экономистам, психологам, менеджерам, а также представителям других

дисциплин создать единую принятия решения человеком и получить более глубокие представления о данных механизмах.

Нейроэкономика - молодая междисциплинарная область, бросающая вызов многим привычным воззрениям экономистов, психологов и юристов.

Нейроэкономика рассматривает не только фундаментальные, но и прикладные аспекты поведения человека. Данная дисциплина изучает такие вопросы как предсказание решений человека по активности его различных центов мозга, объясняет иррациональность нашего поведения эволюционными особенностями мозга, показывает перспективы экономики.

Нейроэкономика ставит своей основной целью изъяснить эволюционные основы поведения людей, раскрыть роль эмоций и мыслительного контроля во время принятия решений, разъяснить механизмы социальной кооперации и соревнования между людьми, исследовать нейробиологические механизмы социального влияния на наши действия. Кроме того появилась и практическая ветвь нейроэкономики - нейромаркетинг, обещающая вынудить покупателя выбрать тот или иной товар.

Принцип данного направления основан на воздействии рекламой какого-либо товара прямо на определенные участки человеческого мозга.

В настоящее время нейроэкономисты выделяют четыре основных метода нейроэкономики:

1. неинвазивный метод - изучение функциональной магнитно-резонансная томографии (ФМРТ) и транскраниальной магнитной стимуляции мозга.

2. инвазивный метод - изучение регистрации активности нейронов животных, исследование пациентов с нарушениями нервной системы.

3. биохимический и генетический (молекулярно-биологические) методы исследований - изучение влияния генов и гормонов человека на принятие решений.

4. поведенческий метод исследования лабораторных животных и человека - сравнительные исследование процессов принятия решений у человека и животных.

В целом же, нейроэкономика стремиться изучать механизмы принятия решения не только на социальном уровне, а также и на других уровнях сложности, таких как генном, нейрональном, структурно-анатомическом, функциональном и организменном.

## ЛИТЕРАТУА


1. Bechara A., Damasio A. The Somatic Marker Hypothesis: A Neural Theory of Economic Decision // Games and Economic Behavior. 2005 . № 52. P. 336-372.

2. Bogacz R. Optimal decision-making theories: linking neurobiology with behaviour // Trends in Cognitive Sciences. 2007. № 11. P. 118-125.

3. Campbell-Meiklejohn D.Roepstroff A.Dolan, R.C.F. How the Opinion Others Affects Our Valuation of Objects // Current Biology. 2010. № 20. P. 1165-1170.


# MƏHƏMMƏD İQBAL FƏLSƏFƏSİNDƏ MƏNLİYİN TƏRBİYƏ OLUNMASI MƏSƏLƏSİ


**Nurlana Hüseyn**

***BDU-nun II kurs magistrantı***

nur_meryem@yahoo.com


XX əsrin böyük İslam mütəfəkkiri Məhəmməd İqbalın müasir fəlsəfə və elmin işığında inkişaf etdirdiyi, eyni zamanda Qurana və ənənəvi islam qaynaqlarına əsaslanan "Mənlik"

fəlsəfəsi müasir İslam təfəkküründə böyük bir mərhələ hesab olunur.

İqbala görə kainatdakı nizam-intizamın qaynağı mənlikdir. "Madam ki kainatın həyatı mənlik gücünə bağlıdır, o zaman həyat onun sağlamlığı ölçüsündə mövcuddur" [1].

İqbal fəlsəfəsində ən kiçik varlıqdan Allaha qədər hər bir varlıq mənlik sahibidir. Hər bir zərrədə mənliyin qüdrəti mövcuddur. Hər bir mənlik Allaha yaxınlaşa bildiyi zaman azadlığa qovuşur. Mənlik lazımi qədər inkişaf edərsə, "Mütləq Mən"i idrak edə bilər. İnsan mənliyi, varlıqda əbədiliyini davam etdirə bilmək üçün ilahi mənliyə yüksəlmək məcburiyyətindədir. İnsan "mən"i "Mütləq Mən" sayəsində öz mövcudluğunu qoruyub saxlaya bilir. "Mütləq Mən" təkdir, hər yerdə mövcuddur, ilk və sondur. Mütləq olmayan insan "mən"i dayanmadan Mütləq olana doğru can atır.

Məhəmməd İqbal "Mənliyin sirləri" əsərində mənliyin necə tərbiyə olunacağını, güclü bir mənliyin nələrə qadir olduğunu izah etməyə çalışmışdır. Həyatın dəyərini mənliyin qüdrətində görən, mənliyi tərbiyə etməklə kömürün almaza çevrildiyi kimi, insanın da həqiqi dəyər qazandığını qeyd edən İqbal bunun əksinə mənlikdən qafil olmağın isə köləliyə apardığını qeyd edir. Mənlik, başqasından bir şey istəməklə, qeyrilərinə möhtac olmaqla zəifləyər. Ümumiyyətlə, insan başqalarından hər hansı bir mənfəət gözləyərsə, aciz vəziyyətə düşər. Buna görə İqbal insanlara minnət qazanmamaqları mövzusunda xəbərdarlıq edir:

"Ey aslanlardan xərac alan, ehtiyacdan dolayı tülkü mizaclı olmusan.

Sənin yaraların kasıblıqdandır. Dərdinin səbəbi bu xəstəlikdir.

Ömər kimi dəvədən özün en. Əsla başqasına minnət borcun olmasın, əsla!" [2]

İqbala görə insan Allaha yaxınlaşaraq öz mənliyini İlahi mənliyə bənzətməyə çalışmalıdır. Dini terminlə desək, Allah

əxlaqı ilə əxlaqlanmalıdır. İnsan Allahla qurduğu münasibətin içində fərdiyyətini itirmir. Mütəfəkkirə görə Allahın nuru insanın şamını söndürəcək yerdə daha da qüvvətləndirir. İnsan Allahı tanımadan əvvəl özünü, mənliyini tanımalıdır.

"Aləm, insanın varlıq aləminə çıxması ilə ağıl, eşq və azad iradəyə sahib dəyərli bir varlığa qovuşmuşdur" deyən İqbal hər bir insanı azad şəxsiyyət kimi görür. Hər insan öz "mən"ini inkişaf etdirməli, gücləndirməli, bu yolda isə üç önəmli xüsusa diqqət etməlidir: ilahi qanuna tam itaət və təslimiyyət, nəfsi özünə tabe etmək, ilahi vəkillik. "Mənliyin sirləri" əsərində bu üç mərhələ qeyd olunmuşdur. İqbala görə itaət varlığın və tərbiyənin şərtidir. Nəfs tərbiyəsində ikinci mərhələ nəfsin zəbtidir. Mənliyin inkişafı üçün nəfsə ciddi nəzarət çox vacibdir. İqbal bir fikrində "Öz nəfsinə hökm edə bilməyən insan başqalarına qul olar" deyir. Mütəfəkkirə görə İslamın şərtləri olan tövhid, namaz, oruc, həcc, zəkat kimi ibadətlər nəfsin tərbiyəsində vacib amillərdir. Nəfsin tərbiyəsindəki üçüncü mərhələ Allaha xəlifə olmaqdır. İnsan Allah tərəfindən dəyər verilən, seçilmiş varlıqdır. İnsan öz mahiyyətini dərk etsə varlıq mərtəbələrinin ən yuxarı pilləsində olduğunu görər.

## ƏDƏBİYYAT

1. İkbal M. İslami benliğin içyüzü, (trc. Ali Yüksel) Ankara, 2012, sh 28

2. Dedeler Sinan. Muhammed İkbal düşüncesinde merkezi temaların analizi, ego-aşk-tanrı. İsparta, 2010, sh 36

# ALEKSANDR L. ÇİJEVSKİNİN KOSMİZMİ VƏ ONUN FƏLSƏFİ MAHİYYƏTİ

***Sürəyya Həsən qızı Səfərova***
***BDU-nun Fəlsəfə kafedrasının doktorantı***
**sssurayya@gmail.com**

***Açar sözlər:*** Kosmos, kainat, günəş sistemi, biosfer, elektromaqnit dalğaları.

***Ключевые слова:*** Космос, вселенная, солнечная система, биосфер, электромагнитные волны.

***Keywords:*** Cosmos, universe, solar system, the biosphere, the electromagnetic waves.

Yer planeti üzərində mövcud həyatın və buradakı hər bir hissəciyin başqa bir hissəcik və hadisələrlə bağlı olması və ya qarşılıqlı təsir imkanın olması günümüzdə normal qəbul olunan və təəccüb doğurmayan bir yanaşmadır. Müasir elm bununla kifayətlənməyərək , yer planetinin onu əhatə digər planetlərlə və kəhkəşanda baş verənlərlə bağlılığını ortaya çıxarmışdır. Bu bağlılığı və bundan irəli gələrək yaranan məqamları araşdıranlardan da biri də Rus Kosmizminin nümayəndəsi Aleksandr. L.Çijevskidir.

Bizim başlıca məqsədimiz Aleksandr L. Çijevskinin Yer və Kosmosun qarşılıqlı bağlılığını ifadə edən və bunun nəticəsində formalaşan kosmoloji fikirlərini nəzərdən keçirmək və əldə olunan nəticələri bölüşərək qənəatimizi bildirməkdir.

Çijevskinin kosmoloji fikirlərini araşdırmağı aktual edən vacib məqam var:

- O, insanın mövcud olduğu kainatla sıx əlaqəli olduğunu və burda baş verən hər bir dəyişiklikyin insana, cəmiyyətə və yer planetinə təsirsiz ötüşmədiyi qənaətinə gəlmiş və bunu sübuta yetirmişdir. Bu kontekstdən olan fikirlərini öyrənməklə

üzləşə biləcəyimiz təsirlərdən müvafiq həllər tapa bilər, əlverişsiz təbii və sosial şərtlərdə insanların fiziki və psixi sağlamlağını qorumaq üçün tədqiqatlarına əsaslanaraq təklif etdiyi tövsiyələri ilə insanın yer üzərindəki həyatını hifz edə, həmçinin yeniliklərlə canlanan elmi və fəlsəfi təfəkkürü genişləndirə bilərik.

Qeyd etmək lazımdır ki, Aleksandr L.Çijevskinin elmi-fəlsəfi fəaliyyəti biosfer haqqında təbii-elmi təlimin hazırlanmasına, aeroinlaşdırma, kosmobilogiya və mikrobiologiya sahələrində yeni, tədqiq edilməli məsələlərin yaranmasına gətirib çıxarıb.

"Bizi hər tərəfdən əhatə edən ətraf mühitin – təbiətin fiziki-kimyəvi amillərinin sayı intəhasız və keyfiyyəti son dərəcə müxtəlifdir. Güclü qarşılıqlı təsiri olan qüvvələr kosmik məkandan qaynaqlanır. Günəş, ay,planetlər və sonsuz sayda göy cisimləri Yerlə görünməyən bağlarla bağlıdır.Yerin hərəkəti cazibə qüvvəsi ilə idarə olunur, bu isə planetimizin çəkisiz, maye və sərt səthində bir sıra deformasiyalara səbəb olaraq onların pulsasiyaya, qabarmağa məcbur edir. Planetlərin günəş sistemindəki vəziyyəti Yer üzərində elektromaqnit qüvvələrinin və gərginlyin paylanmasına təsir edir.

Amma Yer üzərində fiziki və orqanik həyata daha çox kainatın hər bir nöqtəsindən istiqamətlənən radiasiyalar təsir göstərir. Onlar Yerin xarici hissələri ilə kosmik mühiti bir-birinə bilavasitə bağlayır, doğmalaşdırır və daima qarşılıqlı təsirdədirlər, ona görə də Yerin zahiri tərəfi və onu əhatə edən həyat kosmik qüvvələrin yaradıcı təsirinin nəticəsindən ibarətdir" [2, səh 10].

Bu fikirləri analiz etdikdə bəlli olur ki, Çijevski kainatı bir bütov kimi görür və kəhkəşandakı bütün göy cisimlərinin yerlə qarşılıqlı təsirdə olduğunu , bu təsirin atomlar, ionlar səviyyəsində reallaşdığını qəbul edir və okeanın dərinliklərindəki hissəciklərə qədər hər bir orqanizmin kosmik

təsirlərdən enerji aldığını vurğulayır. Çijevski bu təsirləri təkcə günəşin təsiri kimi mütləqləşdirmir, elektromaqnit dalğaların radiasiyaların yaratdığı effekti də ətraflı təhlil edir, insan və cəmiyyətdə, ümumilikdə canlı orqanizmədə həmin təsirlərin səviyyəsini müəyyən edir. Amma qətiyyən bu baş verən hər hansı bir hadisənin səbəbi günəşdən qaynaqlanır kimi qəbul olunmamalıdır, çünki günəşin dövri fəaliyyəti planetdəki orqanizmlərin inkişaf və artma intensivliyinə təsir edir və mövcud hər hansı bir epidemiyanın yayılma sürətinin yüksəlməsinə kömək etmiş olur.

"Günəşdəki sarsıntıların insanın ürək-damar, sinir sitemi və digər sistemlərinə, həmçinin mikroorqanizmlərə bilavasitə təsir etməsi statistik olaraq tərəfimizdən təyin edilmişdir. Amma məlum qanunauyğunluqlarla bu hadisələrin varlığını məhdudlaşdıra bilərikmi ? Qətiyyən xeyr". [2, səh 12].

Ümumi ölüm halının dinamikasını araşdırarkən Günəşin fəaliyyəti ilə ölüm halı arasında parallel aşakara çıxarıb. Belə ki , alim xəstə orqanizmi davamlı tarazlıqdan çıxmış orqanizm kimi nəzərdən keçirərək qeyd edir ki, ölümün baş verməsi üçün əhəmiyyətsiz kiçik bir qığılcım, bu davamsızlığın orqanizmin sonu olmasına gətirib çıxara bilər.

Beləliklə də, günəşin dövri fəaliyyətini Çijevski həmin vaxta təsadüf edən epidemiyaların təzahürlərində bir tənzimləyici rolunda qəbul edir.

## ƏDƏBİYYAT


1. Məmmədov Ə. Bəşirov R. Müasir təbiətşünaslığa konseptual yanaşma. - B:."Elm", - 2001. -757 s.
2. Чижевский А.Л. Земное эхо солнечных бурь. - М.: 1976. - 367 с.
3. Чижевский А.Л. На берегу веселенной: Годы дружбы с Циолковским.Воспоминания. – М.: Мысль,1995.-715 с.

4. Е. Ю. Смотрицкий, В. И. Шубин, С.П. Рудая. А.Л.Чижевский и философия русского космизма. - http://vasiliy-shubin.narod.ru/text/0054-Pub-Shu-Chizhevskiy-Russ-Kosmizm.html

## Заключение

В данной работе мы имели обзор философской мысли А.Л. Чижевского и в этом направлении выяснили ниже указанные моменты :

- Земля и каждый живой организм находящиеся на ней взаимосвязаны с космосом, и эта связь имеет свои неизвестные стороны.
- Солнце и импульсы электромагнитных волн влияет на жизнь людей и на процессы, которые в данный момент происходит в обществе.
- Смертность связана с организмом, который находится под влиянием космоса и готов принять смерть. То есть уровень смертности зависит от реакции организма на воздействие.

## Summary

In this thesis we had an overview philosophical thoughts A.L.Chizhevskogo and in this direction found below mentioned points:

- Earth and every living organism are on it are interconnected with the cosmos, and this relationship has its unknown side.
- The sun and the pulses of electromagnetic waves affect the lives of the people and the processes that are currently going on in society.
- The Mortality is associated with the organism, which is influenced by space and is ready to accept death. That is the death rate depends on the reaction of the organism to impact.

# MİSTİSİZMİN ÜMUMİ MAHIYYƏTİ VƏ TƏŞƏKKÜLÜ

***Babazadə Günel Ramiz qızı,***
***BDU-nun II kurs magistrantı***
***gunel.babazade.1992@mail.ru***

Mistisizm latın sözü “misticus” sözündən götürülmüş, mənası “gizli, sirli” deməkdir. Düşüncə forması olaraq tarixi daha keçmişə dayansa və müxtəlif mədəniyyətlərdə geniş olaraq yayılsa da, termin olaraq miladi təqvimin beşinci yüzilində Mistik İlahiyyat (Theologie Mystique) adı altında müəllifi bəlli olmayan, miladın ilk dövrlərində yaşamış olan Müqəddəs Denisin adını daşıyan əsərlərdə istifadə olunmuşdur (1). XII əsr Qərb-xristian dünyasında (S.Bernard 1091-1153, Müqəddəs Viktor 1096-1141 və başqaları vasitəsilə) bir sistem olaraq formalaşmış və XVIII əsrdən etibarən də tez-tez istifadə edilməyə başlamışdır. İslam dünyasında VIII əsrdə təsəvvüf adı altında ortaya çıxmış və sonralar bu termin qərb mütəfəkkirləri tərəfindən mistisizm olaraq tərcümə edilmişdir. Mistisizm bir biliyi əldə etmə yolunu, psixoloji təcrübəni, bu təcrübəni həyata keçirən şüuru və şüur vəziyyətlərini göstərən, Mütləq Varlığı (Tanrını) varlığın əsası və təməli qəbul edərək, fərdin onunla birbaşa ünsiyyət qurabiləcəyini qəbul edən, bu məqsədə çata bilmək üçün bir sıra davranış və hərəkətləri mənimsəyən və bütün bunların “sevgi” və “ilahi eşq” ilə həyata keçirilə biləcəyinə inanan cərəyanları ifadə edən bir termindir. Mistisizmdə bilik fərqli formada əldə olunur. Bu baxışa görə, duyğuların, hər cür sözün, nəqlin və ağlın ötəsində bir bilik növü vardır. Fərdin öz ruhunda və özü üçün reallaşan bu biliyə gizli, sirli və görünməyən aləmdən gələn mənasını daşıyan “mistik bilik” deyilir. Digər biliklərdən daha üstün olan bu bilik “dəqiq və həqiqi bilikdir”.

Mistik biliyə çatmaq üçün fərd mistik yoldan keçməlidir. Bu yol “daxili təcrübə” adlanan “mistik-ruhi təcrübə”yə

əsaslanır. Fərd gözünü bu dünyanın nemətlərindən çəkərək, öz daxili dünyasına çevrilir və ruhunun dərinliklərinə dalaraq ekstaz vəziyyətinə çatır ki, bu vəziyyət də onu başqa bir dünyaya keçirir. Məhz burada o bütün həqiqətləri açıq-aşkar görmək imkanına malik olur. Daxili təcrübə deyilən vəziyyətdə şüur müxtəlif hallar göstərir. Bu zaman insan ruhu özünün ilkin heyvani vəziyyətindən ilahi vəziyyətinə qədər pillə-pillə yüksəlir. Onun əsas məqsədi vahidliyə çatmaqdır. Ruhun göstərdiyi müxtəlif halların birincisində o, mücərrədləşdirmə əməliyyatını yerinə yetirir. Zahiri dünyaya xas olan hər şeyi-bilik ünsürlərini, formalarını, təsəvvürlərini, onları biliyə çevirən əqli fəaliyyətləri və s. ağlında çıxardır və daxilini boşaldır. Buna təmizlənmə (purification) deyilir [3].

İnsanı mistik təcrübəyə yönəldən iki səbəb vardır. Bunlar pozitiv və neqativ səbəblərdir. Neqativ səbəb odur ki, insan istər duyğu, istərsə də ağıl vasitəsilə həqiqi bilik ala bilməyəcəyinə inanır, bu yollarla əldə edilən biliyə şübhə ilə yanaşır və bu səbəbdən də mistik biliyə can atır. İkinci, yəni pozitiv səbəb isə odur ki, insan həyatı boyunca yeni biliklər əldə etmək istəyir və müəyyən bir zamandan sonra duyğu və zəka vasitəsilə əldə etdiyi biliklərin kifayət etmədiyini görür və onları artırmaq üçün mistik biliyə yönəlir.

İstənilən mistik cərəyan mənsub olduğu mədəniyyətin və dinin xüsusiyyətlərini mənimsəyərək önə çıxır. Pifaqor, Platon, Filon, Plotin, İbn Sina, Sührəvərdi əl-Məktül, Paskal və bir çox başqaları onun fəlsəfi əsasını, Mühasibi, İbn əl-Ərəbi, Qəzali, S.Bernard, Müqəddəs Viktor və s. isə dini mənbəyini təmsil və təşkil edirlər [2]. Məhz bu səbəbdən hər mədəniyyət və ya dində özünü göstərən mistisizm digərlərindən fərqlidir. Hind və Xristian mistikası bir-birindən nə qədər fərqlidirsə, İslam mistikası (Təsəvvüf) də digərlərindən eyni dərəcədə fərqlidir. Müasir dövrdə mistisizm ilə fəlsəfə arasındakı ziddiyyətin əsasını müasir fəlsəfədəki təbiət elmlərindən təsirlənən məktəblərin baxışları təşkil edir.

## ƏDƏBİYYAT


1. Reynold A. Nicholson – The mystics of Islam, London, 1914.
2. Mistisizm ve mistisizmin özellikleri. http://hakantokbas.blogcu.com
3. Mistisizm nedir? http://www.golgelerkitabi.com
4. Fəlsəfə, mistika, siyasət və ədəbiyyat. https://kitaboxu.wordpress.com


## TARİXİ PROSESİN İZAHINDA MÜQAYİSƏLİ TƏHLİL METODU


***Camalova Vəfa Əliziya qızı***
***BDU-nun qiyabi doktorantı***
***seneka_88@mail.ru***


Tarix keçmişi sorğulamaq, müəyyən zaman kəsiyində baş verənləri anlamaq, həmçinin, gələcəyə doğru istiqamətlənmək üçün əhəmiyyətli elm sahələrindəndir. Cəmiyyətdəki hadisələri, faktları gerçək spesifikliyi ilə anlamaq lazımdır. Bunu təmin edəcək metod isə müqayisəli təhlil üsuludur. Müqayisəli təhlil üsulu qədim çağlardan günümüzədək digər elm sahələrində də uğurla tətbiq olunmaqdadır. Müqayisəli tarix nədir? Tezisimizin mövzusu bu məsələnin təhlili təşkil edəcək. Müqayisəli tarix hazırkı dövrdə cəmiyyətdə baş verən hadisələri, prosesləri mənalandırmağın ən əhəmiyyətli metodlarındandır. Lakin bu metodun da özünəməxsus tələbləri vardır və tədqiqatçı lazımi nəticəyə nail olmaq üçün onlara riayət etməlidir. Ümumiləşdirmələrin təşkil edilməsi, səbəblərin, şərhlərin araşdırılmasında zaman əlaqəsi, müqayisə edilən vahidlərin təyin olunması, dəlillərin istifadə edilməsi müqayisə etmənin ən diqqqətə çarpan problemlərindəndir. Müqayisəli metod tarixə yenidən, daha dərindən baxış üsulu

olub onu təşkil edən hadisə və proseslərin doğruluğunu yoxlamaq üçün optimal variantdır.

Tarixin mənalandırılması fərqli coğrafiyalar, faktlar, təşkilatlar və bir çox başqa ünsürün sanki təsdiqlənməsi, başa düşülməsi, sual və təhlillərlə qarşılıqlı təsirinin ortaya çıxarılmasıdır. Tarixi proses və hadisələrin şərhi, gələcəkdə baş verənlərin izahı, heç şübhəsiz, hər zaman müqayisə obyektidir. Bu baxımdan yanaşdıqda komparativ metod hər bir tədqiqatçının araşdırmalarında ən vacib amildir. Tarixçi üçün tədqiqat mövzusunu təyin etmək, başlanğıcda var olan az məlumatla yola çıxmaq, çoxalan bilikləri təsnif etmək təməl elmi prinsiplərdir. Tarixi proseslərin müqayisəli təhlili ənənəsi Annales məktəbinin adıyla bağlıdır. Marc Bloch və Lucien Febvre 1929-cu ildə Annales jurnalını çıxardılar. Onlar tarixi prosesi izah edərkən yalnız iqtisadi, ictimai, mədəni hadisələri, coğrafi məkan və zaman kimi amilləri əlahiddə götürmədilər. Annales məktəbinin ardıcılları tarixə tam, kompleks yanaşmaya üstünlük vermişlər. Onlar tarixin uzun müddət davam edən ənənəvi mənalandırılmasından kənara çıxaraq elmi ədəbiyyata qlobal tarix və regional tarix ifadəsini daxil etdilər. Bu məktəbin məşhur simalarından olan Marc Blocha görə tarix ictimai dəyişmələri elmi təməllərlə, tutarlı faktlarla şərh edən elm sahəsidir.

Cəmiyyətdə baş verən istənilən dəyişikliyin izahında tarixin rolu böyükdür. Tarixi proseslər arasındakı qarşılıqlı əlaqəni anlamaq və işlərin nəticəsinin məhsuldar olmasını təmin etmək üçün tarixçilər eyni zamanda bir sosioloq, hüquqşünas, psixoloq kimi davranmalıdırlar. Bu fikri Annales məktəbinin digər üzvləri=Febvre və Braudel də müdafiə etmişdir. Hətta Braudel "Aralıq dənizi dünyası" adlı əsərində tarixin divarlarla bağlanılmış bağçaları araşdırmaqdan daha çoxunu edə biləcəyini sübut etmək üçün fərqli bir yaradıcılıq işini ərsəyə gətirməsini xüsusi vurğulamışdır. Marc Bloch isə cəmiyyətdən uzaq olan bir tarixin varlığını qəbul etmir. Eyni zamanda o,

tarixdən ayrı olan cəmiyyət quruluşunun analizinin də əskik olduğunu hesab etmişdir. Tarixin müqayisəli təhlili hazırda tədqiqatçılara lazım olan informasiyanı sistemləşdirməyin ən optimal üsuludur. Tarixə biryanlı yanaşma yəni, onun ya millilik, ya qlobal baxımından izahı birtərəflidir və bu, tarixçini geniş təhliletmə bacarığından məhrum edir, yeni araşdırmaların yaranmasına sədd çəkir. Müqayisəli təhliletmə metodu tədqiqatçıya fərqli coğrafi məkanlarda baş verən hadisələri, prosesləri izah etməyə və müxtəlif xalqların, regionların mədəni irsi, inancları, mənəvi dəyərləri ilə tanış olmağa imkan yaradacaqdır. Həmçinin tarixçi müxtəlif ölkələrdə cərəyan edən prosesləri təhlil etməklə öz xalqının sahib olduğu tarixin, dəyərlərin fərqinə varacaq, onun müsbət tərəflərini özü üçün aşkarlayaraq faktlara şüurlu , tənqidi yaxınlaşa bilmə imkanına sahib olacaqdır.

Qloballaşan dünyada cəmiyyət davamlı dəyişən, çevrilən və fərqliləşən bir quruluşa malikdir. Bu baxımdan cəmiyyəti anlamaq üçün tarixdən faydalanmaq və keçmişin doğrularını, səhvlərini analiz edərək nəticə çıxarmaq lazımdır. Gələcəyi planlamaq üçün tarixdən bəhrələnmək faydaverici olacaq.

## ƏDƏBİYYAT

1. Erich Rothacker, *Tarihsellik Sorunu,* Gündoğan Yay., Ankara, 2008.

2. Nedim Yalansız . "Karşılaştırmalı Tarih: Tarih Öğretiminde Yeni Bir Yaklaşım ; Comparative History: A New Approach in the History Teaching", *Uluslar arası Sosyal Araştırmalar Dergisi,* 2/9 (Fall) 2009.

3. Burke Peter, Annales Okulu, çev. M. Küçük, Doğu Batı: Ankara 2006.

# İNFORMASİYALAŞMA QLOBAL TEXNİKİ İNKİŞAF KONTEKSTİNDƏ

***Əli Vəli oğlu Həziyev***
***BDU-nun doktorantı***

***Açar sözlər:*** virtual reallıq, informasiya cəmiyyəti, kiberməkan
***Keywords:*** virtual reality, information society, cyberspace
***Ключевые слова:*** виртуальная реальность, информационное общество, киберпространство

Bu gün cəmiyyətdə gedən intensiv texnikalaşdırma və informasiyalaşdırma fonunda insan–texnosfera sistemindəki dəyişikliklərə fəlsəfi yanaşmanın işlənib hazırlanmasına zərurət yaranmışdır. Elm və texnikanın fəlsəfəsində, cəmiyyətin informasiyalaşdırılması problemi şəxsiyyətin inkişafında texnikanın rolunun araşdırılması ilə üzvi surətdə bağlıdır.

İnformasiya kommunikasiya texnologiyalarının yaratdığı virtual reallıq (latınca "virtus" sözündən götürülmüşdür) müasir Qərb mədəniyyətində dörd mənada - əxlaqi dəyər kimi (ingilis dilində ləyaqət, səxavət deməkdir); aktual olan reallıq; artefakt; qeyri-real, xəyali reallıq kimi başa düşülür [6, 81]. Əslində, kompüter virtual reallığının texnologiyaları süni intellekt yaradılması cəhdlərindən meydana çıxmışdır. Bu sahədə ilk cəhdlər "insan beyinsiz düşünə bilmir, ancaq insansız düşünəcək beyin yarada bilər" fikrinə əsaslanaraq başladılmışdır. Lakin hazırda kompüter texnologiyalarının inkişafı fərqli yolla getmişdir. Mikroprosessor texnikasında və digər sahələrdə əldə edilmiş nailiyyətlər sayəsində insan və ya onun tərəfindən proqramlaşdırlmış kompüterin ayrılıqda yerinə yetirə bilmədiyi əməliyyatları həyata keçirə bilən insan və kompüterin konvergensiyası – konqlomeratı yaradılmışdır. Bu

əməliyyatların icra yeri qrafiki, akustik, plastik və s. xüsusiyyətlərə malik kompüter virtual reallığı oldu.

1991-ci ildə ingilis alimi Tim Berners-Linin kəşf etdiyi internet dünyanın müxtəlif nöqtələrində yerləşən minlərlə kompüter şəbəkəsini birləşdirən ümumdünya kompüter informasiya şəbəkəsidir. O, dövlət sərhədləri bilməyən, coğrafi məsafədən asılı olmayaraq, operativ və etibarlı informasiya mübadiləsini təmin edən, böyük sürətlə yeniləşən virtual informasiya məkanı, rahat və əlverişli ünsiyyət vasitəsidir. İdeya etibarilə hələ 1969-cu ildə M.Kryukeqor tərəfindən bütöv reallıq olaraq irəli sürülmüş "kiberməkan" termini süni reallıq kimi kompüter texnologiyalarının inkişafı ilə öz təsdiqini tapmışdı [4, 111-112].

İkinci reallığa olan marağın sosial-fəlsəfi və sosial-praqmatik tərəfi ondan ibarətdir ki, müasir insanın informasiyadan asılılığı artmış və ətraf aləmi virtual ekrandan müşahidə etməklə baş verənlər barədə məlumat almağa məcbur bir hala gəlmişdir. Kompüter və digər texniki sistemlərin vasitəsilə hiss və qavrayışların mahiyyətcə yeni, informasiya ötürülməsi və qəbulunun xüsusi vasitələrinin hazırlanması ilə bəşər övladı proqramçının yaratdığı gerçəkliyin oxşarı olan bir dünyaya daxil olaraq həmin dünyanın həm müşahidəçisi, həm də fəal iştirakçısına çevrilir.

Müasir insan müxtəlif ideyaları təşviq edən informasiya mühiti ilə yüklənir, dünyanı ani anda ("on-layn") qavrama və mədəni prosesdə interaktiv (qarşılıqlı əlaqədə) iştiraketmə imkanı qazanır, onun dərketmə sərhədləri daim genişlənir. Bugün sosial texnoloqlar tərəfindən ictimaiyyətin reaksiyasını öyrənmək üçün təhrif olunmuş informasiyalar virtual ekrana məqsədli şəkildə ötürülür. Bu barədə Akademik Ramiz Mehdiyev yazır: "Texniki tərəqqinin nəticəsində dövlət də vətəndaşa nəzarəti artıra bilir. Kompüterlər vətəndaşların istənilən addımını izləməyə imkan yaradır. Kütləvi informasiya vasitələri insanların hiss və həyəcanlarından bacarıqla istifadə

etmək və onların şüurlarını standartlaşdırmağa imkan vermiş olur” [5, 227].

Görkəmli alman filosofu Karl Yaspers fenomenologiyasına əsaslanaraq ekzistensializm paradoksal nəticəyə gəlib çıxır. Belə ki, cərəyan nümayəndələrinə görə, texniki kommunikasiya vasitələrinin inkişafı ilə tənhalıq, pərişanlıq kimi hisslər daha da dərinləşir, qabarıqlaşır. Beləliklə, insan real həyatdan qaçdıqca gerçək cəmiyyətə yadlaşır. Tədricən insanların şüuru, həyata baxışı dəyişir, onda əsas yeri gerçəklikdəki proseslərin əksi olan virtual dünyadakı hadisələr, uydurma obrazlar tutmağa başlayır və ətraf aləmə qeyri-adekvat cavab verir.. İnsan öz nəfsi ilə mübarizədə çətinlik çəkir və tamamilə fiziki hisslərin ağuşunda əriyir. Artıq bu asılılıq –“internetomaniya” üzündən ölüm halları da müşahidə edilir. Məsələn E.Kastronova hesab edir ki, buna səbəb virtual aləmin daha əyləncəli və macəralı olmasıdır [3, 176]. Gənc nəslin maraq mərkəzində olan virtual oyunlar da onların tərbiyəsində, ailə münasibətlərində təsirsiz ötüşməyir. Belə ki, hazırda 6 yaşdan yuxarı uşaqlar üçün nəzərdə tutulmuş virtual döyüş oyunları onlarda zorakılıq, aqressiya və qəddarlıq hisslərini təlqin edir. Belə oyunlarda əsas vəzifə öldürmək və buna görə mükafat almaqdır. Əslində, “kompüter nəslinin”şüurunda həqiqi gerçəkliklə süni gerçəklik arasında fərq yoxdur. Məhz bunun nəticəsidir ki, müxtəlif ölkələrdə orta məktəblərdə şagirdlərin qətl törətmələrinin şahidi oluruq. Məsələn 1999-cu ildə ABŞ-də orta məktəbdə 11 nəfəri odlu silahdan qətlə yetirmiş iki şagirddən biri “DOOM” oyununun nəinki fəal oyunçusu, həm də onun yeni səviyyələrini işləyib hazırlayan olmuşdur [2, 183]. Bu, onu göstərir ki, oyunlar vasitəsilə həyata keçirilən zorakılıqlar insanlar üçün həmin əməlləri adiləşdirir və cəlbedici edərək “olmaz”ları dağıdır.

Fikrimizcə, yuxarıda göstərilənlərə rəğmən, mənfi tendensiyaların qarşısını almaq mümkündür. İnsanı gerçək həyata yalnız onun məşğulluğu, mənəviyyatı bağlaya bilər.

Yəni öz enerjisini bu və ya digər faydalı istiqamətdə sərf etsə, neqativ virtual vərdişlərə cəlb edilməyəcəkdir. Bu baxımdan Z.Freydin iradə barədə məcazlarından at və atlı misalını göstərmək olar. O, qeyri-iradi şüuru at, şüuru isə atlı adlandırır. At sakit dayandığı halda, atlıya tabedir və hər şey öz qaydasındadır. Lakin at yüyəni çeynəyib qırsa, atlı atın onu apardığı istiqamətdə hərəkət etməyə məcburdur [1, 505]. Fikrimizcə, yeni texnologiyanın üstünlüklərindən də rasional bəhrələnilməlidir.

Tədqiqatçıların qənaətincə, İKT sahəsi gələcəkdə iqtisadiyyatın əsas hərəkətverici qüvvəsinə çevriləcəkdir. Deməli, digər zərərli sahələrə (hərbə) yatırılan sərmayələr getdikcə öz yerini kommunikasiya vasitələrinə verəcək ki, bu da kiçilən Yer kürəsinin daha təhlükəsiz olmasına ümid verir.

## ƏDƏBİYYAT


1. Zeynalov M.B., Fəlsəfə tarixi.// Bakı: 2000, 542 s;
2. Гафнер В.В., Информационная безопасность //Ростов-на-Дону, Феникс, 2010, 324 с;
3. КастрановаЭ., Бегство в виртуальный мир // Ростов-на-Дону, 2010, 214 с;
4. МамчурЕ.А.,Теоретическая виртуалистика // Москва, Наука, 2008, 315 с;
5. Мехтиев.Р., Философия // Учебноепособие, Баку, 2009, 376 с; второеиздание.
6. НосовН.А., Фома Аквинскийи категория виртуальности // Виртуальная реальность. Философские и психологические проблемы. Москва, 1997, 187 с.

# PEDAQOGİKA BÖLMƏSİ

***Bölmə rəhbəri – prof.L.N.Qasımova***

## YENIYETMƏLƏRDƏ ÖZÜNÜ GÖSTƏRƏN NORMAL DAVRANIŞDAN KƏNARLAŞMANIN (DEVIANT DAVRANIŞIN) SIMPTOMLARI.

***Turac Ələkbər qızı Abdullayeva,***
***BDU-nun doktorantı***
**turac.a13@gmail.com**

"Çətin uşaq" termini ayrı-ayrı peşə sahibləri üçün müxtəlif mənalarda başa düşülür. Məsələn, polis üçün bu dələduz, müəllim üçün sinif yoldaşlarına pis təsir göstərən qeyri-rəsmi lider, uşaq baxçası tərbiyəçisi üçün səs-küylü, fəal, idarə oluna bilməyən uşaq və s. Valideyn üçün isə hər bir ailənin öz çətin uşaqları və öz problemləri olur. Elə davranış var ki, bir ailədə problem sayılır, digərində isə həyatın təbii qaydası.

"Çətin uşaq" davranışı cəmiyyətdə qəbul edilmiş standart və normalardan fərqlənən uşaqlara deyilir. M. Ratter qeyd edir ki, psixoloji çətinliklər, həmçinin müvəqqəti emosional pozuntular, davranış pozuntuları uşaqların əksərində olduqca çox rast gəlinir. Bu inkişaf prosesinin ayrılmaz hissəsidir. Nəzəriyyə və praktikada çətinlik qrupuna görə uşaqlar müxtəlif kateqoriyalara aid edilir. İstedadlı kimi tanınan, güclü keyfiyyətləri olan uşaqların da müxtəlif problemləri olur. Hiperaktiv uşaq da "çətin uşaq" sayıla bilər. Pedaqoq və psixoloqların diqqətini əsasən çətin uşaqların deviant davranışlı uşaqlar adlanan hissəsi cəlb edir.

Müasir elmi pedaqoji və psixoloji ədəbiyyatlarda (M.İ.Rojkov, M.A.Koval-çuk, V.Q.Bajenov, M.İ.Buyanov, V.Klayn, A.İ.Zaxarov və b.) uşaq və yeniyet-mələrin rəftar və davranışında müşahidə olunan normadankənar, qusurlu

davranışın bütün təzahürlərini "deviant davranış" adlandırırlar. "Deviant" davranış dedikdə insanın əməl və hərəkətlərinin onun yaşadığı cəmiyyətdə faktiki olaraq bərqərar olmuş norma və standartlara uyğunsuzluğu nəzərdə tutulur. Bir qrup alimlər deviant davranışın subyektləri sırasına gənc asketləri, inqilabçıları, qedonistləri (həyatda zövq-səfa ilə yaşamağı üstün tutanları), psixi xəstələri, müqəddəsləşdirilən şəxsləri, dahiləri və s. də aid edirlər.

Tibb, psixologiya və pedoqogika elmlərinin nümayəndələri davranış normalarından sapma (deviant) anlayışını müxtəlif cür təsnif edirlər.

Pedoqoji ədəbiyyatlarda "deviant davranış" anlayışı altında mövcud cəmiyyətdə, sosial mühitdə, yaxın ətrafda, kollektivdə qəbul edilmiş sosial-mənəvi normalardan, dəyərlərdən sapma, kənara çıxma, cəmiyyətdə gedən bir sıra proseslərdə (assimilyasiya, sosial normaların və mədəni dəyərlərin yenidən işlənməsi, özünü inkişaf etdirmə və özünü təsdiq etmə kimi proseslərdə) pozuntular kimi başa düşülür.

Tibbi ədəbiyyatlarda "deviant davranış" anlayışı altında mövcud cəmiyyətdə şəxslərarası qarşılıqlı münasibət normalarından sapma, kənara çıxma psixoloji patologiyanın müxtəlif formaları başa düşülür.

Psixoloji ədəbiyyatlarda "deviant davranış" sosial-psixoloji və mənəvi normalardan (V.V.Kovalyev) sapmaya deyilir. Başqa sözlə, konfliktin həllində yanlış antisosial nümunələr, ümumi rifaha, ətrafdakılara və özünə ziyan vurmaq kimi başa düşülür. Çətin uşaqların müəyyənləşdirilməsinin daha bir göstəricisi onların davranışının korreksiyasına və tərbiyəçilərin individual yanaşmasına və yaşıdlarının diqqətinə ehtiyacının olmasıdır (V.Q.Stepanov).

Normal və qeyri-normal davranış arasında dəqiq sərhəd mövcud deyil. Qeyri-normal davranışa normal insanlarda da rast gəlmək olar. Bu özünü müvəqqəti və keçici davranış kimi, bəzi insanlarda isə daha davamlı və daimi davranış kimi

göstərə bilər. Bu nöqteyi nəzərdən bütün qeyri-normal davranış formalarını üç qrupa ayıra bilərik:

1) Qısamüddətli və təsadüfi formalar: dilin sürüşməsi, səhv, huşsuzluq, sayıqlama, sərxoşluq və s.;

2) Uzun və davamlı vəziyyət: nevrozlar, psixozlar, ruhi xəstəliklərin bəzi formaları və s.;

3) Daimi ömürlük davranış defektləri (Vıqotskiy L.S. Pedoqoji psixologiya).

Psixiatr, psixoloq, sosioloq və başqa peşə sahiblərinə görə normal davranışdan sapmanın, kənarlaşmanın səbələrinin də çoxsaylı təsnifatı vardır. Normal davranışdan sapmanın, kənarlaşmanın ənənəvi səbəbləri iki qrupa bölünür:

- Psixi və psixofizioloji pozuntularla əlaqədar səbəblər;
- Sosial və psixoloji xarakterli səbəblər.

Yeniyetmə və gənclərə münasibətdə isə səbəblərin ayrıca qrupunu -yaş böhranı ilə əlaqədar səbəbləri fərqləndirmək lazımdır.

M.Rattera görə ciddi psixi sapmalardan uşaqların 5%-dən 15%-ə qədəri əziyyət çəkir. Buraya daha az qayda pozuntularını və epizodik xarakterli emosional pozuntuları əlavə etsək problemin aydın həcmini və mahiyyətini görərik. Bu uşaqların yalnız kiçik hissəsi psixiatra gedir. Bu cür diaqnozun bütün ömrü boyu ləkə kimi qəbul edildiyi ölkələrdə həkimə müraciət edənlərin faizi daha az olur (həmçinin Azərbaycanda). M.Ratter göstərir ki, problemin genişliyi bizə onun dərmanla, pedaqoqla, psixoloqla, sosial sahənin işçiləri ilə deyil, pediatr və mütəxəssislərin iştirakı ilə həllini tapmalıdır. Əlbəttə onlar diaqnoz qoya bilməz, lakin simptomları görə və məsləhət verə bilər, ehtiyac olduqda yeniyetmələrin valideynləri həkimə müraciət edə bilər. M.Ratter simptomlar arasından aşağıdakıları fərqləndirir:

- Uşağın davranışının normativlərə adekvatlığı, yaşına, cinsi mənsubiyyətinə uyğunluğu. Məsələn, yaxınlarından ayrılarkən təşvişə düşmək, həyəcan keçirmək balaca

uşaqlar üçün xarakterikdir, lakin yeniyetmələr üçün nadir haldır və buna görə də qeyri-normal davranışdır;

- Dilxorluğun uzun müddətli olması. Qısamüddətli qorxular, tutmalar, nəsə etməyə marağın, istəyin olmaması uşaqların əksərində olur. Lakin bu kimi halların uzunmüddətli olması normalardan kənarlaşma, sapmadır. Bu simptom yeniyetmələrin emosional vəziyyətinin dəyişkənliyinə də aiddir;
- Gündəlik davranışı ilə müqayisədə uşağın davranışında dəyişikliklərin görünməsi, xüsusilə də onun normal inkişafı, kamilliyi nöqteyi nəzərdən bu dəyişikliyin izahı çətindirsə;
- Simptomların ağırlaşması və tez-tez təkrarlanmağa başlaması. Məsələn, tutaq ki, valideynlər hesab edir ki, uşaqda gecə qarabasmaları ortaya çıxır. Əgər valideyn bunu uşağın sözünə əsasən deyirsə buna xüsusi diqqət yetirməməliyik. Əgər uşaq gecə yuxudan göz yaşları içində oyanırsa və bu təkrarlanırsa bu başqa;
- Əgər yalnız bir simptom mövcuddursa onda buna xüsusi diqqət yetirilməməlidir. Ancaq eyni vaxtda çoxlu simptomlar mövcuddursa və onlar psixi həyatın müxtəlif tərəfləri ilə bağlıdırsa bu başqa məsələdir.

Əlbəttə bütün sadalananlar uşağın yaşadığı, böyüdüyü mühitə uyğun olaraq qiymətləndirilməlidir. Cəmiyyətdə mövcud olan etnik, sosial, mədəni fərqləri başa düşmək çox vacibdir.

Bəzən davranış normalarından kənarlaşma probleminə psixiatrik yanaşma daha obyektiv hesab edilir. Belə ki, xarakterin vurğulanması konsepsiyası (A.Y. Liçko), yəni xarakterin müvəqqəti dəyişilməsi, yaşa dolduqca yumşalması və ya əksinə kəskinləşməsi daha geniş yayılıb. Lakin bu insana, onun davranışının səbəblərinə birtərəfli yanaşma olduğu üçün müstəsna yanaşma ola bilməz. Davranış normalarından kənarlaşmaya yalnız psixi anomaliya deyil, əksər alimlərin

hesab etdiyi kimi şəxsiyyətin onu formalaşdıran psixoloji xüsusiyyətləri səbəb olur.

## ƏDƏBİYYAT


1. Воспитание трудного ребенка. Дети с девиантными поведениями./Под ред. М.И.Рожкова М: «Владос», 2003,239 стр.
2. 2. Глинский Я.И. Девиантология – 2-е изд. исп. и доп. – СПЬ: М; Издательство Р. Асанова «Юридических центр Пресс», 2007, 528 стр.
3. Раттер М. Помощь трудным детям. М., «Педагогика», 1987, 246 стр.
4. Zəhra Moin Həsənqızı. Deviantizmin mahiyyəti və bəzi problemlərinin həllində din amili // Dövlət və din ictimai fikir toplusu. Bakı-2010, N6, səh.76-80

# SOSİOLOGİYA VƏ SOSİAL İŞ BÖLMƏSİ

***Bölmə rəhbəri – dos.T.Ağayev***

## ПОНЯТИЕ И СУЩНОСТЬ СОЦИАЛЬНОЙ ЗАЩИТЫ НАСЕЛЕНИЯ

***Рустамли Рияд Ариф оглы***
***магистрант II курса БГУ***
**riyadrustamli@yahoo.com**

Социальная защита населения-это словосочетание в наши дни у каждого на слуху, но необходимо чётко определить, что именно подразумевается под этим выражением. Начнём с определения. Как известно, социальная защита есть свойство любого объединения людей, целью которого является охрана и сохранение позиций каждого индивида в обществе. Наиболее эффективными объединениями, которые имеют возможность выполнять эти охранительные функции, являются, в первую очередь, государство и в меньшей степени профессиональные союзы. Для того чтобы успешно выполнять вышеназванные функции, необходимо обладать хорошими управленческими навыками. Таким образом, с уверенностью можно сказать, что социальная защита - это некий специфический вид управленческой деятельности, который базируется на таких принципах и методах социального управления, которые обеспечивают гарантированные Конституцией права и свободы всем гражданам современного государства. Использование этих принципов и методов, с одной стороны, предотвращают наступление рискованной ситуации, а с другой стороны, смягчают ее последствия, если риски осуществились на практике.

Важнейший принцип социальной защиты как специфического вида управленческой деятельности,-это всеобщность, т.е. социальная защита, гарантируется всем тем, кто попадает в ситуации риска с неблагоприятным исходом.

Социальная защита осуществляется за счёт государственных и местных бюджетов, специально создаваемых фондов социальной поддержки населения, негосударственных фондов. Социальная защита призвана обеспечить конституционные права и минимальные гарантии гражданину, необходимые для нормального воспроизводства и развития личности, независимо от ее места жительства, национальности, пола и возраста.

В узком смысле слова, под социальной защитой понимается «целенаправленная деятельность государства в лице его институтов, направленная на обеспечение достойных условий жизни и всестороннее развитие различных социальных групп граждан (инвалидов , пенсионеров, безработных, детей, ветеранов труда, и т.п.), с учетом воздействия негативных факторов и возможности их нейтрализации.Учет специфических особенностей каждой социальной группы непременное условие эффективности осуществляемой социальной работы.

Помимо главного принципа социальной защиты - всеобщности - принято выделять целый ряд иных основополагающих принципов социальной защиты, которые рассмотрены ниже.

Первый принцип - адресность - означает предоставление социальной помощи конкретным гражданам с учетом их индивидуальных потребностей. Реализация указанного принципа предполагает выделение определенных критериев, в соответствии с которыми предоставляется социальная помощь.

Принцип использования дифференцированного подхода при определении размеров и видов помощи предусматривает выравнивание материального положения различных групп социально незащищенных групп населения и восстановление их статуса как полноценных членов общества. Принцип комплексности социальной помощи призван обеспечить возможность предоставления одновременно несколько ее видов. Динамичность оказания социальной защиты также является принципиальным моментом и понимается, как систематический пересмотр социальных нормативов по мере роста индекса потребительских цен, а также повышения минимального размера оплаты труда и величины прожиточного минимума.

Доступность и бесплатность информации о порядке и условиях предоставления всех видов социальной помощи также входит в состав ключевых принципов. Требование доступности информации предполагает, прежде всего, широкую публикацию в СМИ сведений о порядке и условиях предоставления социальной помощи.

Не менее важным является принцип всеобщности социальной защиты населения, предусматривающий одинаковую для каждого возможность ее получения при наступлении трудной жизненной ситуации вне зависимости от пола, расы, национальности, языка, происхождения, местожительства и иных признаков. Социально значимыми принципами являются социальное партнерство и солидарность всех слоев населения в решении задачи социальной защиты, а также участие благотворительных и общественных организаций в развитии форм и видов социальной помощи.

Таким образом, рассмотрев сущность социальной защиты, мы можем с уверенностью говорить о том, что она является целостным образованием, которое состоит из

множества совокупных компонентов, взаимодействующих и взаимосвязанных друг другом, а также с внешней средой. Иначе говоря, это полноценная система, состоящая из многих, чётко структурированных элементов.

## ЛИТЕРАТУРА

1. Организация и управление социальной защитой населения в регионе// Социальная политика региона: теория и практика: Учеб. пособие для вузов по специальности»Соц. работа»; под ред. И. П. Скворцова. – М.: КноРус, 2015. – С. 404 – 437.
2. Павленок П.Д. Основы социальной работы. М.: ИНФРА-М, 1998.
3. Савинов А.Н. Организация органов социального обеспечения: Учебник. М.: Форум, 2003.
4. Фирсов М.В. История социальной работы. Учебное пособие для высшей школы. М., 2004.

## ВЛИЯНИЕ СОВРЕМЕННЫХ ТЕХНОЛОГИЙ И ОБМЕНА ИНФОРМАЦИЕЙ НА МЕЖКУЛЬТУРНЫЙ ОБМЕН

***Родин Владимир,***
***докторант кафедры социологии БГУ***

В последнее время в мире наблюдается процесс, называемый глобализацией, данный процесс приводит к расширению взаимосвязей различных стран, народов и их культур. Влияние осуществляется посредством различного рода культурных обменов, в том числе прямых контактов между государственными институтами, социальными группами, общественными движениями, торговли, туризма и т.д.

Процесс глобализации, в последние 20 лет сопровождается стремительным развитием современных технологий быстрого, мгновенного обмена информацией, в том числе посредством Интернета. Именно развитие Интернета открыло новую страницу в разитии межкультурного обмена.

Довольно-таки многонациональная страна, Азербайджан стремится создать эффективную систему социальной организации, в которой проблемы межкультурного общения являются более важными, чем политические и экономические. В последнее время проводится политика мультикультурализма (**Мультикультурали́зм** — политика, направленная на сохранение и развитие в отдельно взятой стране и в мире в целом культурных различий, и обосновывающая такую политику теория или идеология.)

Актуальность этих проблем обнаруживается во взаимодействии со странами ближнего зарубежья, утверждающими свою культурную самобытность, государственный язык. Глобализация - с одной стороны, и самоидентификация - с другой, - две взаимосвязанные стороны современного мира.

Формирование информационного общества, основанное на развитии новых коммуникационных и информационных технологий, также оказывает большое влияние на изменения в современной культуре.

Развитие глобальной компьютерной сети Интернет воздействует на самые разнообразные области жизни и деятельности человека. Такие изменения становятся ныне предметом исследовательского интереса в культурологии. Возникает потребность в изучении Интернета как интерактивного средства межкультурного общения (коммуникации), в изучении возможности увеличения и повышения качества межкультурных контактов. В этой

связи исследование влияния Интернета на межкультурное общение в молодежной среде, а также особенностей влияния Интернета на культуру молодежи, имеет важное значение.

Развитие Интернета позволяет ставить вопрос о возможности интенсивного распространения культуры, единения и интеграции различных аудиторий, приобщения их к достижениям мировой культуры.

В связи с этим культурная информация по-новому распространяется и функционирует. Появляется возможность эквивалентного и повсеместного распространения и распределения культурных и художественных ценностей. Это связано, прежде всего, с тем, что Интернет, как коммуникативный канал, может доставлять культурную информацию не только во все уголки нашей страны, но и в другие страны.

Аспект изучения Интернета в рамках воздействия его на мужкультурный обмен, ставит перед нами следующие вопросы для изучения, а именно:

- изучение Интернет как феномена общения и выявление специфики Интернета как новой информационной среды;
- выявление основных особенностей Интернета при межкультурном общении.

Результатами анализа данного вопроса можно счесть то, что в современных условиях информационный вид коммуникации имеет особенно важное значение, поскольку каждый год информация о мире удваивается, появляются новые информационные каналы, среди которых доминантным в настоящее время является Интернет. Глобализация рассматривается как процесс качественно новой интеграции, взаимосвязанности и взаимозависимости современного мира, с учетом культурных традиций, инноваций и коммуникаций.

Интернет, как одно из проявлений глобализационных тенденций современной культуры, представляет собой универсальную коммуникативную среду, является одним из факторов социального и культурного прогресса и утверждает новые принципы человеческого бытия и человеческой коммуникации: сетевой, виртуальный, интерактивный.

В Интернете, как и в реальной жизни, межкультурная коммуникация представляет собой атрибут социокультурной жизнедеятельности общества, в социальном пространстве которого происходит взаимодействие и взаимосвязь между разными культурами в пространственном и временном измерениях.

ЛИТЕРАТУРА


1. Расторгуев В.Н. Компетентное гражданское общество в контекстесовременной геополитики. // Вестник славянских культур. Научноинформац. журнал. М., 2008, №1-2 (IX), С. 7-9
2. www.wikipedia.org


## ƏLİLLƏRİN CƏMİYYƏTƏ İNTEQRASİYASINDA REABİLİTASİYA TƏDBİRLƏRİNİN ROLU


***Nurlana Tofiq qızı İbadullayeva***
***BDU-nun dissertantı***
***nurlana.socialworker@gmail.com***


Müasir dövrdə cəmiyyətdə hər kəs üçün bərabər şəraitin yaradılması, sağlamlıq imkanları məhdud insanların fəal həyata inteqrasiyası və onlar üçün etibarlı sosial müdafiə sisteminin yaradılması zəruridir. Ümumdünya səhiyyə təşkilatının məlumatına görə, bütün dünyada 1 milyarddan çox

insan və ya dünya əhalisinin 15%-ə qədəri əlilliyin hər hansı bir formasına malikdir. Uşaqların hər 10 nəfərdən birinin əlilliyi var. [1]

Əlilliyi olan insanların hüquqlarının qorunması Birləşmiş Millətlər Təşkilatının və digər beynəlxalq təşkilatların daim diqqət mərkəzində olmuşdur. Əlilliyi olan insanların Beynəlxalq ilinin (1981-ci il), Baş Assambleya tərəfindən 3 dekabr 1982-ci il 37/52 saylı qətnamə ilə qəbul olunmuş "Əlilliyi olan insanlara dair Ümumdünya Fəaliyyət Proqramının" qəbul olunması bu sahədə tərəqqiyə güclü təkan verdi. Bu qətnamələrin hər ikisində əlilliyi olan insanların digər vətəndaşlarla bərabər imkanlara malik olması və cəmiyyətin sosial-iqtisadi inkişaf prosesində bərabər iştirak etmək hüquqları xüsusi vurğulanırdı. İlk dəfə "həndikəp" anlayışı əlilliyi olan insanlarla ətraf mühit arasında münasibətlərin asılılığı kimi müəyyən olundu [2].

BMT-nin Baş Məclisi tərəfindən 2006-cı il dekabrın 13-də qəbul edilmiş "Əlillərin hüquqları haqqında Konvensiya"nın əsas prinsiplərindən biri əlillərin cəmiyyətə tam və səmərəli cəlb olunması və daxil olmasıdır [3].

Əlilliyi olan insanların cəmiyyətə inteqrasiyasında onların tibbi-sosial reabilitasiyasını həyata keçirən əlillərin bərpa mərkəzlərinin və fərdi reabilitasiya proqramlarının böyük əhəmiyyəti vardır.

Əlilliyin qarşısını almaq bir çox hallarda mümkün olmur. Bu səbəbdən cəmiyyətdəki resurslardan əlilliyi olan insanların istifadə edə bilməsi üçün müvafiq şərait yaradılmalıdır. Əgər əlilliyi olan şəxs ictimai nəqliyyatdan istifadə edə bilmirsə, nəqliyyat vasitələri yenidən təchiz edilməli, binaların, keçidlərin qarşısına panduslar qoyulmalı, onların məşğulluq, təhsil, peşə bacarıqlarının təkmilləşdirilməsi üçün müvafiq layihə və proqramlar icra olunmalı, qanunvericilik təkmilləşdirilməlidir. Bütün bunların uğurlu şəkildə həyata keçirilməsi üçün isə cəmiyyətdə əlilliyi olan şəxslərin sayı,

onların əlillik səbəbləri, başlıca ehtiyacları müəyyən edilməlidir.

Əlilliyin qarşısının alınmasına yönələn tədbirlər sisteminə aşağıdakılar daxildir:

- qohum və irsi patalogiyalı şəxslərin nikahlarının qarşısının alınması;
- əlilliyin qarşısının alınması, əlilliyi olan şəxslərə cəmiyyətdə olan münasibəti dəyişmək məqsədilə maarifləndirmə tədbirlərinin mütəmadi olaraq həyata keçirilməsi;
- əlilliyi olan şəxslərin məşğulluq imkanlarını artırmaq məqsədilə kvota ayrılmış iş yerlərinin sayının artırılması;
- tibbi-genetik xidmət mərkəzlərinin yaradılması (irsi və anadangəlmə patalogiyanın profilaktikası, diaqnosikası, terapiyası);
- tibbi xidmətin keyfiyyətinin daha da yaxşılaşdırılması və bu məqsədlə dünya təcrübəsindən faydalanmaq;
- müxtəlif xidmət müəssisələrində əlilliyi olan şəxslərə xidmət göstərəcək sosial işçilərin sayının artırılması;
- əlilliyi olan şəxslərin sosial müdafiəsi həyata keçirilərkən (proqram, layihələr və s. hazırlanması və icrasında) ehtiyaclarının qiymətləndirilməsi məqsədilə əlilliyi olan şəxslərin və sosial işçilərin birbaşa prosesə cəlb edilməsi;
- əməyin təhlükəsizliyi və mühafizəsi, eləcə də ətraf mühitin mühafizəsi məqsədilə tədbirlərin təşkili;
- reabilitasiya tədbirlərində modern texnologiyaların tətbiqi və beynəlxalq təcrübəyə malik reabilitoloqların cəlb edilməsi.

## ƏDƏBİYYAT

1. http://www.udpo.az/qanunlar/bs_x02.html
2. Инвалидность и здоровье. Информационный бюллетень ВОЗ, №352, сентябрь 2013 http:// www.who.int/mediacentre/factsheets/fs352/ru/index.html

3. BMT-nin Əlillərin Hüquqları haqqında Konvensiyası. https://www.udpo.az

## ПРАКТИКА ИССЛЕДОВАНИЯ СОЦИАЛЬНЫХ ПРОБЛЕМ В РАМКАХ НАКОПЛЕННОГО СОЦИОЛОГИЧЕСКОГО ОПЫТА

***Родин Владимир***
***докторант кафедры социологии БГУ***

Современная социальная практика показывает, что социальные науки сталкиваются с необходимостью формирования новых, более адекватных состоянию современного общества и социального знания методологических подходов к сложившимся в социологии традициям исследования социальных проблем.

В диссертационном исследовании данная тема рассматривается исходя из реалий потребностей не только социологии, но и сравнительно новых для социальной теории нашей страны прикладных социальных наук: социальной работы и социальной политики, профессионально направленных на разрешение возникающих в обществе социальных проблем.

Социальные проблемы как научный термин впервые появляются в дискурсе социальных наук в середине XIX века в Европе. Им стали обозначать давно и хорошо известные всем человеческие беды: бедность, нищету, болезни, голод, безработицу и т.д. Под влиянием идей Просвещения о Правах человека на достойную жизнь существование в обществе подобных явлений впервые было связано с социальной несправедливостью, а устранение их осознано как задача для социальных деятелей, которую можно поставить и практически

разрешить путем определения политики и проведения социальных реформ.

В течение XIX - XX веков изучение социальных проблем и попытки их разрешения оказывали огромное влияние на развитие как социологии, так и социальной работы. Но если в социологии, как в теоретической дисциплине, этот процесс привел к созданию и накоплению социологических теорий, объясняющих причины возникновения социальных проблем и описывающих различные формы их проявлений. То в социальной работе, как в прикладной науке, ориентированной на адаптацию и приспособление теоретических положений социологии к своим нуждам, он привел к появлению различных теоретически обоснованных технологий, нацеленных на разрешени реальных социальных проблем.

Практика показывает, что социальные проблемы остаются актуальными и для современного общества. Обострение многих социальных проблем в нашем обществе, необходимость их исследования и решения, теоретические ограничения существующего отечественного подхода к социальным проблемам, объясняют растущее в последнее время внимание социологов к концептуальным разработкам в области социальных проблем, которые позволили бы сформировать подход, более адекватный современному состоянию социологии и социальной практики.

Наиболее разработанной и структурированной их частью является социология социальных проблем, которая нституционализировалась в статусе частной социологической теории в середине XX века и в которой постепенно сформировались две основные исследовательские парадигмы: объективистская и субъективистская.

Другой важной составляющей проблемной области исследования являются общие и частные социологические теории, которые или касаются в какой-либо своей части социальных проблем, или основные идеи которых можно использовать при разработке методов анализа и решения социальных проблем.

К третьей составляющей проблемной области исследования относятся теоретические разработки российской социологии, в которой в 60-80 годы XX века был сформирован подход, тяготеющий к объективистской парадигме социологии социальных проблем и рассматривающий социальные проблемы как структурно обусловленное противоречие.

Четвертая составляющая проблемной области исследования связана с теоретической адаптацией социологических подходов к исследованию социальных проблем к запросам социальной политики и социальной работы.

Для полного понимания проблемы исследования социальных проблемм, перед нами стоит цель решить следующие задачи:

- обобщить теоретический опыт зарубежной социологии социальных проблем;
- систематизировать местный опыт теоретического анализа социальных проблем.
- обосновать методологические основы интегративного подхода к социальным проблемам;

Социальные проблемы в контексте социальной работы и социальной политики трактуются как интегративное понятие, соотносящееся с их базовыми ценностями, обозначающее их профессиональное поле и указывающее на их предмет. Решение социальных проблем рассматривается как интегративный по отношению ко

многим видам, формам и методам их деятельности термин, который в тоже время характеризует функции социальной политики и социальной работы как социальных институтов в обществе. Адаптация социологической модели анализа и решения социальных проблем к контексту социальной политики и социальной работы открывает возможности для более полного и всестороннего анализа социальных проблем современного Азербайджана, а также нахождения адекватных способов их решения.

## ЛИТЕРАТУРА

1. Социальные проблемы: теории и определения // Энциклопедия социальной работы. В 3 т. М. ИСРАРССД997.
2. www.wikipedia.org

# SOSİAL STRATİFİKASİYA NƏZƏRİYYƏSİ (O.KONT, H.SPENSER)

***Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Tahir Ağayev***
***Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Aygün Məmmədova***

**Açar sözlər:** sosial stratifikasiya, sosial struktur, strat, sinif, sosial təbəqələşmə, sosial nəzarət, sosial statika, sosial dinamika

Cəmiyyətin sosial strukturunun tədqiqinin klassik istiqaməti ardıcıl olaraq O.Kont, Q.Spenser, M.Veber, P.Sorokin tərəfindən işlənib hazırlanan sosial stratifikasiya konsepsiyasıdır. Əsas prinsipial məsələ bu nəzəriyyəyə münasibətlə bağlıdır: sosial stratifikasiya konsepsiyası marksizmin sosial-sinfi nəzəriyyəsindən prinsip etibarilə nə ilə fərqlənir. Bu suala cavabın konkretliyi və dürüstlüyü, fikri-

mizcə, ilk növbədə əsas anlayışların dəqiqləşdirilməsini nəzərdə tutur; bu anlayışlar marksist "sinif" anlayışına qarşı qoyulan "strat" anlayışıdır.

Fəlsəfə ensiklopediyasında yazılmışdır ki, "strat (latınca stratum - təbəqə, lay) sosiologiyada hər hansı bir əlamətə və ya əlamətlərin məcmusuna əsasən ayrılmış sosial təbəqələri göstərmək üçün istifadə olunan termindir" [1]. Stratın oxşar tərifi ensiklopedik fəlsəfə lüğətində də verilmişdir. Lakin oradaca mühüm bir əlavə vardır: "bir çox Qərb sosioloqları stratları sosial strukturun əsas və son elementi hesab edirlər... bu zaman onlar sosial qruplar arasındakı antaqonizmlər haqqında məsələni aradan qaldırmağa çalışırlar" [2]. Bu tərifdən birmənalı belə bir nəticə çıxır ki, stratifikasiya nəzəriyyəsi birbaşa marksist sinfi struktur nəzəriyyəsinə qarşı yönəlmişdir.

Beləliklə, "strat" termini cəmiyyətin strukturlaşdırılmasının əsaslarından biri kimi başa düşülür. Cəmiyyətin strukturlaşdırılmasında stratların daha konkret mənasını biz "stratifikasiya" və "sosial stratifikasiya" terminlərinin izahında tapırıq.

Fəlsəfə ensiklopediyasında qeyd olunur ki, "sosial stratifikasiya sosiologiyasının əsas anlayışlarından biri olaraq cəmiyyətdə sosial bərabərsizlik sisteminin mövcud olmasını, onun siniflərə bölünmənin əsas meyarlarını nəzərə almayan hər hansı bir və ya bir sıra əlamətin əsasında ayrılan stratlara (təbəqələrə) bölünməsini göstərir. Qərb sosiologiyasında sosial stratifikasiya bütövlükdə özündə aşağıdakıları ehtiva edir: 1) cəmiyyətdə sosial təbəqələşmənin əlamət və meyarlar sistemi; 2) sosial təbəqələşmə və struktur nəzəriyyəsi; 3) cəmiyyətin sosial strukturu; 4) sosial təbəqələşmə sistemində insanların yerdəyişməsi - sosial mobillik" [3].

Qeyd etmək lazımdır ki, praktiki olaraq 1992-ci ilə qədər nəşr olunmuş bütün sosioloji, fəlsəfi və iqtisadi sorğu ədəbiyyatında "strat" və "sosial stratifikasiya" terminlərinin

tərifi marksizm-leninizm ideologiyası nöqteyi-nəzərindən verilir. Eyni zamanda, qeyd etmək lazımdır ki, prinsipcə, cəmiyyətin stratlara (təbəqələrə) bölünməsi orada inkar olunmur, lakin qeydsiz-şərtsiz vurğulanır ki, əsas cəmiyyətin siniflərə bölünməsidir.

Cəmiyyətin sosial strukturunun problemlərinin tədqiqinə həsr olunmuş elmi monoqrafıyalarda qeyd olunur ki, sosial stratifıkasiya nəzəriyyəsinin əsasını təşkil edən ilk tədqiqatçı O.Kont olmuşdu.

Kontun cəmiyyətin strukturlaşdırılması üzrə nəzəri-metodoloji ideyaları onun sosioloji nəzəriyyəsinin iki tərkib hissəsində: sosial statika və sosial dinamikada şərh olunmuşdur.

Sosial statika Kontun sosiologiyasında, cəmiyyətin dövlət, din, mədəniyyət, etnoslar, ailə və s. kimi dayanıqlı struktur elementlərinin mövcudluğu və fəaliyyəti qanunlarına söykənərək cəmiyyəti tədqiq edən bölməsi kimi çıxış edir. Bundan başqa, sosial statikada sosial strukturların, sosial institutların tipologiyası öyrənilir. Bütün ictimai hadisələr birlikdə bütöv orqanizm, sistem təşkil edir. Sosial statikanın ideyaları sonralar funksional təhlilin əsasnı təşkil etmişdir.

Şübhəsiz, cəmiyyətin sosial strukturu konsepsiyasının inkişafına O.Kontun sosial dinamikası da ictimai tərəqqinin nəzəriyyəsi kimi müəyyən təsir göstərmişdir. O, sosial hadisələrin dəyişməsi prosesinin, onların istiqaməti və nəticələrinin tədqiqinə, eləcə də bu dəyişikliklərə təsir edən amillərin öyrənilməsinə yönəlmişdir.

O.Kontun nəzəriyyəsini sosiologiyada üzvi məktəbin banisi ingilis sosioloqu Herbert Spenser dəstəkləmiş və inkişaf etdirmişdir. Bu məktəbin əsasını sosial həyatın izah edilməsində bioloji və sosial orqanizmlərin arasında müəyyən analogiyanın aparılması təşkil edir.

Əsas sosioloji ideyaları H.Spenser özünün 3 cildlik "Sosiologiyanın əsasları" əsərində şərh etmişdir. H.Spenserin

konsepsiyasında cəmiyyət sosial-strukturlaşdırılmış orqanizmdir. Cəmiyyətin struktur elementlərinə bölünməsinin əsasında könüllülük və ya məcburilik nöqteyi-nəzərindən əməkdaşlıq prinsipi durur. Bu məsələ daha dəqiq şəkildə H.Spenser tərəfindən "sosial nəzarət" (terminin özü H.Spenserə məxsusdur) mexanizminin mahiyyətinin açılmasında təhlil olunur.

Cəmiyyətdə sosial nəzarət, qismən siyasi idarəyə əsaslanır. Lakin ən əsası odur ki, o, "sağların və ölülərin qarşısında" qorxu üzərində durur. H.Spenser iddia edir ki, "sağların qarşısındakı qorxu" dövlət kimi bir sosial institutu, "ölülərin qarşısındakı qorxu" isə kilsəni yaratmışdır. İnsanların gündəlik davranışı sosial nəzarətin formalarından biri kimi “mərasim institutları” ilə tənzimlənir. "Mərasim institutları" dövlət və kilsədən daha yaşlı, daha əsasdır. Onlar subyektlərin ünsiyyətini tənzimləyir, sanki onların "status" və "ranqını" nıöhkəmləndirir, "subordinasiya hissini" yaradır. Beləliklə, mərasim institutları sosial iyerarxiyanı, sosial fərqləri bərqərar edir və möhkəmləndirir ki, bunların ilk mənbəyini H.Spenser müharibədə görür. Qaliblər hakim sinfə, məğlub olanlar isə qullara və ya təhkimlilərə çevrilirlər.

Müharibədən başqa, H.Spenser sosial təbəqələşmənin mənbəyini, həmçinin əməyin bölgüsündə də görür. O qeyd edirdi ki, quldarlığın yaranması, hər şeydən əvvəl, cəmiyyətin tənzimləyici (hakim) hissəsinin onun əməliyyatçı (məhsuldar) hissəsindən ayrılması deməkdir... Əvvəlcə işçi fiziki, çox vaxt isə, əqli cəhətdən onu işləməyə məcbur edənə güzəştə gedir; beləliklə, əmək keyfiyyətsizlik əlamətinə çevrilir.

H. Spenserin cəmiyyətin sosial strukturun təşəkkülü üzrə bir çox ideyaları daha sonra struktur-funksional təhlilin, onu özlərinin böyük sələfi hesab edən nümayəndələri tərəfindən inkişaf etdirilmişdi.

## ƏDƏBİYYAT

1. Философская энциклопедия. В 5-ти томах. М., 1970, Т. 5, с. 138.
2. Философский энциклопедический словарь. М., 1989, с. 628-629.
3. Философская энциклопедия. В 5-ти томах. М., 1970, Т. 5, с. 80-81.

## SOSİAL İŞ BİR SƏNƏTDİR

***Abbaslı Gülər Səfər q.***
***BDU - nun II kurs magistrantı***

Sosial iş elə bir sənətdir ki, o insanların rifahı üçün sosial dəyişikliklər edir, insanlar arasındakı münasibətlərdə problemləri həll edir və insanların rifahını yüksəltmək üçün onları daxili güclərinə, öz potensiallarına axralanmağa yönəldir. Bundan başqa sosial iş, rifahlarına çatmaq üçün insanların müstəqil olmasına da şərait yaradır (Beynəlxalq Sosial İşçilər Asosasiyası 2004).

Sosial işçi dövlət ilə vətəndaş arasında vasitəçilik edən şəxsdir. Vətəndaş yeni çıxan qanunları, hüquqlarını, hansı növ sosial xidmətlərin olduğunu və s bilmir. Sosial işçi ailəyə gedir, qiymətləndirir və lazım ola yerlərə istiqamətləndirir. Sosial iş geniş bir elmdir və Azərbaycanda son dövrlər inkişaf etməyə başlamışdır. İlk öncə Sosial işin tarixinə qısa nəzər salaq. 1-ci mərhələ – qədim dövrdən başlayır. Qarşılıqlı yardım və dəstək formasında sosial işin arxaik formaları yaranmışdır. 2-ci mərhələ – XIX əsrin sonu-XX əsrin əvvəlləri sosial işin ayrıca peşə sahəsi kimi inkişaf etməsi. 3 -cü mərhələ – 80-ci illərdə sosial işin insan hüquqlarının müdafiəsi kimi dərk edilməsi formalaşır. Bununla bağlı 1948-ci ildə qəbul edilmiş Ümumdünya İnsan Hüquqları Bəyannaməsi və digər insan hüquqları sənədlərində əks olunmuş hüquqlar sosial işin

fəaliyyət sahəsində xüsusi yer tutmağa başlayır. 4-cü mərhələ – 80-ci illərin sonu-90-cı illərin əvvəli sosial işin nəzəriyyəsi və təcrübəsi əsas fəaliyyətin klientin fəallaşması prinsipi əsasında keçirilməsi konsepsiyası ilə zənginləşir. Sosial işdə üç praktik səviyyə mövcuddur: *Mikro* səviyyədə sosial iş; fərdlər, ailələr və qruplarla iş. Bura keys menecment və terapiyalar daxildir. *Mezzo* səviyyədə sosial iş; proqramlar və xidmələrin təşkilatlar və institutlar səviyyəsində yaradılması və idarə olunması, *Makro* səviyyədə sosial iş; sosial planlaşdırma, dövlət səviyyəli təşkilatlar və sosial siyasətçilər ilə sosial iş aparmaq. Evsiz və işsiz insanlar, həssas təbəqədən olan ailələr, mənəvi etinasızlığa, cinsi, fiziki və zorakılığa məruz qalan uşaqlar və ailələr, nigah problemləri olan ailələr, əqli inkişafdan geri qalmış adamlar, ailələr, yaşlı adamlar və ahıllar, nikahdan kənar hamilə olan yeniyetmə qızlar, fiziki və ya əqli əlillik və ya xəstəlik üzündən həyatları çətin olan fərdlər və ya ailələr, alkoqoldan və ya narkotikadan sui-istifadə edənlərin özləri və ailələri, övladlığa götürülmüş uşaqlar, immiqrantlar və ya milli azlıqlar, miqrantlar və ya başqa ölkəyə getmək üçün müvəqqəti yerləşmiş adamlar, fərdlər, QİÇS-ə yoluxmuş fərdlər və ya ailələr və s.

Sosial işə hər ölkədə müxtəlif cür yanaşılır. Çünki Amerikanın, Avropanın, Afrikanın, Azərbaycanın problemləri eyni ola bimləz. Biz xarici nəzəriyyələri olduğu kimi Azərbaycanda tətbiq eliyə bilmərik. Çünki bu heç bir zaman effektiv ola bilməz. Biz ən yaxşısı bizə lazım olan nəzəriyyələri cəmiyyətimizə uyğunlaşdırıb, adaptasiya edəndən sonra tətbiq edə bilərik.

Hal-hazırda sosial işdə hətta sosial sferada ciddi durğunluq yaranıb. Ancaq indi yavaş-yavaş düzəltməyə və inkişaf etdirməyə çalışırıq. Bunun üçün bizə sosial işçilərə ilk öncə özümüz dəstək göstərməliyik ,daha sonra isə dövlət orqanları tərəfindən lazımi dəstək göstərilməlidir. 2012- ci ildə Sosial Xidmət Haqqında Qanun qəbul olundu. Bu böyük irəlləyiş və

uğurdur. İndi sadəcə qanunda bəzi dəyişiklər etməklə, daha da zənginləşdirməklə, oradakı bəndlərin icrasını yerinə yetirməklə tez bir zamanda müsbət yönümlü inkişafa nail olmaq olar.

## ƏDƏBİYYAT


1. Adams Dominelli. Social Work: Themes, İsues and Critical Debates, Basingstoke, Macmillan: 2009, p.97
2. Clark J.W. Social Justice Beliefs, Practice Behaviors of Social Workers and The Social Work Mission, Walden University School of Health and Human Services: 2012, p.125
3. Code of Ethics. National Association of Social Workers, 2008.
4. Qəhrəmanov E.Ə., Əhmədov Y.P. Sosial işin əsasları. Azərbaycan Universiteti. Bakı, 2014, səh.277


## РАЗВИТИЕ И ФОРМИРОВАНИЕ ВОЛОНТЕРСКОЙ ДЕЯТЕЛЬНОСТИ В АЗЕРБАЙДЖАНЕ


***Гаджиева Айгюнь Махир кызы***
***Магистрант II курса БГУ***
***ahaciyeva@inbox.ru***


Необходимость поддержки развития добровольческой (волонтерской) деятельности признана на международном уровне.

Генеральная Ассамблея Организации Объединенных Наций в 2001 году рассмотрела вопрос законодательного регулирования добровольческой деятельности и включила в Резолюцию 56/38 рекомендации о необходимости регулирования и поощрения государствами волонтерской деятельности на законодательном уровне.

Совет Европы тоже рекомендует государствам определять статус волонтерской службы на национальном

уровне, подчеркивая его образовательные аспекты и значимость для общества.

Добровольческая (волонтерская) деятельность представляет собой вид безвозмездной деятельности, и является способом самовыражения и самореализации граждан, которые действуют на благо других людей или общества в целом.

Особенно популярна она в таких странах, как США, Англия, Германия, Испания, Франция, Финляндия, Швейцария и др.

В волонтерском движении участвуют учащиеся, студенты, преподаватели вузов, люди самых разных профессий – вполне благополучные и респектабельные, но предпочитающие проводить свободное время в активном созидании.

Многие страны имеют законы, определяющие правовые основы волонтерской деятельности, поощряющие и вдохновляющие граждан к добровольчеству (волонтерству), оставляя за ними право выбора направлений добровольческой деятельности. Соответствующие законы есть в США, Канаде, а также в ряде европейских стран - Хорватии, Чехии, Венгрии, Италии, Латвии, Литве, Люксембурге, Македонии, Польше, Португалии, Румынии, Испании, Сербии и Молдове.

В Азербайджанской Республике на протяжении ряда лет наблюдается устойчивый рост числа граждан и организаций, участвующих в добровольческой деятельности. В то же время в Азербайджане остается значительное число тех, кто хочет заниматься этой деятельностью, но не знает как.

Государство пытается стимулировать граждан заниматься добровольческой (волонтерской) деятельностью, хотя для этого еще не создано должных

условий. Азербайджанские добровольцы не могут рассчитывать на гарантии государства, нет четкого законодательного регулирования различных вопросов связанных с данной деятельностью.

По закону АР Добровольческая (волонтерская) деятельность не может быть направлена на поддержку определенных партий, объединений и ассоциаций, в том числе на продвижение товаров, работ и услуг.

Добровольческая (волонтерская) деятельность дополняет, но не заменяет деятельность органов государственной власти и органов местного самоуправления в осуществлении их полномочий.

По закону АР определены полномочия государственных и негосударственных учреждений, механизмы взаимодействия их с добровольцами (волонтерами), действующих индивидуально или через добровольческие (волонтерские) организации, порядок разработки и реализации добровольческих (волонтерских) программ и акций.

По решению соответствующих органов государственной власти субъектов АР и органов местного самоуправления участникам добровольческой (волонтерской) деятельности может быть оказана поддержка в виде:

материально-технического обеспечения и субсидирования добровольческих организаций и организаторов добровольческой (волонтерской) деятельности;

полного или частичного освобождения добровольцев (волонтеров) от оплаты государственных или муниципальных услуг;

полного или частичного освобождения организаторов добровольческой (волонтерской) деятельности или добровольческих (волонтерских) организаций от оплаты

использования государственного или муниципального имущества;

финансирования на конкурсной основе благотворительных и добровольческих (волонтерских) программ, добровольческих (волонтерских) мероприятий и добровольческих (волонтерских) акций;

предоставления первоочередного права покупки билетов на все виды транспорта при отправлении к месту осуществления добровольческой (волонтерской) деятельности.

Субъектами АР ведется активная работа по развитию волонтерского движения. На региональном уровне создаются базы вакансий для волонтеров, центры развития добровольчества, разрабатываются концепции развития волонтерской (добровольческой) деятельности молодежи и положения о волонтерской деятельности.

## ЛИТЕРАТУРА

1.Азарова, Е.С. Психологические детерминанты и эффекты добровольческой деятельности.

2.Всемирная декларация добровольчества

3.И.В. Кузьменко Добровольческая деятельность студентов педагогического вуза в их профессиональном становлении // Социально-педагогическое обеспечение профессионального становления личности в условиях многоуровневого образования в вузе – Кострома.

4.Кузьменко И.В., Баркунова О.В. Добровольческая деятельность молодежи как технология сетевого взаимодействия.

5.Конституция АР

6.Решетников О.В. Корпоративное добровольчеств: Научно-методическое пособие. – М.: ООО «изд-во Проспект».

# KİV-LƏR DEMOKRATİK PROSESLƏRİN REALLAŞMASININ MÜHÜM SFERASI KİMİ

*Həsənova Günay Hikməd qızı,*
*BDU-nun II kurs magistrantı*
*gunay.hasanova91@mail.ru*

Uzunmüddətli formalaşma mərhələsindən keçən kütləvi informasiya vasitələri birdən birə yaranmamışdır. İnformasiya, söz, mətbuat azadlığı uğrunda mübarizənin tarixi qədim dövrlərə gedib çıxır. Qədim dövrlərdə informasiyanı ötürmək üçün çaparlardan, qasidlərdən, göyərçinlərdən, siqnal tonqallarından, sonralar teleqraf, müasir dövrdə isə peyk-rabitə sistemindən istifadə edildi.

KİV ilk dəfə olaraq Qərbdə yaranmış, inkişaf etmiş və bütün dünyaya yayılmışdır. Qərbdə dünya şöhrəti qazanmış kütləvi informasiya vasitələrindən və informasiya agentliklərindən ABŞ-ın Associated Press (AP) və United Press İnternational (UPİ), İngiltərənin Reuters, Fransanın isə Agence France Pressenin (AFP) adlarını qeyd etmək olar. Türkiyə tədqiqatçısı R.Nurdoğanın dediyi kimi, "bu xəbər agentliklərinin dünyanın müxtəlif nöqtələrində büroları fəaliyyət göstərir və onlar 24 saat müddətində mütəmadi olaraq fasiləsiz informasiya hazırlayıb yayır. Dünyada xəbər axınının 80%-nin bu xəbər agentlikləri tərəfindən təmin edilir" [2, s. 81-82].

Azərbaycanda olduğu kimi Qərbdə də dövlət KİV-ə yardım göstərir. Bu mənada Avstriya, Fransa, Hollandiya, Norveç və İsveçi xüsusi qeyd etmək olar. Hollandiya və Norveçdə jurnalistlərin və medianın müstəqilliyi məhdudlaşdırılmır. KİV İsveçdə uğur və nüfuzuna görə ölkədə ikinci yer tutur. Avstriya isə ehtiyacı olan bütün mətbuat orqanlarına maliyyə yardımı ayırır.

Amerika demokratiyasının inkişafı ilə bağlı söz, mətbuat azadlığı, azadfikirliliyin inkişafı və Fransa inqilabının söz azadlığı müasir informasiya sistemi və mətbuatın inkişafına böyük töhvələr vermişdir. Deyə bilərik ki, müasir amerika demokratiyasının əsasında informasiya azadlığı durur. Vətəndaşların informasiyaya azad giriş haqqında hüquqları konstitusion həllini artıq burada tapmışdır [1, s. 120].

ABŞ dünya demokratiyasının dayağı hesab edilir. Bu ölkədə mətbuat azadlığına aparan yol heç də rahat olmamışdır. Hətta qeyd edə bilərik ki, informasiya əldə etmək uğrunda mübarizə və müstəqil KİV-in formalaşması tarixi dövlətin yaranması yaşı ilə üst-üstə düşür. Mətbuat, informasiya və söz azadlığına olan münasibətdə "aşağılar" ilə "yuxarılar" arasında ciddi fikir ayrılığının olmaması amerikan cəmiyyətini digərlərindən fərqləndirən vacib əlamətlərdən biri hesab etmək olar. Bəzi mütəxəssislər mətbuat azadlığının bərqərar olunmasında öz azadlıqlarını hər hansı bir abstrakt cəmiyyətin azadlığından üstün sayan sadə amerikalıların roluna diqqət yetirirlər. Tarixə nəzər salaraq amerika tarixini fərdi azadlıqların əldə edilməsi uğrunda mübarizə tarixi adlandıra bilərik.

KİV-in inkişafına bir çox amillər təsir edir. Bu amilləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. İqtisadi və sosial amillər.
2. Siyasi və ictimai stiuasiya.
3. Hüquqi və təşkilati amillər.
4. Yaradıcılıq mühitinin mahiyyəti.
5. Texnoloji imkanlar.

KİV ictimaiyyətin narazı qaldığı məsələləri müzakirəyə çıxarıb diqqəti özünə çəkərək hakimiyyəti özündən asılı vəziyyətə sala bilmək imkanına malikdir. Məhz belə ölkələrdə informatik hakimiyyət formalaşır və KİV-in məlumatlarına həssaslıq nümayiş etdirilir. Müstəqil KİV hər zaman bu

cəsarətə sahib olmaq məcburiyyətindədir. Belə olmadığı təqdirdə demokratiya şübhə altında olacaqdır.

## ƏDƏBİYYAT


1. Алексис де Токвиль. Демократия в Америке. М:, Прогресс, 1991, 554 с
2. Информация и общество. От книги до интернета... Москва: Изд-во МГУ, 2000, 256 с.
3. Nurdoğan R. Məzmun dizaynında xəbər. İstanbul. Der, 2000, 189 s.
4. www.media- az.com


## FEMİNİST NƏZƏRİYYƏLƏR


***Əlizadə Tamilla Elçin qızı,***
***BDU-nun II kurs magistrantı***


Feminizm bütün vətəndaş hüquqlarının qadınlara təqdim olunmasını hədəfləyən ictimai-siyasi hərəkətdir. Feminizmin yaranma tarixi kimi XVIII əsrin sonu XIX əsrin əvvəlləri qəbul olunur. Məhz bu dövrlərdən qadınların kişilərin mərkəzdə dayandığı cəmiyyətdə məzlum yer tutduğu fikri geniş kütlələlər arasında yayılmağa başladı. Feminist hərəkatının kökləri XIX əsrin Qərb cəmiyyətinin islahat hərəkatına gedib çıxır. Feminizm hərəkatının əsasını i səs vermə və seçilmə, dövlət vəzifəsi tutmaq, bərabər əmək və əmək haqqı, mülkiyyət, təhsil, sazişlərdə iştirak, nikahda bərabərlik və analıq məzuniyyəti hüquqları uğrunda mübarizə təşkil edir. Feminizm ideologiyasına görə, cəmiyyətdə haqlar, imtiyazlar və status cinsi mənsubiyyətə uyğun olaraq təyin edilməməlidir.

Feminizmin daxilində bir çox cərəyanlar mövcuddur. Bunlar aşağıdakılardır:

- Radikal feminizm iki iddiaya əsaslanır: 1) qadınlar öz-özlüyündə mütləq pozitiv dəyərə malikdirlər - bu iddia qadınların rolunun qiymətsizləşdirilməsinə əks fikir olaraq yürüdülür; 2) qadınlar patriarxal sistem tərəfindən amansız şəkildə basqıya məruz qalırlar.
- Liberal feminizm. Feminizmin bu axını liberalizmin və demokratiyanın əsas prinsiplərində öz əksini tapır. Bununla yanaşı, ictimai müqavilə nəzəriyyəsi və liberal feminizm konsepsiyalarının əlaqəsi də vurğulanır. Beləliklə, liberal feminizmin əsas məqsədi həyat fəaliyyətinin müxtəlif sferalarında bərabər hüquqlar əldə etmək, dövlət aparatında təmsil olunmaq, kişinin iradəsinə tabe olmadan seçim etməkdir
- Fərdiyyətçi feminizm (libertar feminizm, ifeminizm) - qadınlara hörmətcil münasibəti bərqərar etmək üçün mübarizə edən və hər bir qadının şəxsiyyətini müdafiə etməyə çalışan feminizm ideyalarını əks etdirir. Fərdiyyətçi feminizm qadınları öz şəxsi həyat üçün tam məsuliyyəti öz üzərlərinə götürməyə çağırır. Burada həmçinin yetkin insanlarının öz fəaliyyətinə dövlətin istənilən müdaxiləsinə qarşı çıxılır, çünki iddia edilir ki, belə müdaxilə məcburi iyerarxiyalar (məsələn, patriarxat) yaradır.
- Yeni feminizm əsasən katolik fəlsəfədir; bu istiqamət kişilər və qadınların müxtəlif güclü tərəflərə, perspektivlərə, və rollara malik olduğu fikrini qəbul edir, amma onların bərabər səviyyədə dəyərli olduğunu dəstəkləyir. Onun əsas anlayışlarından biri odur ki, ən əhəmiyyətli fərqlər mədəni yox, biolojidir.
- Sosialist feminizm istismar, zülm və əmək haqqında marksizm ideyalarını qadınların əzilməsi ideyası ilə birləşdirir. Bu feminizm qadınları iş yerində və məişətdə bərabər olmayan vəziyyətlə əlaqədar zülmə məruz qalanlar kimi qiymətləndirir. Sosialist feminizmin tərəfdarları qadınların yalnız kişilərlə deyil, qadınlar kimi kapitalist sistemi çərçivəsində istismara

məruz qalan digər qruplarla birgə çalışmasının vacibliyini qeyd edirlər və s.

Feminzm hərəkatının birmənalı qarşılanmamasının əsas səbəbi onun düzgün dərk edilməməsindən irəli gəlir. Feminizm qadın hökmranlığını yox, bərbər hüquq təminatını dəstəkləyir.

## ƏDƏBİYYAT


1. Джордж Ритцер «Современные социологические теории», - СПб: Питер, 2002
2. Тишков В.А. Изучение истории семьи и статуса женщин в США // Вопросы истории. - 1988. - N4. - С.54-67.
3. Alice Echols, Daring to Be Bad: Radical Feminism in America, 1967—1975, University of Minnesota Press 1990
4. Hawkesworth, M.E. Globalization and Feminist Activism. — Rowman & Littlefield, 2006. — P. 25–27.
5. https://ru.wikipedia.org/wiki


## РОЛЬ UAFA В СОЦИАЛЬНОЙ ПОДДЕРЖКЕ ДЕТЕЙ АЗЕРБАЙДЖАНА


***Дж.З.Мамедова***
***Магистрант II курса, БГУ***


Социальная работа определяется социальной политикой государства как определенной ориентацией и системой мер по оптимизации социального развития общества, отношений между социальными группами, созданию тех или иных условий для удовлетворения жизненных потребностей их представителей. Азербайджан за последние годы достиг большого прогресса в процессе эффективного решения социальных проблем, система социальной защиты населения была перестроена в

соответствии с передовыми международными стандартами. Только при таких условиях новая область деятельности могла возникнуть, получить развитие и внести весомый вклад в оказание социальной поддержки населению в драматический период его жизни - период переходной экономики. Подготовка и переподготовка кадров сотрудников учреждений социального обслуживания, специалистов органов социального управления предусматривает усвоение ими многих дисциплин, охватывающих различные стороны социальной действительности[2].

Цель исследования состоит в анализе развития социальной работы в Азербайджане на примере неправительственной международной организации UAFA,в разработке практических рекомендаций по совершенствованию деятельности в социальной сфере.

Методологической основой исследования служили основные методы социологических эмпирических исследований. В первую очередь, это сбор информации, включающий в себя качественный метод социологических исследований, позволяющий понять суть вопроса. В качестве количественных методов исследования, позволяющихпонять насколько массова и важна для общества данная проблема использовались социологический опрос, анализ документов, метод интервью и наблюдение. И, конечно, это анализ и обработка полученной информации.

Основными задачами детских социальных служб, существующих во многих странах, являются следующие: обеспечение со стороны государства достижения семьей определенной степени экономической самостоятельности; профилактика насилия над детьми и их эксплуатации; создание и поддержка различных институциональных

форм опеки, а также поддержка неинституциональных форм, в частности, «общинных»[3].

Деятельность UAFA направлена на внедрение передового опыта в области развития детей, образования и социальной защиты детей в рамках информационно-пропагандистской деятельности. Приоритетными направлениями деятельности UAFA являются: оказание помощи на базе общественных центров реабилитации детям-инвалидам с ограниченными возможностями и их семьям, своевременное оказание помощи в лечении детей отстающих от развития и детей-инвалидов, а также пропагандистская деятельность и расширение прав и возможностей гражданского общества[1];[4].

Начиная с оказания непосредственной помощи беженцам и вынужденным переселенцам, детям, проживающим в интернатах различного профиля, в Психоневрологическом детском доме и др., дойдя до сотрудничества с Министерством Труда и Социальной Защиты населения, Министерством Образования, Министерством Здравоохранения, Министерством Финансов, до координации своей деятельности на высоком правительственном уровне, UAFA за время работы оказала помощь более 10000 детям Азербайджана. Благодаря проведенному исследованию можно заключить, что за 18 лет работы UAFA в Азербайджане эта организация стала наиболее хорошо информированной организацией по проблемам защиты детей[1];[4]. Эти знания можно эффективно использовать для координации работ в настоящем и будущем по защите детей, в сотрудничестве с другими организациями-партнерами.

В результате проведенной научно-исследовательской работы по анализу роли международной организации UAFA в становлении социальной работы в Азербайджане, были выработаны следующие рекомендации:

✓ Необходима совместная и согласованная организация работы министерств, международных организаций и добровольческих объединений осуществляющих свою деятельность по социальной поддержке населения в Азербайджане.

✓ При планировании работы в социальной сфере учитывать традиции, обычаи и потребности местного населения.

✓ Особое внимание следует обратить на подготовку персонала по уходу за детьми с ограниченными возможностями здоровья, поскольку это наиболее уязвимая группа населения.

✓ Повышение уровня информированности в обществе, вследствие которого увеличивается степень доброжелательного отношения народа Азербайджана в отношении уязвимых групп населения.

✓ Стремление к созданию благоприятных условий для семей в соответствии с рекомендациями ООН о невозможности размещения детей до трехлетнего возраста в государственных учреждениях.

## ЛИТЕРАТУРА

1. Xüsusi ehtiyacı olan uşaqların inkişafına dair rəhbərlik //Reabilitasiya işçiləri, valideynlər və uşağa qulluq edən digər şəxslər üçün.- UAFA 3.bur., 2014, 261 s.

2. Смирнов Б.В. Прогнозирование, проектирование и моделирование в социальной работе: учебное пособие. - Хабаровск: Изд-во ДВГУПС, 2009. – 201 с.

3. Холостова Е.И. Зарубежный опыт социальной работы: Учебное пособие/ Е.И.Холостова, А.Н.Дашкина, .В.Малофеева.-М.: Дашков и К°, 2013.- 368 с.

4. http://www.uafa.az/uafa/ru.html

# POLİTOLOGİYA VƏ İQTİSADİYYAT

***Bölmə rəhbəri – dos.A.Rüstəmov***

## ABŞ-IN YAXIN VƏ ORTA ŞƏRQDƏ ƏSAS PRİORİTETLƏRİ

***Emin Kərimov***
***BDU-nun doktorantı***
***bundesreich@mail.ru***

**Açar sözlər:** İslam, Yaxın və Orta Şərq, konfessional fərqlilik, Ağ ev.

**Ключевые слова:** Ислам, Ближний и Средний Восток, конфессиональные различия, Белый дом.

**Key words:** Islam, Near and Middle East, confessional differences, White House.

“Böyük Orta Şərq” layihəsi haqqında ilkin fikirlər yəhudi əsilli tarixçi Bernard Levisə aiddir [4.səh.6]. Levis  Amerikan administrasiyasında olan Yeni Mühafizəkarların (NeoCons) ən etbarlı məsləhətçisi olmuşdur. Bernard Levis digər bir yəhudi – “Qaranlıqlar Şahzadəsi” ləqəbi ilə tanınan Rixard Perle vasitəsiylə, öz fikirlərini Dik Çeniyə çatdıra bilmişdi. Çeniy isə öz növbəsində Levisin Orta Şərq, İran, İraq, İslam haqqında fikirlərindən çox təsirlənmiş və siyasi dairələrin diqqətini bu fikirlərə çəkə bilmişdi [4.səh.7].

“Böyük Orta Şərq Layihəsi” 1960-cı illərdə Yeni Mühafizəkarlıq hərəkatının aktiv nümayəndələri olan – bir qrup jurnalist və politoloqlar tərəfindən sitemləşdirilməyə başlanıldı. Bunların arasında İrving Kristol, Norman Podhorest, Midge Dekter, Ben Uattenberg, Natan Glazer, Daniel Bell kimi amerikan siyasətini nəzəriyyələşdirən adlar vardır. Daha sonra bu qrupa Nyu York əyalətinin keçmiş senatoru Daniel Patrik

Mohinghan, Rixard Perle, Eliot Abrhams, Cannet Adelmann, Gene Kirkpatrik, və Ualt Ugene Restov kimi tədqiqatçılar qatılmışlar. Bu şəxslərin çoxu Çikago Universitetinin professoru, ciddi nüfuza malik Albert Volştetterin tələbələridirlər. Rixard Perle isə eyni zamanda Albert Volştetterin kürəkənidir. Yeni Mühafizəkarların tərkibində yəhudilərdən başqa, Xristiyan – Protestant – Evangelistlər, Xristiyan – Katoliklər də yer alıblar [4.səh.7].

"Böyük Orta Şərq" layihəsi ABŞ-ın rəsmi sənədlərində bütöv göstərilməsə də, bu planın ayrı — ayrı hissələri ABŞ-ın rəsmi nümayəndələrinin və MKİ (ABŞ "Mərkəzi Kəşfiyyat İdarəsi", ingiliscə CİA – "Central Intelligence Agency") tabeliyində fəaliyyət göstərən beyin mərkəzlərinin hesabatlarında, bəyanatlarında və s. sənədlərdə verilmişdir [6.səh.91].

Bu layihənin ilkin variantı hələ 1995-ci ildə ABŞ-ın "Milli Strateji Araşdırmalar İnstitutu" ("İnstitute for National Strategic Studies") və "Milli Müdafiə Universiteti" ("National Defence University") tərəfindən nəşr edilən "Milli qüvvələrin rüblüyü" ("National Force Quarterly")adlı jurnalının payız buraxılışındakı "Böyük Orta Şərq" ("The Greater Middle East") başlıqlı yazıda işıqlandırılmışdır [1.səh.44].

Bu sənədlərdən ən vacibi 17 sentyabr 2002-ci ildə imzalanmış ABŞ "Milli Təhlükəsizlik Strategiyası" doktrinasıdır. Bu sənəd ABŞ-ın "soyuq müharibə" bitdikdən sonra dünya nizamı üçün hazırladığı önəmli sənədlərdəndir. "Milli Təhlükəsizlik Strategiyası" 20 sentyabr 2002-ci ildə ictimaiyyətə açıqlanmışdır [1.səh.24].

ABŞ-ın XXI yüzillikdə təhlükəsizlik strategiyasını özündə cəmləmiş həm "Yeni Amerikan Yüzilliyi Layihəsi" ("Project New American Centry"), həm də "Milli Təhlükəsizlik Strategiyası" ("National Security Strategy") respublikaçıların siyasi baxışlarına uyğun şəkildə qələmə alınmışdır. Mətbuatda tez – tez "şahinlər" adlandırılan yeni mühafizəkarlar əsasən

Respublikaçılar Partiyasının təmsilçiləridirlər. Yuxarıda adları çəkilmiş sənədlərdə göstərilir:

— Terrorizmin yaranıb, dünyaya ixrac edilməsinə münbit şərait yaradan bütün qeyri - demokratik rejimlərin qəti şəkildə məhv edilməsi

— Təhsilsizliyin aradan qaldırılması,

— Dini fanatizmlə mübarizə aparılması

— Terrorizmə qarşı amansız mübarizədə heç bir danışıqlara və razılaşmaya getməmək

— Amerikan liberalizminə uyğun infrastrukturun, azad bazarın, modern həyat tərzinin yaradılması

— Regionda maarifləndirmə işi aparan müxtəlif qrupların fəaliyyətinin maliyyələşdirilməsi, onların dəstəklənməsinə xüsusi diqqət ayrılması

— Yeni tipli təhsilin inkişaf etdirilməsi

"Böyük Orta Şərq Layihəsi"nin təşəbbüskarlarından olan Dik Çeniy layihə haqqında bunları söyləmişdir: "Böyük Orta Şərq Layihəsinin ana fikri, bütün regiona demokratiyanı yayaraq, regionda inkişafı və sülhü qarantiya altına almaqdan ibarətdir. Demokratiyaya gedən yolda regionun özünəməxsus problemlərini həll etmək lazım gələcək:

— Sərhədlərdəki hüquq pozuntularının qarşısını almaq

— Dini və milli azlıqların öz müqəddəratını həll etməsi

— Bütün regionu zəhərləyən yanlış ideologiyaları məhv etmək üçün təhsildə islahatlar aparmaqla böyük irəliləyişə nail olmaqdır" [4.səh.11].

## ƏDƏBİYYAT

1. Direzinci A. 1990-2004 yillari arasında Türkiye ile Ortadoğu ülkelerinin ekonomik ilişkileri. Gaziantep: Gaziantep Üniversitesi basımı, 2005, 167 s.

2. Beyza T. Büyük Ortadoğu Projesi. Sivas: Cümhuriyyet Üniversitesi basımı, 2006, 191 s.
3. Middle East : İran
https://www.cia.gov/library/publications/the-world-factbook/geos/ir.html
4. Erceylan M. Büyük Orta Doğu Projesində İranın önemi. Kocaeli: Kocaeli Üniversitesi basımı, 2007, 134 s.
5. Evcioğlu K. ABD-nin Büyük Ortadoğu Projesi. Baykənt: Alfa-Kaos-Omeqa-Tapınak, 2005, 478 s.
6. Gordon T. Mossad gizli tarihi. İstanbul: Koridor yayıncılık, 2005, 472 s.
7. Orçun Ş. 1990-2000 yillari arasinda Turkiyenin Ortadogu politikası ve ABD-nin rolu. İstanbul: Marmara Üniversitesi basımı, 2006, 125 s.
8. Sümer G. Amerikan Dış Politikasının Kökenleri ve Amerikan Dış Politik Kültürü. Ankara: Maltepe Üniversitesi basımı, 2008, 149 s.

## РЕЗЮМЕ

В диссертации впервые в отечественной историографии в комплексном взаимосвязывающем плане исследованы проект «Большой Ближний Восток». Средний Восток изначально является колыбелью современной культуры. В конце XX и начале XXI века в США, а затем и в других странах Запада весь огромный регион от Марокко до Пакистана включительно стал рассматриваться как единое целое уже не только в культурном, но и в политическом плане. В этой статье был проведен обзор стратегических планов США, в Среднем Восточном регионе, являющихся самой кризисной областью внешней политики, и данных планов самыми ведущими государствами Запада и Востока. В этой статье пытались исследовать анализ и результаты дипломатических и недипломатических шагов,

которые будут сделаны в будущем всего Среднего Востока в проекте «Великий Средний Восток», основанном на новых консерваторах «Белого Дома».


## SUMMARY

In the thesis for the first time in the history of the country has been investigated "Great Middle East Project". The Middle East is known as the "cradle of civilizations and cultures". At the end of XX and beginning of XXI century in the United States and then in other Western countries, the entire huge region stretching from Morocco to Pakistan inclusively began to be considered as a whole not only culturally, but also politically. Analyze and results of diplomatic and non-diplomatic steps to be made in the Great Middle East project based on new conservatives of White House in the future of whole Middle East are tried to be investigated.


## QEYRİ NEFT SEKTORUNUN İNKİŞAFINDA SƏNAYE PARKLARININ YARADILMASININ ƏHƏMİYYƏTİ


***baş laborant Rəhimov Coşqun Aydın o.***
***S.Ə Dadaşov adına Elmi-Tədqiqat və***
***Layihə-Konstruktor İnşaat Materialları İnstitutu***


Azərbaycan neft ölkəsidir, ixracatımızda karbohidrogen daşıyıcıları üstünlük təşkil edir. Lakin iqtisadiyyatın çoxşaxəli inkişafı istiqamətində də addımlar atılır. Bunun sayəsində ölkəmizdə qeyri-neft sektoru formalaşmağa başlayıb. Bu gün neftin üç dəfədən də çox ucuzlaşmasına baxmayaraq ölkəmizin dərin böhrana düşməməsinin səbəbi məhz budur. Hazırda neft-qaz sənayesi ilə paralel inkişaf edən qeyri-neft sektoru

iqtisadiyyatımızda dayanıqlığın təminatında mühüm rol oynayır..

Son illərdə Azərbaycanda həyata keçirilən iqtisadi siyasətinin əsas inkişaf sütununu qeyri-neft sənayesi təşkil edir. Sənayenin bu bölməsi son illər sürətlə inkişaf edir və iqtisadiyyatın əsas milli gəlir gətirən perspektiv sahəsinə çevrilməkdədir. Sənayeləşmənin və indistriual cəmiyyət quruculuğunun yeni modellərinin tətbiq olunması ilə bağlı təşəbbüslərin artması da bu strateji planın tərkib hissəsidir. Bu mənada, bu gün ölkə rəhbərliyinin hökumət qarşısında qoyduğu əsas vəzifələrdən biri qeyri-neft sektorunun daha da inkişaf etdirilməsidir. Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bildirib ki, qeyri-neft sektorunun inkişafı əsas prioritet olacaq: "İqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı 2016-cı ildə iqtisadi sahədə əsas prioritet olacaqdır. Ümumi daxili məhsulun strukturu müsbətə doğru dəyişir, qeyri-neft sektorunun çəkisi artır, neftdən asılılıq azalır... Neftdən asılılıq minimum səviyyəsinə endirilməlidir. Çalışmalıyıq ki, xarici sərmayəni ölkəmizə cəlb edək, xüsusilə qeyri-neft sektoruna - o sahələrə ki, onların inkişafı Azərbaycanın potensialını gücləndirəcək və idxaldan asılılığını azaldacaq".

Bu sektorda məhsul istehsalı ildən-ilə artır. Ötən il ölkə üzrə ümumi daxili məhsul istehsalı bir faizdən çox, sənaye istehsalı 2,4, qeyri-neft sənayesi 8,4 faiz artıb. Başqa sözlə, keçən il qeyri-neft sektoru üzrə büdcə daxilolmaları 6 milyard 950 milyon manat, yaxud 103 faiz icra edilib. Bu, proqnozda nəzərdə tutulduğundan 200 milyon manat, 2014-cü illə müqayisədə 9,5 faiz çoxdur. Qeyri-neft sektoru üzrə vergi daxilolmalarının xüsusi çəkisi isə 40,5 faiz təşkil edib ki, bu da 2014-cü illə müqayisədə 6,5 faiz-bənd artıqdır. Son 10 ildə paytaxtda və iri şəhərlərdə sənaye texnoparkları yaradılıb,

bölgələrdə isə sənaye məhəllələrin yaradılmasına start verilib. Qeyri-neft sektoruna verilən dəstək sayəsində bu gün Azərbaycanda minlərlə kiçik, orta və iri sənaye, kənd təsərrüfatı, emal və turizm müəssisələri fəaliyyət göstərir. Eyni zamanda tikinti sektorunda yaradılan müxtəlif təyinatlı məhsul istehsalı müəssisələri ümumi inkişafa töhfə verir. İndi xaricdən tikinti mallarının alınması minimum həddə enib, bəzi məhsulları isə ixrac edirik. Paralel olaraq ölkədə kənd təsərrüfatı məhsullarının emal sənayesi də formalaşıb. Artıq bir sıra kənd təsərrüfatı məhsulları emal edilərək xaricə də ixrac olunur

Azərbaycan da dünyanın bir parçası olaraq, iqtisadiyyatında, xüsusən də qeyri-neft sektorunda, sənayenin inkişafında maraqlı olan dövlətlərdən biridir. Ölkədə sənaye parkının (şəhərciyinin) yaradılması ilk dəfə ümummilli lider Heydər Əliyevin "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında" 2002-ci il 10 sentyabr tarixli Fərmanında müəyyən edilib. Bununla yanaşı, sənaye parkının yaradılması Azərbaycan Prezidenti İlham Əliyevin 2004-cü il 11 fevral tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)"nda Abşeron iqtisadi rayonu üzrə həyata keçiriləcək tədbirlərə də daxil edilib. Həmçinin ölkə başçısının 2008-ci ildə imzaladığı sərəncamlarla həyata vəsiqə almış "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”nda və "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı”nda da sənaye parkının yaradılması nəzərdə tutulub. Azərbaycan Prezidentinin 2011-ci il 4 may tarixli Sərəncamıyla təsdiq edilmiş "2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində həyata keçiriləcək Tədbirlər Planının

2.8.45-ci bəndində isə Balaxanı sənaye parkının yaradılması öz əksini tapıb. Dövlət başçısının 24 aprel 2013-cü il tarixli Fərmanı ilə "Sənaye parkları haqqında Nümunəvi Əsasnamə"nin təsdiq edilməsi ilə ölkədə müxtəlif təyinatlı sənaye parklarının yaradılması istiqamətində tədbirlər həyata keçirilib.

Regionların sosial-iqtisadi inkişafı proqramlarının icrası ölkədə makroiqtisadi sabitliyin qorunmasında və davamlı inkişafında mühüm rol oynamış, iqtisadi və inzibati rayonlar üzrə yatırılan investisiyalar və həyata keçirilmiş tədbirlər öz real bəhrəsini vermiş, bütün regionların iqtisadiyyatında dinamik inkişaf davam etmişdir.

Parkların yaradılmasında əsas məqsəd ölkəmizdə yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye məhsullarının istehsalının genişləndirilməsi, Bakı şəhəri və ətraf qəsəbələrdə ekoloji vəziyyətin yaxşılaşdırılmasıdır.

Göstərilənlərdən əlavə, hazırda cari ildə istifadəyə verilməsi planlaşdırılan çoxsaylı sənaye müəssisələrinin tikintisi, o cümlədən tikinti materialları, toxuculuq, tikiş, parça boyama, plastik borular və digər plastik məmulatlar istehsalı müəssisələri, müxtəlif növ elektrotexniki avadanlıqların istehsalı və qida sənayesi zavodlarının tikintisi davam etdirilməkdədir. Sadalananlar onu təsdiqləməyə əsas verir ki, qeyri-neft sənayesi üzrə 2016-cı və sonrakı illərdə də daha yüksək artıma nail olunacaqdır.

Dövlətimiz tərəfindən həyata keçirilən və elmi əsaslara söykənən xarici və daxili siyasət, uğurlu diplomatik fəaliyyət, gerçəkləşən iqtisadi doktrina belə deməyə əsas verir ki, Azərbaycan növbəti illərdə də bu siyasətin davamı sayəsində hərtərəfli inkişaf tempini saxlayacaq, həm regional, həm də qlobal səviyyədə öz mövqelərini daha da möhkəmləndirəcəkdir.

# İNKLÜZIV TƏHSİL SOSİAL-PSİXOLOJİ PROBLEM KİMİ

Əsədova İlahə İlqar qızı,
Sosial və pedaqoji psixologiya kafedrasının
dissertantı

İnklüziv təhsil müasir dövrdə öz aktuallığı ilə fərqlənən məsələlərdən biridir. Belə ki, xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilə cəlb olunması hamının diqqət mərkəzindədir. Xüsusilə dövlətin bu sahədə gördüyü işlər göz önündədir. İnkluziv təhsilin köməyi ilə xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsil sistemində, yerli icmalarda xüsusi dəstək xidmətləri göstərilməklə yaşıdları ilə birlikdə oynamalarına ,təhsil almalarına ,inkişaf etmələrinə şərait yaranır. İnklüziv təhsilin əsas məqsədi sağlamlıq imkanları məhdud şəxslərə həyat üçün zəruri olan bilik, bacarıq və vərdişlər aşılamaq, cəmiyyətə qovuşmalarını təmin etmək, özünə xidmət bacarıqlarını formalaşdırmaq, yaradıcı əmək fəaliyyətinə və ailə həyatına hazırlamaqdan ibarətdir. İnkluziv təhsil uşaqların müstəqil bir fərd olduğunu və təhsil zamanı onların hər birinin öz ehtiyacları olduğunu qəbul edən metodologiyaları inkişaf etdirməyə yönəlib. İnkluziv təhsil tədris zamanı müxtəlif ehtiyacların ödənilməsinə yönəlmiş yanaşmaların formalaşdırılmasına çalışır.

Azərbaycanda "İnklüziv təhsil layihəsi" nin icrasına 2005-ci ildən start verilmişdir. Nazirlər Kabinetinin 3 fevral 2005-ci il tarixli, 20 nömrəli qərarına əsasən "Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsili"nin təşkili üzrə inkişaf proqramı təsdiq edilmişdir.“Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda sağlamlıq imkanları məhdud uşaqlar üçün müxtəlif inkişafetdirici, korreksiyaedici və inklüziv təhsil proqramlarının tətbiq edilməsi, onların bacarıq və qabiliyyətlərinin inkişaf etdirilməsi, onların cəmiyyətdən təcrid olunmasının qarşısının alınması sahəsində tədbirlərin həyata keçirilməsi ilə bağlı müddəalar əksini tapıb.

İnkluziv təhsilin inkişafının əsasında xüsusi qayğıya ehtiyacı olan uşaqlarımızın humanistcəsinə himayə olunub, onlara cəmiyyətin

bir üzvü kimi yanaşıb daim diqqət mərkəzində saxlanılması dayanır. Bunun üçün ilk öncə belə övladlarımıza cəmiyyət özü qucaq açmalıdır. Sağlam düşüncəli cəmiyyətimiz fiziki və əqli məhdudiyyəti olan övladlarımızı elə dəyərləndirməlidirlər ki, onlar hansısa səbəbdən təcrid olunduqlarını hiss etməsinlər. Belə ki, inkluziv təhsil haqqında proqramın əhəmiyyətindən danışarkən bu məsələlər ön planda qeyd edilir: "Proqram inkişafdan geri qalan uşaqların əqli cəhətdən formalaşdırılması, özünüxidmət vərdişlərinə yiyələnmələri, onlara sərbəst yemək, geyinmək, oynamaq kimi bacarıqların aşılanması, cəmiyyətdə kollektivə inteqrasiya olunması üçün əlverişli stimul yaratmağa imkan verir".

İnkluziv təhsillə bağlı beynəlxalq praktikaya görə, bir sinifdə təhsil alan xüsusi qayğıya ehtiyacı olan şagirdlərin sayı 5-10% olmalıdır.

Məlumdur ki, inklüziv təhsil sağlamlıq imkanları məhdud uşaqların ümumtəhsil məktəbinin təlim prosesinə fəal daxil olmasından daha çox kütləvi təhsil prosesinin bir sistem kimi yenidən qurulmasını və bütün uşaqların təhsil ehtiyaclarının təmin edilməsini nəzərdə tutur. İnklüziv təhsilin ən üstün cəhətlərindən biri də xüsusi qayğıya ehtiyacı olan uşaqlarla sağlam uşaqların bir yerdə təhsil almasıdır.Bildiyimiz kimi, bu çox çətin prosesdir. Belə ki, burada həm pedaqoq, həm həkim, həm də psixoloq olmalıdır.

İnkluziv təhsil-əqli və ya fiziki cəhətdən zəif uşaqlara məktəbəqədər və ümumtəhsil müəsisələrində təhsil almaq imkanı verən inteqrativ prosesdir.nkluziv təhsilin köməyi ilə xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsil sistemində ,yerli icmalarda xüsusi dəstək xidmətləri göstərilməklə yaşıdları ilə birlikdə oynamalarına ,təhsil almalarına ,inkişaf etmələrinə şərait yaradır.

Bütün uşaqlar kimi, sağlamlıq imkanları məhdud uşaqların da təhsil almaq hüququ var. Burada bizim köməyimizə çatan inklüziv təhsildir. İnklüziv təhsil-digər uşaqlarla birlikdə təhsil almaq, onlarla əməkdaşlıq etmək, ümumi təcrübəyə yiyələnmək deməkdir. O,təlim prosesinə fəal qoşulmanı,şagirdin olduğu kimi qəbul edilməsini və qiymətləndirilməsini nəzərdə tutur. İnklüziya xüsusi qayğıya ehtiyacı olan uşaqların ümumtəhsil məktəblərinə sadəcə olaraq daxil olması deyil. İnklüziv sinif mühitində təlim hər bir uşağın yoldaşları ilə

birlikdə tədris prosesində iştirak etmə hüququnu nəzərdə tutur. İnkluziv təhsilin inkişafının əsasında xüsusi qayğıya ehtiyacı olan uşaqlarımızın humanistcəsinə himayə olunub, onlara cəmiyyətin bir üzvü kimi yanaşıb daim diqqət mərkəzində saxlanılması dayanır.

Təəssüf ki, inklüziv təhsil fikri insanlar arasında tam olaraq formalaşmayıb.Bəzən valideynlər öz uşaqlarının sağlamlıq imkanları məhdud uşaqlarla birlikdə təhsil almaqlarını istəmirlər. Sağlam uşaqların valideynləri ilə yanaşı, əlil uşaqların valideynlərinin də maarifləndirilməyə ehtiyacları var. Çünki hər valideyn xüsusi qayğıya ehtiyacı olan uşağının təhsilə cəlb edilməsini istəmir. Buna qorxu da demək olar. Valideynlər uşaqlarını bu təhsildən yayındırmaqla sanki, onları kənardan gələ biləcək təsirlərdən qoruduqlarını düşünürlər. Bu da bu sahədə yetərincə maarifləndirmə işlərinin aparılmamasından xəbər verir. Həmçinin qeyd etmək lazımdır ki, xüsusi qayğıya ehtiyacı olan uşaqlarda özünüqiymətləndirmə səviyyəsi aşağıdır, onlarda adaptasiya tipik uşaqlara nisbətən gec baş verir. Onların bu münasibəti də təlim prosesinə mənfi təsir göstərir.Bütün bunlardan əlavə inklüziv təhsil sahəsindəki mövcud problemlərdən biri də xüsusi qayğıya ehtiyacı olan uşaqlara zəruri xidmətlərin təşkili ilə bağlıdır. Bir sıra hallarda mütəxəssis çatışmazlığı inklüziv təhsil layihələrinin daha səmərəli keçirilməsinə mane olur. Aşağıda göstərilən məsələlər də mövcud problemlər arasında yer alır.

-Məktəblərin arxitextura cəhətdən əlçatmazlığı;

-Xüsusi təhsil ehtiyaclarını olan uşaqların oxumağa qadir olmamalarının qəbul edilməsi;

- Məktəbin pedaqoji kollektivinin əlillik məsələləri haqqında kifayət qədər məlumatının olmaması.

Bununla yanaşı, inklüziv təhsil sahəsində hələ təcrübəmiz kifayət qədər deyildir və bu səbəbdən bir sıra problemlərlə də rastlaşırıq. Belə ki, inklüziv təhsil layihələrinin həyata keçirildiyi təhsil müəssisələrinə əlavə ştatların alınması, müəllimlərin, müəllim köməkçilərinin, tərbiyəçilərin və tərbiyəçi köməkçilərinin, valideynlərin xüsusi treninqlər vasitəsilə hazırlanması, inklüziv təhsilə cəlb olunmuş uşaqlar üçün fərdi təhsil proqramlarının hazırlanması, xidmətlərin təşkili, o cümlədən loqoped, psixoloq, defektoloq və sair mütəxəssislərdən ibarət qrupların yaradılması və

təhsil müəssisələrinə təhkim edilməsi məhz bu kimi problemlərdəndir.

Bütün bu çətinliklərə baxmayaraq qeyd etmək lazımdır ki,bu sahədə olan mövcud problemləri aradan qaldırmaq və inklüziv təhsil sahəsində uğurlar əldə etmək mümkündür. Xüsusilə maarifləndirmə işləri daha geniş bir şəkildə aparılmalıdır.

## İSTIFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1.Hüseynov Q., Şərəfxanova L., Məmmədova S., Mikayılova Ü., Kərimova Y. İnkluziv Təhsil. Bakı.: 2010.

2.Həsənova İ.M. Sağlamlıq imkanları məhdud olan uşaqların cəmiyyətə adaptasiyası. (Metodik vəsait) Bakı: ADPU, 2012, s.60-64.

3.İnkluziyanın göstəriciləri. Unicef. Praktik vəsait, Bakı.: 2011, s.120.

4.“İnklüziv təhsil”. Peşəkarlar üçün metodik vəsait, Bakı.: 2010, s.154.

5.Основные принципы инклюзии - http://obrazovanie.perspektivainva.ru

## MÜNDƏRİCAT

## PSİXOLOGİYA BÖLMƏSİ

*A.F.Səməndərova.* Şəxsiyyətin siyasi identikliyi probleminə əsas yanaşmalar…………………………………………..................3
*A.T.Şahmuradova.* Gənclərin aqressiv davranışının cinayətə yol açması...........................................................................5
*Yıldız Mustafa* . Yeniyetmə miqrantlarin psixoloji adaptasiyasının yaş və fərdi xüsusiyyətləri.................................7
*E.İ.Şəfiyeva, S.A.Allahyarova, S.Y.Quliyeva.* Aşağı ətrafları amputasiya edilmiş şəxslərin psixoloji durumu...........................9
*D.R.İbrahimova.* Moda sosial-psixoloji fenomen kimi...............11
*N.Y.Həmzəyeva.* Təkrar cinayət törətmiş qadınların təsnifatı və tipologiyası.........................................................................16
*G.A.Səmədova.* Artiq çəkili insanların motivasiya-tələbatlar sferasının psixoloji səciyyəsi...................................................19
*С.А. Аллахярова, Э.А Ибрагимов.* Психологическое консультирование при дентофобии......................................21
*A.N.Davudova, E.A.Piriyeva.* Təhsildə imtahan stressinin psixoloji xüsusiyyətləri və korreksiyası..................................24
*S.İ.Hüseynova* Məktəbəqədər yaşlı uşaqların nitqinin inkişafını şərtləndirən tələblər..............................................................27
*G.İ.Musayeva.* Abituriyentlərlə psixoloji məsləhət işinin spesifik xüsusiyyətləri....................................................................30
*A.M.Mütəllimova.* Hüquqazidd davranışlı yeniyet-mələrin hüquq praktikasında psixoloji baxımdan tədqiqi .................................34
*A.S.Mahmudova.* Fərdlərin davranışının nizamlayıcısı kimi mədəniyyət xüsusiyyətləri.......................................................36
*Р.М.Мирзагаева.* Влияние табакокурения на психическое здоровье…………………………..........................................38
*B.F.Seidzadə.* Müasir dövr Azərbaycan gənclərinin mənəvi dəyərlərinin sosial-psixoloji cəhətləri.......................................42
*S.Ə.Məmmədova.*Görmə qüsruru olan uşağın mənlik şüurunun və

özünü qiymətləndirməsinin formalaşması..................................46
*R.H.Əyyubova.*Tələbə psixoloqlarin peşə hazirliğinin xüsusiyyətləri..........................................................................48
*R.Ə.Əsgərova.*Deprivasiya və onun növləri.....................50
*K.Q.Kazımova, Y.Ə.Vəliyeva, A.Ş.Bəylərli.*Azərbaycan ailəsi milli-mənəvi dəyərlərimizin qoruyucusu kimi………………… ......54
*A.M. Mütəlibova.* Menecment və liderlik..................................58
*S.S.Məsmalı.* Azərbaycan təhsil sistemindəki inkluziv təhsil proqramının xarici ölkələrdən fərqli cəhətləri............................61
*Н.Рагимова.* Формирование основ безопасности жизнедеятельности у детей дошкольного возраста..............63
*S.Cəlilzadə.* Şizofreniyadan əziyyət çəkən xəstələrin müalicəsində koqnitiv remidiasiya proqraminin rolu.............................................66

## FƏLSƏFƏ BÖLMƏSİ

*R.N.Bayramova.* Humanizm nədir?...........................................71
*Ф.М.Ефендиев, И.А.Исламов.* НАНОЭКОНОМИКА-НОВАЯ ОСНОВА ДЛЯ РАЗВИТИЯ ИНТЕРЭКОНОМИКИ……………........................73
*V.Zülfüqarov.* Multikulturalizmin tədqiqi prioritet elmi istiqamət kimi...............................................................................................79
*Ф.М.Ефендиев, И.А.Исламов.* Нейроэкономика - направление или основа?........................................................81
*N.Hüseyn.* Məhəmməd İqbal fəlsəfəsində mənliyin tərbiyə olunması məsələsi...............................................................................84
*S.H.Səfərova.* Aleksandr L. Çijevskinin kosmizmi və onun fəlsəfi mahiyyəti...............................................................................87
*G.R.Babazadə.* Mistisizmin ümumi mahiyyəti və təşəkkülü....91
*V.Ə.Camalova.* Tarixi prosesin izahında müqayisəli təhlil metodu.................................................................................................93
*Ə.V.Həziyev.* İnformasiyalaşma qlobal texniki inkişaf kontekstində..........................................................................................96

## PEDAQOGİKA BÖLMƏSİ

*T.Ə. Abdullayeva.* Yeniyetmələrdə özünü göstərən normal davranışdan kənarlaşmanın (deviant davranışın) simptomları...100

## SOSİOLOGİYA VƏ SOSİAL İŞ BÖLMƏSİ

*Р.А.Рустамли.* Понятие и сущность социальной защиты населения.......................................................................105
*В. Родин.* Влияние современных технологий и обмена информацией на межкультурный обмен.................................108
*N.T. İbadullayeva.* Əlillərin cəmiyyətə inteqrasiyasında reabilitasiya tədbirlərinin rolu..................................................111
*В. Родин.* Практика исследования социальных проблем в рамках накопленного социологического опыта.....................114
*T.B.Ağayev, A.Məmmədova***.** Sosial stratifikasiya nəzəriyyəsi (O.Kont, H.Spenser)............................................................117
*G.S. Abbaslı.* Sosial iş bir sənətdir.............................................121
*А.М.Гаджиева.* Развитие и формирование волонтерской деятельности в азербайджане…………………………..........123
*G.H.Həsənova.*KİV-lər demokratik proseslərin reallaşmasının mühüm sferası kimi...........................................................127
*T.E.Əlizadə.* Feminist nəzəriyyələr..........................................129
*Дж.З.Мамедова***.** Роль UAFA в социальной поддержке детей Азербайджана........................................................................131

## POLİTOLOGİYA VƏ İQTİSADİYYAT

*E.A.Kərimov.* ABŞ-ın yaxın və orta şərqdə əsas prioritetləri.....135
*C.A.Rəhimov.* Qeyri-neft sektorunun inkişafında sənaye parklarının yaradılmasının əhəmiyyəti.....................................138
Əsədova İ.İ.İnklüziv təhsil sosial-psixoloji problem kimi.......143

Texniki redaktor: V.K. MUSAYEVA

# ELM VƏ TƏHSİLİN İNKİŞAF STRATEGİYASI



GƏNC TƏDQİQATÇILARIN RESPUBLİKA
ELMİ-PRAKTİK KONFRANSININ
materialları
(27 aprel 2016-cı il)